ASCO

Asiya və Avropa arasında ən qısa körpünüz




# BEŞ İLLİK HESABAT

# 2019-2023

www.asco.az

# BEŞ İLLİK HESABAT
# 2019-2023



“Bizim Xəzər Dəniz Gəmiçiliyinin Donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir. Bu sahədə işlərin müsbət istiqamətdə getməsi sevindirici haldır”.

Ümummilli Lider

**HEYDƏR ƏLİYEV**



“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi bu gün beynəlxalq tələblərə uyğun dəniz nəqliyyatı xidmətləri gerçəkləşdirməklə iqtisadiyyatımızın inkişafına dəyərli töhfələr verir”.

Azərbaycan Respublikasının Prezidenti

## İLHAM ƏLİYEV

# MÜNDƏRİCAT


ASCO-nun İdarə Heyətinin Sədrinin ön sözü ........ 8

## ASCO HAQQINDA 10

Tariximiz........ 12
Təşkilatı struktur ........ 14
Dəyərlər, missiya və strateji hədəflər ........ 16

## ASCO-NUN FƏALİYYƏTİ 18

Əsas fəaliyyət sahələri ........ 20
Yükdaşımalar........ 21
Əməliyyat marşrutları ........ 22
Neft və qaz sənayesinə ixtisaslaşmış ofşor xidmətləri........ 24
ASCO-nun İdarə Heyəti Sədrinin müavininin çıxışı........ 26
Donanmaların yenilənməsi ........ 28
Gəmi təmiri və tikintisi........ 32
Gəmiçilik sahəsində təhsil və təlim........ 34
Mühüm işlər və layihələr........ 36

## ASCO RƏQƏMLƏRLƏ 38

Maliyyə göstəriciləri ........ 40
Əməliyyat göstəriciləri........ 42

## DAYANIQLI İNKİŞAF 44

İnsan resurslarının idarəedilməsi departamentinin rəisinin çıxışı . . . . . 46

İnsan resurslarının idarəedilməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48

Dayanıqlılıq və emissiyaların idarəedilməsi üzrə direktorun çıxışı . . . . 50

Ətraf mühitin mühafizəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52

Texniki direktorunun texniki innovasiyalar və yeni texnologiyalar üzrə müavininin çıxışı . . . . . . . . . . . . . . . . . . . . . . . . . 56

Sağlamlıq və əməyin təhlükəsizliyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58

Korporativ sosial məsuliyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 60

## KORPORATİV İDARƏETMƏ 74

Strateji idarəetmə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 77

Şəffaflıq, hesabatlılıq və məlumatların açıqlanması . . . . . . . . . . . . . . . . . 77

Mükafatlandırma sistemi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 78

Satınalma sistemi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 78

Daxili audit və nəzarət sistemi / Risklərin idarəedilməsi . . . . . . . . . . . . . 79

Biznes etikası və komplayens . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 80

Korrupsiyaya qarşı tədbirlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 81

Korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi yönündə görülmüş digər işlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 82

## MALİYYƏ HESABATLARI 84



Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) 2019-cu ildən 2023-cü ilədək olan dövrü əhatə edən 5 illik hesabatının bütün oxucularını salamlayırıq.

Bu hesabatda siz tariximiz, missiyamız və strateji hədəflərimizlə tanış olacaq, eləcə də, Şirkətin əməliyyat və maliyyə nəticələri, təşkilati strukturu, donanmamızın əsas fəaliyyət sahələri və marşrutları, idarəetməsi və sair mövzularda dəyərli məlumatlar əldə edəcəksiniz.

Hesabatın əhatə etdiyi 5 illik dövr dünyada pandemiya, müharibələr, dəyişkən neft qiymətləri, bir çox bazarlarda geosiyasi qeyri-müəyyənlik və nəticədə yaranan iqtisadi durğunluq, kəskin dəyişən yükdaşıma həcmləri və sair kimi qeyri-adi hadisələrlə yadda qalacaq. Belə çətin şərtləri ehtiva edən bir dövrdə əməliyyatlarımızın səmərəliliyini və gəlirliliyi təmin etməklə səhmdar üçün qazanılan dəyərin artırılması, müştərilərimizə dəstək olmaq, daha aşağı xərclərlə təhlükəsiz əməliyyatlar məqsədilə aktivlərdən düzgün istifadə, davamlı optimallaşma, işçilərimizin maddi və mənəvi rifahını təmin etmək və korporativ sosial məsuliyyət çərçivəsində öhdəliklərimizi qarşılamaq xüsusi səy tələb edirdi.

ASCO qeyd edilən çətin dövr ərzində nəinki hər il mənfəətliliyi təmin etdi, eləcə də donanmanın yenilənməsi yönündə önəmli irəliləyiş əldə etdi, yükdaşımaların həcmini qənaətbəxş səviyyədə saxladı və işçilərin əmək haqqlarını əhəmiyyətli dərəcədə artırdı.

Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş və Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı konsepsiyasının əsas istiqamətlərindən biri də nəqliyyat sektorunun hərtərəfli inkişafıdır. Nəqliyyat sektorunun beynəlxalq əhəmiyyət daşıyan prioritet sahələrindən biri olan gəmiçiliyə ölkə rəhbərliyi tərəfindən göstərilən xüsusi diqqət və qayğının nəticəsidir ki, yarandığı gündən etibarən ASCO mənfəətliliyin təmin edilməsi, əməliyyatların təhlükəsizliyi, korporativ idarəetmə, donanmanın yenilənməsi, müştərilərə dəyər qatan həllərin təqdim edilməsi, hesabatlılığın şəffaflığı, rəqəmsallaşma və digər sahələrdə ciddi nəticələr əldə etmişdir. Təsadüfi deyil ki, ASCO ölkə rəhbərliyi tərəfindən özəl kapitalın cəlb edilməsi üçün hazır hesab edilmişdir.

Hesabat dövründə ASCO-da diqqətəlayiq hadisələr baş vermişdir ki, onların sırasında “Laçın”, “Kəlbəcər” və “Akademik Xoşbəxt Yusifzadə” tankerlərinin, “Azərbaycan” və “Zərifə Əliyeva” Ro-Pax tipli gəmi-bərələrinin Bakı Gəmiqayırma Zavodunda tikilərək istifadəyə verilməsi, ASCO-nun Zığ gəmi təmiri və tikintisi

zavodunda “ASCO-1” və “Tərtərçay” gəmilərinin tikilərək istifadəyə verilməsi, ASCO-nun əsas strateji partnyoru olan Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə birgə paritet əsaslarla təsis edilmiş SA Maritime AFEZCO şirkəti tərəfindən 3 ədəd hər birinin yükgötürmə qabiliyyəti təxminən 115,000 ton olan “Aframax” tipli tankerlərin alınması və bu tankerlərə Azərbaycan Respublikası Prezidentinin birbaşa dəstəyi ilə Vətən müharibəsində qələbənin şərəfinə “Qarabağ”, “Şuşa” və “Zəngəzur” adlarının verilməsi, ASCO istiqrazlarının tədavülə buraxılması, ASCO-nun yeni inzibati binasının və dünyada ilk tanker muzey olan “Suraxanı” muzeyinin açılışı, 487 dənizçi ailəsinin təmirli mənzillərlə təmin edilməsi və digərlərini sadalamaq olar.

Bu gün ASCO korporativ idarəetmənin tətbiq edildiyi, beynəlxalq yükdaşıma əməliyyatları və ofşor texnoloji donanması olan, ətraf-mühit və sosial məqamların qeydinə qalan, möhkəm balansa sahib, özünün gəmi təmiri zavodları və akademiyası olan, 4 mindən yuxarı peşəkar dənizçi olmaqla təxminən 7,800 nəfər işçisi olan mənfəətli bir şirkətdir.

Gələcəyin qeydinə qalmaqla bu günü qorumaq ASCO mədəniyyətinin tərkib hissəsidir.

Əməliyyatların təhlükəsizliyini təmin etməklə mənfəətliliyi artırmaq, korporativ idarəetməni təkmilləşdirmək, daha güclü nəzarət mühitinin yaradılması, özəl kapitalın cəlb edilməsi, donanmanın yenilənməsi, zərərlə işləyən gəmilərin və qeyri-profil fəaliyyətlərin tərk edilməsi, emissiyaların daimi azaldılması, rəqəmsal texnologiyaların yaratdığı fürsətlərdən yararlanmaq üzərində davamlı işlərin görülməsi sabahın əsas çağırışları sırasındadır.

Qəbul etdikləri mühüm qərarlarla ASCO-ya daim dəstək olan Müşahidə Şurasının dəyərli üzvlərinə, Azərbaycan İnvestisiya Holdinqinin bütün kollektivinə, bizə etimad göstərən müştərilərimizə, keyfiyyətli xidmət göstərən podratçılarımıza, etibarlı və peşəkar işçilərimizə ASCO-nun qət etdiyi bu yolda yaxından iştirak etdikləri üçün təşəkkürümüzü bildiririk. Bu gün ASCO onların sayəsində gələcəyə inamla baxır.

## Rauf Vəliyev

ASCO-nun İdarə Heyətinin Sədri





# ASCO HAQQINDA

# TARİXİMİZ

Azərbaycan gəmiçiliyinin hüquqi əsası 1858-ci ildə “Qafqaz və Merkuri” Səhmdar Cəmiyyətinin yaradılması ilə qoyulmuşdur. Gəmiçilik sahəsində 165 illik zəngin təcrübəyə və qədim tarixə malik olan ASCO Xəzər dənizində ən böyük daimi donanmaya sahibdir.

**1858** “Qafqaz və Merkuri” Səhmdar Cəmiyyətinin yaradılması ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin əsasının qoyulması

**1866** “Qafqaz və Merkuri” Səhmdar Cəmiyyətinin Bakıda mexaniki zavodunun bünövrəsinin qoyulması

**1873** Dünyada ilk neftdaşıyan “Aleksandr” barjının Xəzərdə istismara verilməsi

**1878** Dünyada ilk tanker “Zərdüşt”ün Xəzərdə istismara verilməsi

**1881** Gəmilərin kadrlara tələbatını ödəmək üçün Bakı Dənizçilik siniflərinin fəaliyyətə başlaması

**1903** İlk daxili yanma mühərrikli “Vandal” gəmisinin Xəzər dənizində istismara verilməsi

**1908** İlk reversivli iki mühərriklə çalışan “Delo” gəmisinin Xəzər dənizində istismara verilməsi

**1949** “Azərdənizneft” birliyinin tərkibində “Üzən vasitələr” idarəsinin yaradılması ilə Xəzər Dəniz Neft Donanmasının təməlinin qoyulması

**1960** Xəzər Dəniz Gəmiçiliyinə məxsus gəmilərin dünya sularına çıxması

**1962** Xəzərdə ilk bərə keçidinin inşası (Türkmənbaşı) və bərə gəmilərin fəaliyyətə başlaması





ASCO istiqrazlarının tədavülə buraxılması



ASCO-nun Zığ gəmi təmiri və tikintisi zavodunda inşa edilən ilk gəminin (“ASCO-1”) istismara verilməsi

**2023** “Aframax” tipli tankerlərin (“Qarabağ”, “Şuşa” və “Zəngəzur”) istismara verilməsi



2021 – Xəzərdə ilk gəmi-muzey, dünyada isə ilk tanker-muzeyin (“Suraxanı”) istifadəyə verilməsi

**2021** Azərbaycanda inşa edilən ilk Ro-Pax/ Bərə tipli gəminin ("Azərbaycan" gəmi-bərəsi) istismara verilməsi

**2019** Azərbaycanda inşa edilən ilk tankerin (“Laçın” tankeri) istismara verilməsi




“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin rebrendinqi və fəaliyyətini ASCO adı altında davam etdirməsi

Donanmaların yenilənməsi (28 ədəd yeni gəminin istifadəyə verilməsi)

Xəzərdən kənarda fəaliyyətin bərpa edilməsi

Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilməsi ilə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin yaradılması

Bərə donanmasının yenilənməsi

**2004** Xəzərdə ən böyük 13,000 ton dedveytə malik ilk tankerin (“Prezident Heydər Əliyev” tankeri) istismara verilməsi

**2003-2011** Tanker donanmasının yenilənməsi

**1997-2010** Xəzərdən kənarda fəaliyyət göstərən gəmilərin Xəzərə gətirilməsi

Nəqliyyat donanması üçün yeni tankerlərin, universal quru yük gəmilərinin və bərələrin alınması və tikintisi

**1969-1987** Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə hər il 20-30 gəmi olmaqla, ümumilikdə 400-dən çox gəminin tikintisi və donanmanın sürətli inkişaf dövrü

# TƏŞKİLATİ STRUKTUR

## STRUKTUR İDARƏLƏR



Dəniz Nəqliyyatı Donanması



Xəzər Dəniz Neft Donanması



Zığ Gəmi Təmiri və Tikintisi Zavodu



Bibiheybət Gəmi Təmiri Zavodu

İstehsalat Xidmətləri İdarəsi

# TÖRƏMƏ MÜƏSSİSƏLƏR



- Azərbaycan Dövlət Dəniz Akademiyası
- Təlim Tədris Mərkəzi
- Azərbaycan Dənizçilik Kolleci



ASCO Shipmanagement AFEZCO



ASCO Mühəndislik MMC

“ASCO Turkey Gemi İşletmeciliği” AŞ (Türkiyə Respublikası)

ASCO Nəqliyyat MMC

Dənizçi Təmir Tikinti MMC

Yaxt Klub MMC

“Dənizçi” Mənzil Tikinti Kooperativi

Azerbaijan Caspian Shipping Limited (Malta Respublikası)

# BİRGƏ MÜƏSSİSƏLƏR

SA Maritime AFEZCO

Xəzər Dəniz Gəmiçiliyi MMC

Xəzər Dəniz Mühəndisliyi Bürosu MMC

# Dəyərlər, missiya və strateji hədəflər




## Dəyərlər

- Keyfiyyətli xidmət
- Etibarlı tərəfdaş
- Təhlükəsizlik və ətraf mühit
- Dayanıqlı inkişaf
- Şəffaflıq
- Ədalətlilik və peşəkarlıq



# Missiya

Azərbaycan üzərindən tranzit yükdaşımalarda və respublikamızın strateji neft-qaz layihələrində ölkənin gəmiçilik xidmətlərinə olan tələbatını təmin etmək, dövlətin bu sahələrdə siyasətinə və Azərbaycanın regional nəqliyyat-logistika qovşağına çevrilməsinə töhfə vermək




# Gələcəyə baxış

Səmərəli fəaliyyət göstərən, dayanıqlı inkişafını və əməliyyatların təhlükəsizliyini təmin edən müasir gəmiçilik şirkətinin qurulması, Xəzərdə dövlət siyasətinin dəstəklənməsi ilə bərabər Xəzərdən kənarda beynəlxalq gəmiçilik fəaliyyətinin genişləndirilməsi

# Strateji hədəflər




- **Hədəf 1:** Nəqliyyat-ticarət donanmasının yenilənməsi, Azərbaycanın tranzit strategiyasına töhfə verilməsi
- **Hədəf 2:** İxtisaslaşmış ofşor donanmanın yenilənməsi və Xəzər dənizinin Azərbaycan sektorunda lider mövqenin qorunması
- **Hədəf 3:** Xəzərdən kənar hövzələrdə fəaliyyətin genişləndirilməsi
- **Hədəf 4:** Ekoloji və sosial idarəetmə (ESG) sahəsində qabaqcıl təşəbbüslərin tətbiq edilməsi
- **Hədəf 5:** Rəqəmsal transformasiya və optimal təşkilati struktur
- **Hədəf 6:** Maliyyə stabilliyi və Səhmdara dəyərin yaradılması





# ASCO-NUN Fəaliyyəti

# Əsas faaliyyət sahələri



Yükdaşımalar



Neft və qaz sənayesinə ixtisaslaşmış ofşor xidmətləri



Gəmi təmiri və tikintisi



Gəmiçilik sahəsində təhsil və təlim

# Yükdaşımalar




**20**

Tanker gəmisi

Xam neft və neft məhsullarının daşınması

**14**

Universal quru yük gəmiləri

Taxıl, buğda, arpa, qarğıdalı, kəpək, ağac və taxta məmulatları, metal məmulatları, gübrə, tikinti materialları, konteynerlər və digər müxtəlif növ quru yüklərin daşınması

**17**

Bərələr, Ro-Ro və Ro-Pax tipli gəmilər

Dəmir yolu vaqonlarının, konteynerlərin, yük maşınlarının (TİR), digər avtotexnikanın, eləcə də sərnişinlərin daşınması

Hazırda ASCO Xəzərdən kənar hövzələrdə - əsasən Qara və Aralıq dənizlərində 2 ədəd tanker və 4 ədəd quru yük gəmisi istismar edir.

**3**

Aframax tipli tankerlər







SA Maritime AFEZCO birgə müəssisəsinin sahibliyi altında ASCO Shipmanagement AFEZCO şirkəti tərəfindən idarəetməsi həyata keçirilən və Gəmiçiliyin tarixində yeni səhifəni təcəssüm etdirən bu nəhəng gəmilər Xəzərdən kənar hövzələrdə Azərbaycan bayrağı altında qürurla fəaliyyət göstərir.

# Əməliyyat marşrutları

## Quru yük daşımaları marşrutu

Türkiyə / İtaliya / Yunanıstan / Rumınıya
Gürcüstan / Azərbaycan / Qazaxıstan
Türkmənistan / İsrail



## **Bərə və Ro-Ro** *daşımaları marşrutu*

Azərbaycan / Qazaxıstan
Türkmənistan







## **Maye yük** *daşımaları marşrutu*

Azərbaycan / Qazaxıstan
Türkmənistan / Rumıniya
Bolqarıstan / Gürcüstan
Türkiyə / Yunanıstan

# Neft və qaz sənayesinə ixtisaslaşmış ofşor xidmətləri

ASCO neft və qaz hasilatının bütün proseslərində, o cümlədən dəniz özülləri və estakadalarının tikilməsi, coğrafi-geoloji tədqiqatların həyata keçirilməsi, sualtı neft-qaz boru kəmərlərinin çəkilməsi və istismar zamanı onların təmiri, dənizdəki neft obyektlərinin yanğından mühafizəsi, neftçilərin iş yerlərinə çatdırılması, həmçinin müxtəlif növ yüklərin (yanacaq-sürtkü materialları, içməli su, metanol, mal-material, avadanlıq, metal konstruksiyalar və s.) daşınması kimi kompleks xidmətlər təqdim edir.




21
Kran gəmiləri


24
Təchizat-yedək gəmiləri


3
Yedək gəmiləri


8
Liman-yedək gəmiləri


23
Sərnişin gəmiləri


5
Yanğınsöndürən gəmilər


5
Mühəndis-geoloji gəmilər


2
Sualtı borudüzən gəmilər


10
Dalğıc gəmiləri


4
Bunkerləmə gəmiləri


12
Maye, fekal və neftlə çirklənmiş sular daşıyan gəmilər


5
Dibdərinləşdirmə gəmiləri


5
Barjlar


57
Kiçik su tutumlu katerlər


8
Yaxtalar


3
Üzən emalatxanalar

3
Digər



Ötən beş il ASCO üçün əhəmiyyətli nailiyyətlər və çətinliklərlə yadda qalıb. COVID-19 pandemiyası, Ukraynadakı müharibə və Yaxın Şərqdəki münaqişələr kimi mürəkkəb geosiyasi vəziyyətlərə baxmayaraq, bu dalğalı sularda ASCO sükanı uğurla saxlaya bilib. Rusiya Federasiyası və Ukraynada, həmçinin Qara və Xəzər dənizlərində ənənəvi bazarlardakı pozulmalar ASCO-nun əməliyyatlarını tez və effektiv şəkildə yenidən qurmasını tələb edib. Bu dövr şirkətimiz üçün uyğunlaşma, çeviklik və vaxtında hərəkət etmənin əhəmiyyətini bir daha vurğulayıb.

Bu çağırışları və imkanları nəzərə alaraq, ASCO-nun Müşahidə Şurası Xəzər dənizindən kənarda daha da genişlənməyə, yeni seqmentlərə daxil olmağa və davamlı inkişafın təmin edilməsinə yönəlmiş strategiyanı təsdiqləyib. Son illərdə daha böyük gəmilər, o cümlədən Aframax tanker və Handysize bulkerlər ilə iki yeni bazar seqmentinə daxil olduq. Bu yeni təşəbbüslər bizə qarşılıqlı fayda və hörmət üzərində qurulmuş yeni tərəfdaşlarla dəyərli əlaqələr qurmağa imkan verib.

Səyahətimiz hələ yeni başlayır. ASCO daha da böyümək barədə optimistdir və donanmamıza yeni gəmilər əlavə etməyi planlaşdırır. Yeni gəmilər əldə etməklə bu yeni seqmentlərdə mövqelərimizi gücləndirməyə yönəlmişik. Gəmiləri seçərkən ASCO yüksək spesifikasiyalara, keyfiyyətə və ətraf mühitə uyğunluğa üstünlük verir. Məqsədimiz müştərilərimizə ən müasir gəmilərlə xidmət göstərmək, eləcə də minimum tullantı və emissiyalar vasitəsilə ətraf mühitin qorunmasına töhfə verməkdir. İnanırıq ki, bu dəyərlər müştərilərimiz tərəfindən yüksək qiymətləndiriləcək və davamlı inkişafa hamımız birlikdə töhfə verəcəyik.

Son əldə etdiyimiz və əldə etməyi artıq planlaşdırdığımız gəmilər ümumi donanmamızın dedveytini demək olar ki, ikiqat artırıb. İkinci əl gəmilər ilə yanaşı, ASCO yeni tikinti layihələrinə də sərmayə qoyub. Son beş il ərzində iki RO-PAX və dörd tanker olmaqla ümumilikdə altı yeni tikili gəmi istismara qəbul etmişik. 2022-2024-cü illərdə bir RO-PAX, üç 8,000-dedveyt kimyəvi tanker, üç sürətli sərnişin gəmisi, dörd dalğıc gəmisi və iki 9,800-dedveyt quru yük gəmisi daxil olmaqla 13 yeni tikili üçün sifariş vermişik. Bütün bu layihələr enerji səmərəliliyi və ətraf mühitə minimal təsir nəzərə alınaraq dizayn edilmiş və 2-3 il ərzində təhvil verilməsi gözlənilir.

Donanmanın inkişafı və ekoloji məsələlərlə yanaşı, işçilərimizin rifahı bizim üçün əsas prioritetlər sırasındadır. Biz səkkiz min əməkdaşımızı, o cümlədən dörd mindən çox dənizçimizi ASCO ailəsinin dəyərli üzvləri hesab edirik. Biz hamı üçün ədalətli rəftarın və layiqli iş şəraitinin təmin edilməsinə sadiqik. İstənilən ayrı-seçkilik, təqib və ya bərabərsizliyə qarşı sıfır dözümlülüklə biz ailəmizin hər bir üzvünün yanındayıq, ehtiyacı olanlara xüsusi qayğı göstərərək, inklüziv və dəstəkləyici iş mühitini daim gücləndiririk.

Biz həmçinin davamlılığı, şəffaflığı və bərabərliyi təmin edən məsuliyyətli biznes təcrübələrinə sadiqik. Biz G20/OECD Korporativ İdarəetmə Prinsipləri, Birləşmiş Millətlər Təşkilatının Minilliyin İnkişaf Məqsədləri (MİM) və ISO 37001:2016 Antikorrupsiya idarəetmə sistemləri daxil olmaqla, beynəlxalq və milli standartlara uyğun bir neçə siyasət qəbul etmişik. Ətraf mühitin mühafizəsi bizim üçün əsas prioritetdir və yaşıl enerji standartlarına uyğunluq əməliyyatlarımızın ayrılmaz hissəsidir. Biz istixana qazlarının emissiyalarının əhəmiyyətli dərəcədə azaldılmasına yönəlmiş bir sıra layihələr həyata keçiririk.

Bütün cari və planlaşdırılmış fəaliyyətlər gələcək nəsillərə fayda verəcəkdir. Əminik ki, növbəti illik hesabatda keçən beş ili əhatə edən bir dövrdə biz bütün tərəfdaşlarımızın dəstəyi ilə, gəlirlərini əhəmiyyətli dərəcədə artırmış, təşkilati strukturunu daha da təkmilləşdirmiş, yenilənmiş donanması, daha yaxşı bazar seqmentasiyası, digər bazar seqmentlərində daha güclü mövcudluğu, əhəmiyyətli dərəcədə azaldılmış emissiya və tullantıları olan, eləcə də şirkətimizi müvəffəqiyyətlə idarə edən məmnun işçilərə malik transformasiya olunmuş bir ASCO ilə qarşınıza çıxacağıq!

## Zaur Nağıyev

ASCO-nun İdarə Heyəti Sədrinin müavini

# Donanmaların yenilənməsi



## Bakı Gəmiqayırma Zavodunda tikilmiş "Laçın" tankeri

Britaniya Kral Dəniz Mühəndisləri Cəmiyyətinin (Royal Institution of Naval Architects, RINA) siyahısına görə, 2019-cu ildə inşa edilən dünyanın ən yaxşı 50 mülki gəmisindən biri



## "Suqovuşan" təchizat gəmisinin alışı




## *Bakı Gəmiqayırma Zavodunda tikilmiş Ro-Pax tipli "Azərbaycan" gəmi-bərəsi*

"Baird Maritime"-ın təşkil etdiyi 2021-ci ilin ən yaxşı gəmiləri siyahısında "ən yaxşı bərə gəmisi"

Britaniya Kral Dəniz Mühəndisləri Cəmiyyətinin (RINA) "Significant Ships 2021" reytinqinə əsasən dünyanın ən yaxşı 50 gəmisindən biri




*Bakı Gəmiqayırma Zavodunda tikilmiş "Kəlbəcər" tankeri*



Bakı Gəmiqayırma Zavodunda tikilmiş Ro-Pax tipli "Zərifə Əliyeva" gəmi-bərəsi



Bakı Gəmiqayırma Zavodunda tikilmiş "Akademik Xoşbəxt Yusifzadə" tankeri





Zığ Gəmi Təmiri və Tikintisi Zavodunda tikilmiş kiçik su tutumlu katerlər – "ASCO-I" və "Tərtərçay"

ASCO-nun əsas strateji partnyoru olan Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə birgə paritet əsaslarla təsis edilmiş SA Maritime AFEZCO şirkəti tərəfindən 2023-cü ildə alınmış və payları 100% ASCO-ya məxsus olan ASCO Shipmanagement AFEZCO şirkəti tərəfindən idarə edilən və hər birinin yükgötürmə qabiliyyəti təxminən 115,000 ton olan “Aframax” tipli tankerlər Azərbaycan Respublikası Prezidentinin birbaşa dəstəyi ilə Vətən müharibəsində qələbənin şərəfinə Azərbaycanın tarixi torpaqlarının adlarını daşıyır.





“Aframax” tipli
“Şuşa” tankeri




“Aframax” tipli
“Qarabağ” tankeri

“Aframax” tipli
“Zəngəzur” tankeri



# Gəmi təmiri və tikintisi

ASCO-nun strukturuna daxil olan “Bibiheybət Gəmi Təmiri Zavodu” (BGTZ) və “Zığ Gəmi Təmiri və Tikintisi Zavodu” (ZGTTZ) bütün növ gəmilərin yüksək keyfiyyətlə təmirini həyata keçirir. Qeyd olunan zavodlarda aşağıdakı xidmətlər təqdim olunur:



- Əsaslı, tərsanə, cari və səfərlərarası naviqasiya təmir işlərinin həyata keçirilməsi;
- Kiçik su tutumlu xidmət katerlərinin tikintisi (ZGTTZ);
- Gəmi sistem və qurğularının, elektrik və radionaviqasiya avadanlıqlarının, mühərriklərin, cihazların quraşdırılması və sazlanması;
- Dalğıc işləri çərçivəsində su altında mühəndislik və hidro-texniki işlərin aparılması;
- Gəmilərin doka qaldırılaraq sualtı gövdə, sükan və vintlərinin yoxlanılması, onların təmizlənməsi və rənglənməsi;
- Hava ilə doldurulan xilasetmə sallarının, hidrostatik ayırıcı qurğuların, fərdi xilasetmə vasitələrinin yoxlanılması və təmiri;
- ASV tipli izolyasiya edən nəfəs aparatlarına texniki xidmət göstərilməsi və həmin aparatların təmiri;
- Müxtəlif növ ehtiyat hissələri, xüsusi boyalar və texniki vasitələrin hazırlanması.





# Gəmiçilik sahəsində təhsil və təlim

**ASCO-nun tabeliyində dənizçi kadrların hazırlanmasını təmin edən müəssisələr:**

## Azərbaycan Dövlət Dəniz Akademiyası (ADDA)

- Dənizçilik təhsili üzrə ***130*** ildən çox təcrübə
- Diplomu dünyanın ***170***-dən çox ölkəsi tərəfindən tanınır
- Dünyanın ***11*** ölkəsinin ***18*** universiteti ilə ikitərəfli əməkdaşlıq
- Beynəlxalq Dənizçilik Ali Məktəbləri Assosiasiyasının üzvü
- MDB ölkələrinin dənizçilik ali məktəblərinin Tədris-Metodiki Şurasının üzvü
- Xəzəryanı dövlətlərin Ali Məktəbləri Assosiasiyasının fəal iştirakçısı
- Bakalavr, magistratura və doktorantura pillələrində müasir standartlara cavab verən tədris
- Azərbaycan, rus və ingilis dillərində tədris
- **İxtisaslar:**

**Dəniz naviqasiyası mühəndisliyi**

**Gəmiqayırma və gəmi təmiri mühəndisliyi**

**Gəmi energetik qurğularının istismarı mühəndisliyi**

**Elektrik və elektronika mühəndisliyi**



## Təlim Tədris Mərkəzi (TTM)

- Dövlət Dəniz və Liman Agentliyi tərəfindən akkreditasiya
- Dənizçilərin peşəkarlıq səviyyəsinin artırılması
- Dənizçilərin beynəlxalq konvensiya və standartlara uyğun sertifikatlaşdırılması
- Azərbaycan, rus və ingilis dillərində təlimlər
- **Aşağıdakı təşkilatlar tərəfindən sertifikatlaşma:**

**Amerika Gəmiçilik Bürosu (American Bureau of Shipping - ABS)**

**The Nautical İnstitute**

**Bureau Veritas**





**Dünyada müasir dinamik mövqe saxlama (DP2) simulyatoru üzrə "DP Induction" və "DP Simulator" təlimlərinin keçirilməsinə səlahiyyəti olan 95 mərkəzdən biri olan TTM Xəzər regionunda bu sahədə fəaliyyət göstərən yeganə təşkilatdır.**

## Azərbaycan Dənizçilik Kolleci (ADK)

- **Aşağıdakı sahələr üzrə orta ixtisas təhsili:**

**Gəmi sürücülüyü**

**Gəmi energetik qurğularının istismarı**

**Elektrik təchizatı**



# Mühüm işlər və layihələr



"Abşeron" qaz-kondensat yatağında borudüzmə işləri – "Süleyman Vəzirov" borudüzən və "Aura" yedək-təchizat gəmiləri



"Pirşağı Tullantı Sutəmizləyici Qurğusu"nun tikintisi üzrə işlər – "Mühəndis Balarza Məmmədov" torpaqqazan, "Zülfü Hacıyev" kran, "Nefteqaz-64" təchizat gəmisi və digər gəmilər



"Abşeron Erkən Hasilat Platforma Kompleksi"nin üst tikililərinin "Abşeron" yatağına nəqli və dayaq blokunun üzərində quraşdırılması əməliyyatları – "Azərbaycan" kran gəmisi



"Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması – Xəzər dənizinin ən böyük barjı sayılan "STB-1" barjı



"Azəri-Mərkəzi-Şərqi" platformasının üst modulunun dənizə yola salınması – "STB-1" barjı



Xəzər Dənizinin Türkmənistan sektorunda "LAM and ZHDANOV" neft yatağındakı borudüzmə işləri – "Süleyman Vəzirov" borudüzən gəmisi

## ASCO istiqrazlarının tədavülə buraxılması




- Nominal dəyəri 1000 ABŞ dolları
- İllik faiz dərəcəsi isə 6%
- 5 illik
- 100 milyon və 50 milyon olmaq şərtilə iki hissəli şəkildə




## ASCO-nun əməkdaşları üçün elektron kabinet – “My ASCO” mobil tətbiqinin istifadəyə verilməsi

## Hesabat dövrü ərzində ASCO-nun iştirak etdiyi mühüm sərgilər

- “Trans-Russia 2019” sərgisi
- 26-cı Beynəlxalq Xəzər Neft və Qaz sərgisi
- Almaniyanın Münhen şəhərində keçirilən Avropanın ən iri nəqliyyat sərgisi
- “Trans-Caspian 2019” sərgisi
- “Caspian Ecology 2019” sərgisi
- “Trans-Russia 2021” sərgisi
- 27-ci Beynəlxalq Xəzər Neft və Qaz sərgisi
- 28-ci Beynəlxalq Xəzər Neft və Qaz sərgisi







# ASCO RƏQƏMLƏRLƏ

# Maliyyə göstəriciləri

**MHBS əsasında hazırlanmış maliyyə hesabatlarından xülasə**

| *min AZN* | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| Gəlirlər | 524,195 | 570,071 | 459,133 | 421,049 | 479,192 |
| Satışların maya dəyəri | (375,113) | (369,444) | (306,069) | (259,559) | (300,065) |
| **Ümumi mənfəət** | **149,082** | **200,627** | **153,064** | **161,490** | **179,127** |
| Ümumi və inzibati xərclər | (60,921) | (52,159) | (39,962) | (40,860) | (51,485) |
| Sosial xərclər | (9,506) | (8,575) | (7,124) | (12,542) | (12,354) |
| Digər əməliyyat gəliri | 50,490 | 32,827 | 21,757 | 19,602 | 32,118 |
| Digər əməliyyat xərcləri | (69,923) | (79,425) | (59,445) | (63,808) | (56,585) |
| **Əməliyyat mənfəəti** | **59,222** | **93,295** | **68,290** | **63,882** | **90,821** |
| Maliyyə xərcləri | (9,621) | (1,222) | (1,735) | (2,680) | (1,288) |
| Birgə müəssisənin fəaliyyətindən pay | 6,761 | 0 | 0 | 0 | 0 |
| Mənfəət vergisi xərci | (12,677) | (26,632) | (14,763) | (16,159) | (25,660) |
| **Xalis mənfəət** | **43,685** | **65,441** | **51,792** | **45,043** | **63,873** |

| | 31 dekabr | | | | |
|---|---|---|---|---|---|
| *min AZN* | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
| Cari aktivlər | 438,691 | 320,514 | 319,765 | 314,001 | 316,649 |
| Uzunmüddətli aktivlər | 1,304,848 | 1,014,902 | 971,443 | 949,329 | 895,617 |
| **Cəmi aktivlər** | **1,743,539** | **1,335,416** | **1,291,208** | **1,263,330** | **1,212,266** |
| Cari öhdəliklər | 99,305 | 110,765 | 152,866 | 186,280 | 190,702 |
| Uzunmüddətli öhdəliklər | 207,802 | 50,961 | 50,093 | 44,693 | 44,250 |
| **Cəmi öhdəliklər** | **307,107** | **161,726** | **202,959** | **230,973** | **234,952** |
| **Cəmi kapital** | **1,436,432** | **1,173,690** | **1,088,249** | **1,032,357** | **977,314** |

## İnvestisiya qoyuluşu (milyon AZN)




## EBITDA (milyon AZN)




| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| EBITDA marjası | 30% | 33% | 31% | 32% | 33% |
| Kapitalın rentabelliyi | 3% | 6% | 5% | 4% | 6% |
| Aktivlərin rentabelliyi | 3% | 5% | 4% | 4% | 5% |
| Borcun EBITDA-ya nisbəti | 1.16 | 0.05 | 0.09 | 0.23 | 0.46 |
| Borcun kapitala nisbəti | 0.12 | 0.01 | 0.01 | 0.03 | 0.08 |
| Cari likvidlik əmsalı | 4.42 | 2.89 | 2.09 | 1.69 | 1.66 |

# Əməliyyat göstəriciləri

## Tanker daşımaları, ton




## Quru yük daşımaları, ton




## Bərə/Ro-Ro daşımaları, ton



| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| Daşınmış vaqonların sayı, ədəd | 37,642 | 38,635 | 30,466 | 37,424 | 44,159 |
| Daşınmış avtotexnikanın sayı (TİR), ədəd | 35,207 | 35,290 | 30,893 | 31,872 | 22,049 |

## İxtisaslaşmış ofşor donanması tərəfindən işlənmiş günlər (gəmi-gün)




| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| Zavodlar tərəfindən həyata keçirilmiş təmir işlərinin sayı | 1,146 | 901 | 763 | 809 | 932 |



# DAYANIQLI İNKİŞAF



Şirkətin strateji idarəetməsi onun uzunmüddətli məqsədlərinə çatmasında və bazarda uğur qazanmasında mühüm rol oynayır. Ancaq bir çox təşkilatların gözdən qaçırdığı şey strategiyanın uğurlu icrası üçün vacib olan amil – İnsan resurslarının idarəedilməsi departamentinin ("İRİD") roludur.



ASCO, Gəmiçilik sektorunda beynəlxalq tələblərə uyğun olaraq insan resurslarının idarəedilməsi Qaydaları və Siyasətini tətbiq edir. Bu siyasət, insan kapitalının effektiv idarə olunması, şəffaflığın təmin edilməsi, bütün əməkdaşlar üçün bərabər imkanların yaradılması ilə birlikdə sağlam iş mühiti və şəraiti təmin edərək Gəmiçiliyin strateji hədəflərinə nail olmağa kömək edir.

İnsan resurslarının idarəedilməsi Siyasətinin əsas prinsipləri aşağıdakıları əhatə edir:

- Mövcud kadrların Gəmiçiliyə bağlılığının artırılması;
- İxtisaslı dənizçilərin beynəlxalq əmək haqqı standartlarına uyğun maaşla təminatı;
- İnsan resursları imkanlarından daha səmərəli istifadə edilməsi;
- İnsan resurslarının idarəedilməsi prosesində şəffaflığın təmin edilməsi;
- Aparıcı gənc əməkdaşların karyera inkişafının nəzarətdə saxlanılması;
- Xidməti fəaliyyətin obyektiv qiymətləndirilməsi;
- Bütün əməkdaşlar üçün bərabər imkanlar və sağlam iş mühitinin təmin edilməsi;
- Şirkət daxili işçilərin sosial rifahının yüksəldilməsi və həssas qrupa daxil olan işçilərlə işin təşkili.

ASCO daxilində də İnsan resurslarının idarəedilməsi departamenti əsas bünövrə təşkil etdiyindən, onun ilkin və sonrakı mərhələlərdə inkişafında həm departament işçilərinin müstəsna rolunu qeyd etməli, həm də innovativ yeniliklərin İnsan resurslarının idarəedilməsi departamentinin işinin təşkilində birbaşa əhəmiyyətini xüsusi vurğulamalıyıq.

Məhsuldar, pozitiv, inkluziv iş mühitinin formalaşmasına yönəlmiş addımlar ASCO İnsan resurslarının idarəedilməsi departamentinin rəhbərinin üzərinə düşən geniş məsuliyyətlərdən biridir.

Işçilərin işə marağını artırmaq, insan kapitalının idarə olunması proseslərini avtomatlaşdıraraq sadələşdirmək və iş yerində effektivliyin artırılması məqsədi daşıyan bir sıra əsas layihələr həyata keçirilmişdir.

Qeyd etməliyik ki, onlayn işə qəbul prosesinə keçidin tam yekunlaşması və bununla da, ixtisaslı namizədlərin asco.az web saytı üzərindən müraciəti, tam testləşdirilmiş yoxlaması və müvafiq sahə üzrə təcrübəli mütəxəssislərlə müsahibənin təşkil olunması işçilərin işə qəbul prosesində şəffaflığın artırılması və kənar təsirlərin minimuma endirilməsi məqsədi ilə atılan addımlardan ən önəmliləri hesab oluna bilər.

İşçilərin bilik və bacarıqlarının artırılması daima rəhbərliyin gündəmindədir. Bununla əlaqədar "E-təlim" platforması istifadəyə verilib. Platformanın tətbiq edilməsi işçilərin öyrənməsinə, əmək funksionallığına və karyera inkişafına müsbət təsir göstərir.

Həmçinin, kağız daşıyıcılardan qurtulmaq və kağız emalının azaldılması üçün "E-arxiv" layihəsi də diqqət mərkəzindədir. Bu layihə ASCO-da işçilərin bütün şəxsi məlumatlarının onlayn platformada əlçatan olmasına imkan verir.

İşçilərimizin bacarıqlarını obyektiv və ədalətli şəkildə qiymətləndirmək üçün Xidməti Fəaliyyətin Qiymətləndirilməsi (XFQ) prosesi həyata keçirilir və Əsas Səmərəlilik Göstəriciləri (ƏSG) təyin edilir. Qeyd olunan proses performansın qiymətləndirilməsi ilə birlikdə işçilərin motivasiyasını dəstəkləyir.

İRİD-in təşəbbüsü ilə yaradılan "My ASCO" mobil tətbiqi, ASCO-nun daxili resursları hesabına İnformasiya Texnologiyaları Departamentinin əməkdaşları tərəfindən hazırlanmışdır. Bu tətbiq işçilərin şirkət daxili yeniliklərdən tez xəbərdar olmalarına yardım edir, həmçinin onlara işəgötürən ilə daha yaxın münasibət qurmağa imkan verir.

İRİD olaraq, daima dünyaca məşhur proqramların, yeniliklərin ASCO daxilində tətbiqi üçün çalışır və bunun işəgötürən və işçilər üçün verə biləcəyi töhfələri nəzərə alaraq, onların üstünlüyündən yararlanmağa çalışırıq.

ASCO-da peşəkar yerli dənizçi kadrların yetişdirilməsi, personalın fərdi və peşəkar inkişafının təmin edilməsi, həmçinin korporativ iş mühitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam edir. Şirkətin dünya sularına çıxışı ilə bağlı yeni Handysize və Aframax tipli gəmilərin yerli heyətlə təmin olunması prioritet məsələlərdən biridir. İRİD olaraq, yerli kadrların bilik və bacarıqlarının yüksək ixtisaslı dənizçilər səviyyəsinə qaldırılması üçün beynəlxalq iş axtarma saytlarından istifadə edirik, həm də ASCO-nun Gəmiçilik sektorundakı nüfuzunu dənizçilər arasında artırmaq üçün çalışırıq.

İxtisaslı kadrların yetişdirilməsi prosesinin təkmilləşdirilməsi daima diqqətimizdədir. Dənizçilərin iş yerini tərk etmədən, işin gedişatını ləngitmədən onlayn bilik yoxlanışı imtahanları təşkil etmək üçün onlayn bilik yoxlanışı platformasını işə salmağı planlaşdırırıq.

Həmçinin, ASCO-nun təkmilləşmə və strateji inkişafı istiqamətində təklif olunan işlərin həyata keçirilməsi fonunda funksionallığın artırılması, beynəlxalq iş mühitinin ASCO-da tətbiq olunması məqsədi ilə, personalın "Hibrid iş rejimi"nə keçirilməsi də nəzərdə tutduğumuz tədbirlərdəndir.

## Sevda Məmmədova

ASCO-nun İnsan resurslarının idarəedilməsi departamentinin rəisi

# İnsan resurslarının idarəedilməsi

ASCO-da işçilərin peşəkar inkişafına ciddi önəm verilir. Güclü azərbaycanlı dənizçi kadr potensialının hazırlanması və ölkədə dənizçi peşəsinin təbliği, akademiyamızda təhsilin keyfiyyətinin yüksəlməsi, personalın peşəkarlığının davamlı artırılması, potensiallı gənclərin üzə çıxarılaraq aparıcı vəzifələrə təyin olunması kimi məsələlər əsas prioritetlərdəndir.

ASCO-da işçilər müştəri ehtiyaclarını qarşılayaraq onlara dəyər gətirən başlıca qüvvədir. Beynəlxalq gəmiçilik şirkəti olaraq rəqabətli mühitdə fəaliyyət göstərməyimiz işçilərimizin də rəqabətə davamlı olmalarını tələb edir. Rəhbərliyin öhdəsinə düşən isə işçilərə ədalətli iş mühitinin yaradılmasıdır. Bu yöndə şirkətin ən başlıca öncəliyi isə quruda və ya dənizdə işçilərin təhlükəsizliyidir.

### *ASCO-da ümumi işçi sayı*

| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| İşçi sayı | 7,798 | 7,923 | 8,042 | 8,016 | 8,443 |

ASCO-da əməkdaşların karyera inkişafı, onların peşəkarlıq və fərdi keyfiyyətlərinin davamlı təkmilləşdirilməsi istiqamətində bütün təlim ehtiyacları analiz edilir və tələbata uyğun təlimlər təşkil edilir. Əlavə olaraq, rəhbər işçilər mütəmadi şəkildə mütəxəssislərlə görüşlər keçirirərək istehsalat təcrübələrini bölüşürlər.

### *ASCO-da cəmi təlim müddəti (gün)*

| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| Sahil heyəti | 2,104 | 617 | 1,088 | 312 | 6,682 |
| Üzən heyət | 23,844 | 42,730 | 25,184 | 14,758 | 22,830 |

Müasir trenajor və simulyatorlarla təchiz edilmiş Təlim Tədris Mərkəzimizdə (TTM) azərbaycan, ingilis və rus dillərində təşkil edilən peşəkar təlimlərə digər şirkətlərin nümayəndələri və xarici vətəndaşlar da qatılır.

### *TTM-də təlimlərin və dinləyicilərin sayı*

| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| Təlimlərin sayı | 890 | 971 | 784 | 634 | 786 |
| Təlimlərdə dinləyici sayı | 10,470 | 13,659 | 9,861 | 6,458 | 10,499 |

ASCO Azərbaycan Dövlət Dəniz Akademiyasının (ADDA) tələbələrinin nəzəri bilik almalarına maddi və metodiki cəhətdən dəstək olur. ASCO tərəfindən tələbələrin təhsil aldığı müddətdə ixtisaslarına uyğun olaraq praktiki bilik və bacarıqlara yiyələnmələri üçün şərait yaradılır. Belə ki, tələbələrin ASCO-nun struktur idarələrində, gəmilərində və gəmi təmiri və tikintisi zavodlarının müxtəlif bölmə və sexlərində istehsalat təcrübəsi keçməkləri üçün şərait yaradılır. Bundan əlavə, yeni dərsliklərin hazırlanmasına və dərs vəsaitlərinin yenilənməsinə xüsusi önəm verilir.

ASCO-da işçilərin həm fərdi keyfiyyətlərinin, həm də peşəkarlıq bacarıqlarının şəffaf şəkildə qiymətləndirildiyi illik xidməti fəaliyyətin qiymətləndirilməsi (XFQ) prosesi mövcuddur. Personalın həvəsləndirilməsi və motivasiyasının artırılması məqsədi ilə, ASCO-da aşağıdakılar tətbiq olunur:

o Mükafatlandırma sistemi;

o İşçilərə orden, medal, fəxri ad və döş nişanlarının verilməsi;

o İşçilərə əməkdə fərqlənməyə görə əlavə ödənişlər;

o Üzən heyət arasında "ilin ən yaxşıları" müsabiqəsində qaliblərin təyin edilməsi və s.

ASCO-da gender bərabərliyinin təmin edilməsi prioritet məsələlərdəndir. Bütün vəzifələrdə həm kişi, həm də qadın personalın təmsil olunması ASCO-nun qarşısında duran ən böyük məqsədlərindəndir. Gəmiçilik gender bərabərliyinin təmin olunması, eləcə də rəhbər kateqoriyalı işçilər arasında qadın nümayəndələrin sayının artırılması üçün əlindən gələni edir.

### *İşçilərin kateqoriyalar və cinslər üzrə sayı*

| | 2023 | | 2022 | | 2021 | | 2020 | | 2019 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi |
| **Sahil heyəti** | **611** | **2,921** | **648** | **2,952** | **660** | **3,026** | **646** | **3,090** | **729** | **3,437** |
| Rəhbərlər | 62 | 364 | 69 | 367 | 68 | 363 | 48 | 323 | 43 | 353 |
| Mütəxəssislər və digərləri | 549 | 2,557 | 579 | 2,585 | 592 | 2,663 | 598 | 2,767 | 686 | 3,084 |
| **Üzən heyət** | **33** | **4,233** | **18** | **4,305** | **22** | **4,334** | **21** | **4,259** | **23** | **4,254** |
| Komandir heyəti | 1 | 2,408 | 1 | 2,407 | 1 | 2,416 | 1 | 2,424 | 1 | 2,390 |
| Sıravi heyət | 32 | 1,825 | 17 | 1,898 | 21 | 1,918 | 20 | 1,835 | 22 | 1,864 |
| **Cəmi** | **644** | **7,154** | **666** | **7,257** | **682** | **7,360** | **667** | **7,349** | **752** | **7,691** |



Müasir dövrdə şirkətlərin fəaliyyəti qiymətləndirilərkən ətraf mühit və sosial sahədə faktiki tədbirlərin göstəricisi olan yeni əhəmiyyətli anlayış - Ekoloji Sosial İdarəetmə (ESG) faktoru prioritet olaraq nəzərə alınır. Bununla əlaqədar ASCO tərəfindən də sosial, sağlamlıq, əməyin mühafizəsi, sanitariya, ekologiya, o cümlədən emissiyaların idarə olunması, təmiz enerji, innovasiya, təhsil, bərabərlik və digər aspektləri əhatə edən dayanıqlı inkişaf siyasətinin müəyyən edilməsinə, siyasətə uyğun icra planlarının hazırlanmasına, monitorinqin aparılması üzrə kompleks proqramların hazırlanmasına və icrasına diqqət daha da artmaqdadır.

Bu gün dünyanı narahat edən qlobal ekoloji problemlərdən biri iqlim dəyişmələridir və bununla əlaqədar ASCO öz biznes əməliyyatlarını aşağı karbonlu yollarla (“LCP”) və iqlimə davamlı yollarla (“CRP”) həyata keçirməyə dair müvafiq təlimatlara uyğun olaraq həyata keçirməkdədir.

Qeyd etmək lazımdır ki, ASCO Beynəlxalq Dəniz Təşkilatının (BDT) “Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında” Konvensiyasına (MARPOL) və bu Konvensiyanın “Havanın gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında” VI Əlavəsinə qoşulub və müvafiq olaraq hələ 2012-ci ildən etibarən gəmilərin enerji səmərəliliyinin idarə olunması sahəsində davamlı tədbirlər həyata keçirir. 2023-cü ildən başlayaraq qüvvəyə minmiş ən son tələblərə əsasən, ASCO-nun gəmiləri müvafiq formada tərtib olunmuş “Gəminin enerji səmərəliliyinin idarə olunması planı” ilə təchiz edilmiş, ümumi tutumu 5000 ton və daha yuxarı olan gəmilərin 2023-cü il ərzində yanacaq sərfiyyatına dair məlumatlar, habelə müvafiq gəmilərin “Mövcud Gəmilərin Enerji Effektivliyi Əmsalı” (EEXI) və “Enerji Effektivliyinin Dizayn Əmsalı”na dair (EEDI) məlumatlar, həmçinin “Karbon İntensivliyinin İstismar Əmsalı”na (CII) dair məlumatlar Dövlət Dəniz və Liman Agentliyinə və BDT-na təqdim edilmişdir. BDT-nın yuxarıda qeyd edilən istixana qazlarının emissiyalarını azaltmaq istiqamətində qəbul edilmiş tələblərini davamlı olaraq icra edən ASCO iqlim dəyişmələri ilə mübarizə sahəsində öz töhfəsini verməkdədir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş Milli Prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir və ASCO da öz fəaliyyətini həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində həyata keçirmək məqsədilə tədbirlər görməkdədir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 dekabr 2023-cü il tarixində 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamı imzalaması ASCO-ya da bütün il ərzində bu sahədə fəaliyyətini daha da genişləndirməyə və ətraf mühitin qorunması istiqamətində görüləcək işlərini xeyli dərəcədə intensivləşdirməyə təkan verir.

ASCO tərəfindən emissiyaların azaldılması ilə bağlı gəmilərdə planlaşdırılan konstruktiv dəyişikliklərin və innovasiyaların tətbiqinin bir qisminə misal kimi aşağıdakıları göstərmək olar:

- ASCO-nun yeni tikiləcək dalğıc gəmisində hibrid tipli yanacaq sisteminin quraşdırılması,

- gəmilərin korma hissəsində xüsusi istiqamətləndiricilərin quraşdırılması,

- gəmilərin sualtı hissəsində hava qabarcıqları (air bubble) sisteminin tətbiq olunması və xüsusi robot avadanlıqlarla təmizlənməsi,

- Ro-Pax tipli gəmilərdən birində Flettner rotorunun quraşdırılması,

- sahil enerji xətlərindən daha çox istifadə,

- gəmilərdə elektron müdaxilə sisteminin tətbiqi vasitəsilə səfərlərin optimallaşdırılması yolu ilə yanacaq sərfiyyatının azaldılması tədbirləri,

- investisiya strategiyasında nəzərdə tutulmuş yeni gəmilərin inşası, donanmada köhnə və yanacağı daha da çox istifadə edən gəmilərlə əvəz edilməsi karbon qazlarının aşağı səviyyəyə düşməsinə bir təkan olacaq.

Bu tədbirlər sırasında xüsusilə, ASCO tərəfindən icrasına başlanan elektron müdaxilə sistemi olan "Eko pilot" layihəsini qeyd etmək lazımdır ki, layihə nəticəsində dəniz axınlarına və hava şəraitinə uyğun olaraq gəminin sürətinin və marşrutunun avtomatik elektron sistem vasitəsilə idarə edilməsi nəticəsində yanacaq sərfiyyatının 6%-ə qədər azalması gözlənilir.

Eyni zamanda fəaliyyətinin bütün sahələrində ətraf mühitin mühafizəsi məqsədilə avtonəqliyyat vasitələrinin elektrik tipli növlərlə əvəz edilməsi, dizellə işləyən yükqaldırıcı nəqliyyatın elektrik mühərrikli nəqliyyat vasitələri ilə əvəz olunması, günəş panellərinin quraşdırılması, dəniz suyunun emalı və şirinləşdirilərək texniki su kimi istifadəsi üçün sahil obyektlərində su təmizləyici qurğuların və müvafiq su borularının quraşdırılması, sahil obyektlərində içməli su sərfiyyatının balanslaşdırılması və plastik tullantıların azaldılması kimi tədbirlər nəzərdə tutulub.

## Ələkbər Əzizli

ASCO-nun Dayanıqlılıq və emissiyaların idarəedilməsi üzrə direktoru

# Ətraf mühitin mühafizəsi

Ətraf mühitin qorunması ASCO üçün əsas davamlı inkişaf meyarlarından biridir. 165 ildən çox tarixə malik şirkət olaraq ASCO, Azərbaycanın təbiətinin gələcək nəsillər üçün qorunub saxlanılmasını vacib sayır və bu işdə səylərini əsirgəmir.

ASCO atmosferin çirklənməsinin qarşısının alınması istiqamətində qlobal təşəbbüslərə töhfə verir. Gəmilərdən atmosferə buraxılan zəhərli qazların qarşısının alınması ASCO-nun əsas hədəflərindəndir. Bu hədəfə nail olmaq üçün ASCO-da şirkətin Ekoloji Sosial İdarəetmə (ESG) sisteminə, eləcə də Beynəlxalq Dəniz Təşkilatının və bir sıra digər təsnifat cəmiyyətlərinin emissiyaların azaldılması ilə bağlı 1 yanvar 2023-cü ildən qüvvəyə minən tələblərinə uyğun olaraq mühüm tədbirlər həyata keçirilir.

Bu çərçivədə gəmilərə və onların mühərriklərinə, yağ və yanacaq separatorlarına gecikmələr olmadan texniki xidmətin göstərilməsi, ağır yanacaqdan istifadənin əhəmiyyətli dərəcədə azaldılması, istismar zamanı əlavə yanacaq sərfiyyatını azaltmaq üçün gəmilərin sürətinin optimallaşdırılması xüsusi əhəmiyyət kəsb edir.




Bundan başqa, tələblərə uyğun olaraq ASCO aşağıdakı planların tətbiqinə başlayıb:

· **Gəmi Enerji Effektivliyi Planı Hissə 3 (SEEMP III plan)**

*- Enerjinin səmərəliliyinin artırılması və nəzarətdə saxlanılması üçün MARPOL konvensiyasının VI əlavəsinin tələbinə uyğun olaraq gəmilərə 3 hissədən ibarət "Gəmi Enerji Effektivliyinin İdarəolunması Planı" verilib.*

*- 31 gəmiyə verilib.*

· **Karbon İntensivliyi Göstəricisi Planı (CII plan)**

*- Gəminin karbon emissiyası göstəricilərinin yaxşılaşdırılması üçün mütəmadi istismar tədbirlərinin görülməsi, göstəricilərin müvafiq şkala əsasında qiymətləndirilməsi və gəmiyə karbon intensivliyi reytinqi verilərək planın illik təsdiqlənməsi məqsədi daşıyır.*

*- 5000 tondan yuxarı və beynəlxalq sularda üzən gəmilərə şamil edilir.*

*- 5 gəmiyə verilib.*

· **Avropa Birliyinin Ölçmə, Hesabatlılıq və Verifikasiya Planı (EU MRV)**

*- Bu planın mahiyyəti isə gəmilərdə emissiyaların azaldılması istiqamətində mümkün tədbirlərin icrasının dəqiqliyi, karbon hesabatlarının müvafiq metodologiyalar əsasında aparılması, hesabatların aidiyyatı üzrə təqdim olunması proseslərində şəffaflığın təmin edilməsindən ibarətdir.*

*- Avropa limanlarına daxil olan gəmilərə şamil edilir.*

*- 5 gəmiyə verilib.*




Ötən dövrdə görülən işlər nəticəsində gəmilərdə istifadə edilən yanacağın tərkibindəki kükürdün payının ***6%*** azaldılmasına nail olunub. İxtisaslaşdırılmış Donanmaya aid gəmilərin alt hissələrini ildə iki dəfə təmizləməklə isə yanacağa ***1-2%*** qənaət edilib.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. ASCO əməliyyatların ətraf mühitə təsirinin minimuma endirilməsinə hər zaman yüksək önəm vermişdir və ekoloji idarəetmə sahəsində qabaqcıl təşəbbüslərin tətbiq edilməsi ASCO-nun strateji hədəflərindən biridir. Bu istiqamətdə, ASCO su, enerji və digər ətraf mühit aspektlərini əhatə edən resurslardan qənaətlə istfadə edilməsi üçün tədbirlər görür, o cümlədən gəmilərdə və sahil obyektlərində bu sahə üzrə müəyyən innovasiyaların tətbiqi istiqamətində davamlı işləyir.

ASCO-da gəmilərin və sahil qurğularının istismarı nəticəsində meydana gələn müxtəlif növ maye və bərk tullantıların, o cümlədən məişət və qida tullantıları, məişət çirkab suları, işlənmiş yağlar, neftli döşəməaltı sular, şlam tullantıları, elektron və digər çirkləndiricilərin idarə edilməsi, onların minimal səviyyədə saxlanılması sahəsində işlər daim görülür. Bundan əlavə, ASCO-nun gəmiləri ilə mütəmadi olaraq donanmalar və zavodların, eləcə də Dənizkənarı Milli Parkın akvatoriyasında dənizin səthində olan bərk tullantıların yığılması həyata keçirilir.

***ASCO-nun donanmalarının və sahil obyektlərinin fəaliyyəti nəticəsində yaranan müxtəlif növ tullantıların təhvil verilməsi (m³)***

| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| Təhvil verilmiş təhlükəli tullantıların həcmi | 7,030 | 7,901 | 9,975 | 8,559 | 8,665 |
| Təhvil verilmiş təhlükəsiz tullantıların həcmi | 4,797 | 4,735 | 3,493 | 9,203 | 3,472 |

***ASCO tərəfindən təkrar emala göndərilmiş metal (ton)***

| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| Qara metal | 655 | 8,826 | 7,299 | 1,866 | 15,618 |
| Əlvan metal | 3 | 12 | 15 | 18 | 89 |





Qəbul olunmuş beynəlxalq əmsallara və illik yanacaq sərfiyyatına əsasən hesablanmış birbaşa emsissiyalar

## Birbaşa emissiyalar ($CO_2$ ekvivalentində) min ton





Sərf edilən elektrik enerjisinin və müvafiq düsturların əsasında hesablanmış dolayı emissiyalar

## Dolayı emissiyalar ($CO_2$ ekvivalentində) ton





***Karbon intensivliyi əmsalı (işçi sayına görə $CO_2$ ekvivalentində emissiyalar), ton***

| 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|
| 31.3 | 36.5 | 28.8 | 30.0 | 28.0 |

Emissiyaların azalması yönündə görülmüş işlər:

- Hava şəraiti nəzərə alınmaqla sürətin optimallaşdırılması, optimal marşurutun seçilməsi kimi daha az yanacaq sərfinə imkan verən istismar tədbirlərinin tətbiqi;
- Gəmilərin sualtı hissəsinin hər tərsanə baxışı və təmir zamanı təmizlənməsi nəticəsində mühərrikin işinin yaxşılaşması və emissiyaların azalması
- Ağır yanacaqdan istifadənin əhəmiyyətli dərəcədə dizel yanacağı ilə əvəz edilməsi.

**Hesabat dövründə ətraf mühitin mühafizəsi yönündə görülmüş digər əlamətdar işlər:**



**Aprel 2019** – Xəzər Dəniz Neft Donanmasına məxsus gəmilər dənizin dibindən batmış gəmi hissələrini çıxarır. Ağ şəhər bulvarının su akvatoriyasının metal hissələrdən təmizlənməsi işləri çərçivəsində Xəzər dənizinin dibindən ümumilikdə 445 ton ağırlığında üç gəmi korpusu çıxarılır.



**Dekabr 2019** – Dahi şair İmadəddin Nəsiminin yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü çərçivəsində ASCO əməkdaşları tərəfindən 1000 ədəd müxtəlif növ həmişəyaşıl ağac əkilir.



**Fevral 2021** – 2 fevral, Gənclər Günü münasibətilə "Bibiheybət" Gəmi Təmiri Zavodunun ərazisində 100 ədəd ağac əkilir.



**Mart 2023** – ASCO-nun idarə və təşkilatlarında genişmiqyaslı iməclik




**Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi** ilə əlaqədar ağacəkmə aksiyası çərçivəsində Müşfiqabad qəsəbəsində, Səbail rayonunda, donanmalar, zavodlar və digər strukturların ərazisində 3000-dən çox müxtəlif növ ağaclar əkilir.

ASCO-da gəmiçilik üzrə texniki innovasiyalar istiqamətində işlərin görülməsinə xüsusi önəm verilmişdir. ASCO rəhbərliyi anlayırdı ki, 2020-2024-cü illərdə dünyada gəmiçilik tarixində yeni inkişaf mərhələsinə keçid və dinamik inkişafın başlanması ehtimalı yüksəkdir.



Gözlənildiyi kimi, keçid dövrü baş tutdu və bu gün də dinamik olaraq davam etməkdədir. ASCO görülmüş qabaqlayıcı tədbirlər nəticəsində bu keçidə tam olaraq hazırlandı, uğurla keçid etdi və hər hansı bir axsama olmadan fəaliyyətini uğurla davam etdirməkdədir.

5 illik hesabat dövrü ərzində həyata keçirilmiş tədbirlərə misal olaraq aşağıdakıları xüsusi ilə qeyd etmək vacibdir:

- 07.09.2019 - 07.09.2024 dövrü əhatə edən, BDT-nın BWM konvensiyasının D2 standartının yeni tələbinə müvafiq qaydada uyğunluq sənədlərinin alınması və gəmilərin istismarının təşkili.

- 01.01.2020 tarixində qüvvəyə minən, BDT-nın MARPOL konvensiyasının VI əlavəsinin tələblərinə uyğun şəkildə gəmilərin istismarının təşkili.

- 01.01.2023 tarixində qüvvəyə minən, MARPOL konvensiyasının VI əlavəsinin və BDT-nın İstixana qazlarının azaldılması strategiyasının yeni tələbinə uyğun olaraq gəmilərin istismar karbon intensivliyi əmsalının hesablanması, qiymətləndirilməsi, uyğunluq sənədinin alınması və gəmilərin müvafiq istismarının təşkili.

- 01.11.2023 tarixində qüvvəyə minən, MARPOL konvensiyasının VI əlavəsinin və BDT-nın İstixana qazlarının azaldılması strategiyasının yeni tələbinə uyğun olaraq İstismarda olan Gəmilərin Enerji Effektivliyinin İntensivliyi Əmsallarının (EEXI) yenidən hesablanması, uyğunluq sənədinin alınması və gəmilərin müvafiq istismarının təşkili.

- Hibrid gəmilərin ASCO tərəfindən istismarı imkanlarının araşdırılması və nəhayət 2024-cü ildə ASCO tarixində ilk hibrid tipli gəminin tikintisi üçün Bakı Gəmiqayırma Zavodu ilə gəmi tikintisi müqaviləsinin imzalanması.

Qeyd edilənlər görülmüş işlərin kiçik bir hissəsidir və ASCO dünyada möcvud olan ən son texnologiyaları daima araşdırır, dünyada yeni texnologiyalar üzərində iş aparan mühüm institutlar və şirkətlərlə qarşılıqlı əlaqədədir və enerji

səmərəliliyinin artırılması məqsədilə aşağıdaki mövzuların araşdırılmasına xüsusi diqqət ayırır:

- Külək rotorlarının gəmilərdə quraşdırılmasının mümkünlüyü.

- İkili yanacaqla (dizel yanacağı və maye qaz yanacağı) işləyən gəmi mühərriklərinin tətbiqinin mümkünlüyü.

- Qrafit boyaların gəmilərin sualtı hissəsinə vurulmasının mümkünlüyü.

- Gəmi konstruksiyasında və vint ətrafında konstruktiv dəyişikliklərin ediıməsininn mümkünlüyü.

- Gəmilərin gövdəsinin hava qabarcıqları ilə yağlanmasının mümkünlüyü.

- Hidrogen enerjisinin gələcək tətbiqinin mümkünlüyü.

- Alternativ və bərpa olunan enerji növlərinin gəmilərdə tətbiqinin mümkünlüyü.

Ümumiyyətlə, ötən 5 il ASCO-nun dinamik inkişafında xüsusi dövr hesab edilməlidir. Dünyada mövcud geosiyasi dəyişikliklərdən irəli gələn tələblərə uyğun olaraq ASCO artıq əlavə  dörd (LR, BV, RINA, ABS) nüfüzlu təsnifat cəmiyyətləri ilə işləməyə başlamışdır və bu da birbaşa ASCO-nun çoxşaxəli inkişafının göstəricisi olmaqla yanaşı, gəmiçilik sahəsində çox dinamik dəyişən tələblərə uyğun çalışan insan resursunun olmasınının göstəricisidir.

2023-cü il yeniliklər nöqteyi nəzərdən xüsusilə səciyyəvi il hesab olunur. Belə ki, 2023-cü il yalnız ASCO tarixində deyil, ümumiyyətlə Azərbaycanda gəmiçilik tarixinin yeni səhifəsinin açılması ilə əlamətdar olmuşdur. Azərbaycan Dövlət Bayrağı altında dünya sularında üzə bilən, məhdudiyyətsiz üzmə rayonuna malik olan Aframax tipli tankerlər ASCO-nun idarəetməsinə daxil omuşdur. Bu tip gəmilərin idarəedilməsi xüsusi bilik, dinamik çalışan kadr resursu, texniki bacarıq və əməkdaşlıqların qurulmasını tələb edir ki, ASCO qısa zamanda çox uğurla bu vəzifənin öhdəsindən gələ bilmişdir.

Hesabat dövründə ASCO-nun görmüş olduğu uğurlu işlər, xüsusən də dünyada gəmiçilik üzrə tələblərin çox sürətli şəkildə artdığı bir dövrdə gəmilərini yeni tələblərə uyğunlaşdıraraq istismarını uğurla davam etdirməsi, Azərbaycanda gəmiçilik tarixinin bəlkə də ən uğurlu dövrünü əhatə etmişdir və bu gün ASCO bu uğurun qorunması və inkişaf etdirilməsi üçün bütün resurslara və imkanlara malikdir.

**Rəşad Göyüşov**

ASCO-nun texniki direktorunun texniki innovasiyalar və yeni texnologiyalar üzrə müavini

# Sağlamlıq və əməyin təhlükəsizliyi

***ASCO-da sağlamlıq və əməyin təhlükəsizliyinin idarəedilməsi aşağıdakıların tələblərinə uyğun şəkildə tətbiq edilir:***

- MARPOL (Dənizin Gəmilərdən Çirkləndirilməsinin Qarşısının Alınması Beynəlxalq Konvensiyası)
- SOLAS (Dənizdə İnsan Həyatının Mühafizəsinə Dair Beynəlxalq Konvensiya)
- STCW (Dənizçilərin Hazırlanmasına, Onlara Diplom Verilməsinə və Növbə Çəkməyə Dair Konvensiya)
- MLC (Dəniz Əmək Konvensiyası)
- ISM Code (Beynəlxalq Təhlükəsizliyin İdarə Olunması Kodeksi)
- ISO 45001 (İş Sağlamlığı və Təhlükəsizliyi İdarəetmə Sistemi)
- Texniki Təhlükəsizlik Haqqında Azərbaycan Respublikasının Qanunu
- Azərbaycan Respublikasının Əmək Məcəlləsinin tələbləri




**ASCO-nun baş aparatında və gəmilərində Amerika Gəmiçilik Bürosu (ABS) tərəfindən keçirilmiş audit nəticəsində ASCO-nun mövcud Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəetmə Sisteminin beynəlxalq tələblərə uyğunluğu təsdiq edilmişdir.**

ASCO-da Sağlamlıq və Əməyin Təhlükəsizliyi İdarəetmə Sisteminin düzgün tətbiq olunmasına əmin olmaq məqsədilə aşağıdakı tədbirlər həyata keçirilir:

- Şirkətdaxili audit yoxlamaları
- Aşkar edilmiş nöqsanların aradan qaldırılması istiqamətində mütəmadi tədbirlər
- Əməkdaşların Şirkət hesabına vaxtaşırı olaraq dövri tibbi müayinəsi
- Mütəmadi daxili təlimlər
- Rübdə bir dəfə "Təhlükəsizlik günü" tədbiri

Tədbirdə Şirkətin rəhbərliyi, bütün departament rəisləri, struktur idarələrin rəhbərləri və digər aidiyyəti şəxslər rüb ərzində baş vermiş hadisələr, açıq qalan nöqsanlar və onların bağlanmasının mümkün həlləri, keçirilən audit yoxlamaları, görülmüş işlər, əldə edilən bütün nailiyyətlər haqqında məlumatlandırılır.

- Müxtəlif təhlükəsizlik bülletenlərinin bütün ASCO əməkdaşlarına elektron qaydada yayımlanması
- Hər il təhlükəsizlik texnikası və əməyin mühafizəsi sahəsində təminatın dəstəyinə müəyyən xərclərin ayrılması (məbləğlər aşağıdakı cədvəldə, manatla)

| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| **Təhlükəsizlik texnikası və əməyin mühafizəsi xərcləri** | **1,726,000** | **1,830,000** | **2,680,000** | **2,067,000** | **3,064,000** |
| Əmək şəraitinin yaxşılaşdırılması | 1,121,000 | 1,068,000 | 1,799,000 | 1,568,000 | 2,026,000 |
| Fərdi mühafizə vasitələri | 606,000 | 761,000 | 576,000 | 469,000 | 1,038,000 |

## Əməyin təhlükəsizliyi sahəsində məhsuldarlıq göstəriciləri

| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| Zədə almış işçilərin sayı | 4 | 6 | 5 | 6 | 6 |
| **Həlak olmuş işçilərin sayı** | **0** | **0** | **0** | **0** | **0** |
| İstehsalat zədələnməsi əmsalı (hər 1,000,000 işlənmiş saata) | 0.3 | 0.4 | 0.4 | 0.5 | 0.4 |
| İtirilmiş iş günləri əmsalı (hər 1,000,000 işlənmiş saata) | 21.0 | 30.0 | 36.4 | 61.8 | 47.5 |

# Korporativ sosial məsuliyyət

ASCO-nun korporativ sosial məsulliyyəti çərçivəsində fəaliyyəti aşağıdakı istiqamətləri əhatə edir:

## Maliyyə dəstəyi və xeyriyyəçilik

Korporativ sosial məsuliyyət çərçivəsində hər il mütəmadi olaraq kimsəsiz uşaqlara, maddi durumu ağır ailələrə, məcburi köçkün ailələrinə, müharibə veteranlarına və əmək qabiliyyətini itirmiş insanlara maddi yardımlar edilir. ASCO həmçinin, istehsalat zamanı əmək qabiliyyətini itirən işçilərinin yardıma ehtiyacı olan uşaqlarını, o cümlədən, yardıma ehtiyacı olan digər uşaqların bir qismini öz himayəsinə götürmüşdür.

| | 2023 | 2022 | 2021 | 2020 | 2019 |
|---|---|---|---|---|---|
| Maddi yardım alanların sayı | 315 | 381 | 239 | 140 | 1,849 |
| Maddi yardımın məbləği, AZN | 371,000 | 404,000 | 258,000 | 208,000 | 1,729,000 |
| Himayədə olan uşaqların sayı | 129 | 141 | 131 | 128 | 121 |

ASCO 2021-ci ilin iyun ayına qədər ənənəvi olaraq Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Novruz bayramı, Qurban bayramı, Ramazan bayramı, Müstəqillik Günü və Azərbaycan xalqının Milli Qurtuluş Günü ərəfələrində Gəmiçiliyin himayəsində olan 779 qaçqın və məcburi köçkün ailəsinə, ümumilikdə 3350 nəfərə zəruri ərzaq məhsullarından ibarət bayram sovqatı paylayıb.

ASCO 2023-cü ilin fevral ayında iki dəfə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq qardaş Türkiyədə zəlzələdən zərərçəkənlərin zəruri ehtiyaclarının qarşılanması məqsədilə ASCO-nun Türkiyədəki nümayəndəliyinin əməkdaşları vasitəsilə çadır, qida məhsulları, gigiyenik vasitələr və gündəlik istifadə olunan digər əşyalardan ibarət humanitar yardımlar göndərib.



# İşçilərin rifahı və sağlamlığına dəstək

Mart 2021 – ASCO-nun yeni inzibati binasının istismara verilməsi. Tərkibində müasir standartlara cavab verən idman zalı, kitabxana və Şirkətin tarixini əks etdirən muzey fəaliyyət göstərir.







Aprel 2023 – Görkəmli oftalmoloq, Akademik Zərifə Əliyevanın 100 illiyi ilə əlaqədar ASCO-da göz müayinəsi aksiyası





May 2023 – Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi günündə müasir yaşayış kompleksinin tərkibi olaraq 487 təmirli mənzilin mənzil növbəsində qeydiyyatda olan dənizçilərə təqdim edilməsi.

ASCO-nun Aparatında və struktur bölmələrində çalışan əməkdaşların iş günlərində isti yeməklə təmin edilməsi.

Xaçmaz rayonunda yerləşən "Dənizçi" istirahət bazasında dənizçi ailəsindən olan minlərlə insanın dincəlməsi



# Ölkədə idmanın inkişafına dəstək




ASCO "Səbail" Peşəkar Futbol Klubuna sponsorluq edir. Komandanın ev oyunlarının təşkil olunduğu stadiona "ASCO Arena" adı verilmiş, futbolçular üzərində ASCO loqosu olan müvafiq formalarda çıxış edirlər.




ASCO Azərbaycan Respublikası Yelkənli İdman Federasiyası İctimai Birliyinə də sponsorluq edir. ASCO-nun tərkibində "Xəzər" Yelkənli Qayıqlar İdman Klubu fəaliyyət göstərir.

ASCO Azərbaycan Respublikası Atçılıq Federasiyasına ianələr etməklə, Federasiyanın müxtəlif tədbirləri təşkil etməsinə dəstək olur.



# Gənclərə dəstək

ASCO-da gənclərin fərdi və peşəkarlıq keyfiyyətlərinin yaxşılaşdırılması, onların davamlı olaraq motivasiyası daim diqqət mərkəzində saxlanılır.

ASCO tərəfindən Azərbaycan Dövlət Dəniz Akademiyasının bilik və bacarıqları ilə fərqlənən tələbələrinin işlə təmin olunmasına xüsusi diqqət yetirilir.

ASCO-nun rəhbərliyi ilə bu tələbələr və əmək fəaliyyətində fərqlənən gənc işçilərlə hər ay mütəmadi olaraq səmimi görüşlər təşkil olunur, onların karyera inkişafı, ixtisasartırma, təcrübə mübadiləsi və digər mövzularla bağlı müzakirələr aparılır.

Gəmiçiliyin fəaliyyəti ilə dərindən tanış olmaları məqsədilə "Suraxanı" Gəmi-Muzeyində mütəmadi olaraq, şəhid övladları, kimsəsiz uşaqlar və digər həssas kateqoriyadan olan gənclər üçün açıq qapı günləri keçirilir.




Fevral 2023 – Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Gənclər Günündə “Gəncliyimiz gələcəyimizdir” adlı “Breyn Rinq” intellektual oyunu keçirilir.



# Ölkədə dənizçi peşəsinin təbliği

ASCO dənizçi peşəsinin təbliğ edilməsi, Azərbaycanın dənizçilik tarixinin öyrənilməsi və dənizçilik ənənələrinin qorunub saxlanmasına xüsusi önəm verir. Bu məqsədlə həyata keçirilən tədbirlərdən bəzilərini təqdim edirik:

İyul 2019 – “Ulu Öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti” kitabı nəşr edilir. Kitabda Ulu Öndərin Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tarixində misilsiz rolu və zəhmətindən bəhs edilir.



Avqust 2019 – ASCO-nun sifarişi ilə nəşr olunan “Azərbaycanda Gəmiçilik: Sənədli tarix”, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi-160 il”,  “Ulu Öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti” kitabları Azərbaycan Milli Kitabxanasına təqdim olunur.




May 2020 – Xəzər dəniz nəqliyyatının Böyük Vətən Müharibəsində rolu barədə qısametrajlı sənədli film hazırlanır.



Mart 2021 – Xəzər regionunda ilk gəmi-muzey, dünyada isə ilk tanker-muzey olan “Suraxanı” istifadəyə verilir. 2000-dən artıq yerli gəmi təmirçisinin əməyi nəticəsində ərsəyə gələn bu muzeyin zallarında ən müasir texnoloji həllər tətbiq olunub. Muzey 2023-cü ildə beynəlxalq məşhur “TripAdvisor” turizm və səyahət platformasının istifadəçilərinin rəyinə əsasən tərtib edilmiş ölkəmizin 220 turistik-cəlbedici məkanının siyahısında birinci yerə layiq görülür.





Mart 2021 – Fədakar Azərbaycan dənizçilərinin xatirəsinə ucaldılmış heykəltəraşlıq kompozisiyasının açılışı olur. ASCO-nun sifarişi əsasında hazırlanan əsərin müəllifləri xalq rəssamları Səlhab Məmmədov və Əli İbadullayev, memarı əməkdar memar Elxan Əsədovdur.

Oktyabr 2022 – “Erasmus+” proqramı çərçivəsində Avropa və Asiyanın 18 ölkəsini təmsil edən 100 nəfər gənc “Suraxanı” gəmi-muzeyində gəmiçilik tariximizlə tanış olurlar.



Yanvar 2023 – ASCO-nun təşəbbüsü ilə xalqımızın qəhrəmanlıq salnaməsi olan 20 Yanvar hadisələri və bu hadisələr zamanı şücaət göstərmiş dənizçilərimiz haqqında çəkilən “20 yanvarda doğulanlar” bədii-sənədli filminin təqdimatı olur.



Mart 2023 – “Suraxanı” gəmi-muzeyində “Xəzərin irsi” adlı unikal sualtı arxeologiya sərgisi keçirlir.






İyun 2023 – ASCO-nun təşəbbüsü ilə Beynəlxalq Uşaqları Müdafiə Günündə “Dənizçilik əlifbası” kitabı işıq üzü görür.

İyul 2023 – “Dənizçilik əlifbası” kitabı ASCO nümayəndələri tərəfindən Şamaxıda  həyata keçirilən "YAŞAT" düşərgəsində şəhid övladlarına təqdim olunur.



Sentyabr 2023 – “Suraxanı” gəmi-muzeyində Beynəlxalq İşarə Dilləri Günü ilə əlaqədar “Səssizliyə körpü” adlı sosial layihə həyata keçirilir.






Oktyabr 2023 – ASCO-nun sifarişi ilə ölkəmizdə milli gəmiçiliyin əsasının qoyulmasının 165 illiyinə həsr olunmuş “Üç əsrə şahid” adlı qısametrajlı bədii-sənədli film çəkilir. Quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Elxan Cəfərov olan ekran əsərində milli gəmiçiliyin zəngin tarixi, ənənələri, müasir dövrdəki inkişafı öz əksini tapıb.

Oktyabr 2023 – ASCO-nun təşəbbüsü ilə dəniz və gəmiçilik mövzusunda oxunan mahnılardan ibarət “Xəzərin sahilində” adlı albom işıq üzü görür.




Noyabr 2023 – “Suraxanı” gəmi-muzeyi və Rumıniyanın Azərbaycandakı səfirliyinin birgə həyata keçirdiyi “Mədəniyyət körpüsü” layihəsi çərçivəsində ölkəmizdə fəaliyyət göstərən müxtəlif xarici ölkələrin səfirliklərinin nümayəndələri, rəssamlar, dənizçilər, media və ictimaiyyət nümayəndələrinin də iştirakı ilə beynəlxalq rəsm sərgisi keçirlir.



# QARABAĞ AZƏRBAYCANDIR!



27 sentyabr və 9 noyabr 2020-ci il tarixləri arasında 44 gün ərzində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu haqq savaşına çıxır və tarixi ədaləti bərpa edir. Bu və bundan sonrakı dövr ərzində ASCO ailəsi də bütün Azərbaycan xalqı kimi daim hər birimizin qürur mənbəyi olan Azərbaycan Ordusunun yanında olur.



- Oktyabr 2020 – ASCO kollektivi könüllü şəkildə Azərbaycan Ordusuna Yardım Fonduna 1,064,022 manat ianə edir. Bu məbləğ ASCO-nun əməkhaqqı fondundan ayrılır.
- İyun 2021, avqust 2021, noyabr 2021 – Torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən müharibəsi şəhidlərinin övladları üçün “Suraxanı” gəmi-muzeyinə ekskursiyalar təşkil edilir.




- Noyabr 2021 – 8 noyabr Zəfər Günü münasibəti ilə ASCO strukturlarında fəaliyyət göstərən gənclər arasında atıcılıq yarışı keçirilir.
- Noyabr 2021 – ASCO-nun təşəbbüsü ilə Vətən müharibəsində iştirak edən dənizçilərə həsr olunmuş “Hər biri qəhrəmandır” kitabı işıq üzü görür.

- Noyabr 2021 – ASCO-da müharibədə iştirak etmiş əməkdaşların, şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın ASCO-da çalışan valideynlərinin və ASCO kollektivinin iştirakı ilə 8 noyabr Zəfər Gününə həsr olunmuş tədbir keçirilir.
- Yanvar 2022 – Dənizçi şəhidlər, dənizçi qazilər və dənizçi müharibə iştirakçılarının həyat və döyüş yollarından bəhs edən “Hər biri qəhrəmandır” kitabı Azərbaycan Milli Kitabxanasına təqdim edilir.
- Mart 2022, mart 2023, noyabr 2023 – Övladı şəhidlik zirvəsinə ucalan ASCO əməkdaşları ziyarət olunurlar.
- İyun 2022 – ASCO tərəfindən 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərin övladları və onların valideynlərinin iştirakı ilə “Yaxt klub”da tədbir təşkil edilir.
- Avqust 2022 – ASCO nümayəndələri "YAŞAT" düşərgəsində şəhid övladları üçün ölkəmizin gəmiçilik tarixi, ənənələri, dənizçi peşəsi və ASCO-nun fəaliyyəti barədə ətraflı məlumatları əks etdirən maraqlı təqdimatlarla çıxış edirlər.
- Noyabr 2022 – ASCO-nun İctimaiyyətlə əlaqələr departamenti Vətən müharibəsində qazanılmış Zəfərin ikinci ildönümü münasibətilə “Unudulmaz Zəfər” adlı sənədli film hazırlayır. Filmdə 44 günlük Vətən müharibəsinin detalları ilə yanaşı, çoxminli ASCO ailəsinin ümumi qələbədə oynadığı roldan da bəhs olunur.
- Noyabr 2023 – “Suraxanı” gəmi-muzeyinin “Xəzərin Ruhu” zalının 360 dərəcəlik ekranında Vətən müharibəsinə aid, azərbaycan, rus və ingilis dillərində mətnlə müşaiyət edilən videoçarx nümayişə çıxarılır.
- Bu gün SOCAR-la birgə layihə çərçivəsində 2023-cü ildə istismara qəbul edilən “Aframax” tipli tankerlər Vətən müharibəsində qələbəmizi təcəssüm etdirmək məqsədilə ölkə başçısının qərarı ilə Azərbaycan xalqı üçün mühüm əhəmiyyət kəsb edən tarixi torpaqlarımızın şərəfinə “Qarabağ”, “Şuşa” və “Zəngəzur” adları ilə dünya okeanlarında Azərbaycan bayrağı altında qürurla üzürlər.
- Vətən müharibəsindən sonrakı dövr ərzində 8 nəfər şəhid ailəsi üzvü, 12 nəfər Birinci Qarabağ müharibəsi və 140 nəfər İkinci Qarabağ müharibəsi iştirakçısı olmaqla cəmdə 160 nəfər ASCO-da işlə təmin olunur.
- ASCO-da hər ay ailəsində Birinci Qarabağ və ya İkinci Qarabağ müharibələrində şəhid olan əməkdaşlara əlavə olaraq 300, müharibə əlillərinə 200, müharibə iştirakçılarına isə 150 AZN ödəniş olunur.
- ASCO tərəfindən İkinci Qarabağ müharibəsi iştirakçısı olmuş ADDA-nın 8 nəfər tələbəsi təhsil haqqı ödənişi və Akademiyanın yataqxanasından istifadə üzrə ödənişlərdən tam azad olunmaqla yanaşı, təhsil təqaüdü ilə də təmin edilmişlər.



## Daim qəlbimizdə yaşayacaqlar...




Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və onun ömür-gün yoldaşı görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın 100 illiyi münasibətilə, onların əziz xatirəsinə dənizçilərin sonsuz ehtiramını çatdırmaq məqsədilə keçirilən silsilə tədbirlər.

Aprel 2023 – ASCO-nun bütün strukturlarını əhatə edən və “Dünyaya sağlam baxaq” devizi altında “Paşa Sığorta” ASC və Dünyagöz Xəstəxanasının tərəfdaşlığı ilə həyata keçirilən göz müayinəsi aksiyası




Aprel 2023 – ASCO-nun təşəbbüsü ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki “Azərpoçt” MMC tərəfindən Akademik Zərifə Əliyevanın adını daşıyan Ro-Pax tipli gəminin təsviri əks olunmuş poçt markası hazırlanır.




May 2023 – Azərbaycan Dövlət Dəniz Akademiyasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş “Su nəqliyyatının problemləri” mövzusunda 18-ci Beynəlxalq elmi-texniki konfrans keçirilir.

May 2023 – Doğma Xəzərin qoynunda bir araya gətirilən “Prezident Heydər Əliyev” tankeri və Ro-Pax tipli “Zərifə Əliyeva” gəmi-bərəsinin göyərtələrində Xalq artisti Nəzakət Teymurova tərəfindən ifa edilən və Ulu öndər Heydər Əliyevin sevdiyi mahnılar sırasında yer alan “Küçələrə su səpmişəm” xalq mahnısına klip çəkilir.

May 2023 – ASCO-nun təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin və görkəmli elm xadimi, oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş “Əbədi sevgi” adlı tədbir təşkil olunur.



May 2023 – ASCO-nun təşəbbüsü ilə “Prezident Heydər Əliyev” tankeri və Ro-Pax tipli “Zərifə Əliyeva” gəmi-bərəsinin təsviri əks olunmuş 2 poçt markasından ibarət blok dövriyyəyə buraxılır.




May 2023 – Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi günündə dənizçilər yeni müasir yaşayış kompleksində 487 təmirli mənzillə sevindirilir.




May 2023 – Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Gənclər və İdman Nazirliyinin dəstəyi, ASCO-nun, Azərbaycan Yelkən Federasiyasının və “Xəzər” Yelkənli Qayıqlar İdman Klubunun birgə təşkilatçılığı ilə "Baku Sailing Regatta-2023” keçirilir.



İyun 2023 – ASCO-da çalışan Vətən müharibəsi iştirakçıları Böyük Qafqaz dağlarında dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən “Heydər zirvəsi”nə yürüş təşkil edir.




Avqust 2023 – Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan “Xəzərim” fotomüsabiqəsi çərçivəsində “Suraxanı” gəmi-muzeyində sərgi təşkil olunur.



Sentyabr 2023 – ASCO-nun təşəbbüsü ilə “Heydər Əliyev İli” çərçivəsində gəmi-modelçiliyi sahəsinə maraq göstərənlərin yaradıcılıq stimulunu artırmaq məqsədilə “Gəmi modelçiliyi” müsabiqəsi keçirilir.






Oktyabr 2023 – Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100, eləcə də inkişafında Ulu Öndərin böyük xidmətləri olan milli gəmiçiliyin əsasının qoyulmasının 165 və Prezident İlham Əliyevin 2013-cü ildə imzaladığı Sərəncamla iki böyük gəmiçilik şirkətinin birləşdirilməsi yolu ilə yenidən təşkil edilən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) yaradılmasının 10 illiyinə həsr olunmuş “Ulu Öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti” mövzusunda tədbir keçirilir.

Oktyabr 2023 – ASCO-nun sifarişi ilə toxunan və mərkəzində “Aframax” tipli “Qarabağ” gəmisi təsvir edilən xalçada 100 və 1923 rəqəmləri Ulu Öndər Heydər Əliyevin anadan olması tarixini, 165 və 1858 rəqəmləri milli gəmiçiliyin yaradılması tarixini, 10 rəqəmi isə ASCO-nun 10 illik yubileyini əks etdirir.




Dekabr 2023 – ASCO-nun “Heydər Əliyev İli” çərçivəsində hazırladığı “Xilaskar lider” filmində dahi şəxsiyyətin həyat və fəaliyyətindən, gəmiçilik sahəsinə verdiyi töhfələrdən və dənizçilərə sonsuz qayğısından bəhs olunur.





# KORPORATİV İDARƏETMƏ





# ASCO-nun korporativ idarəetmə strukturunun qrafik təsviri

*ASCO Azərbaycan Respublikası Prezidentinin 2293 nömrəli Sərəncamı ilə 6 noyabr 2020-ci il tarixində Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2021-ci il tarixli 2495 nömrəli Sərəncamı ilə ASCO-nun ümumi yığıncağı və Müşahidə Şurası arasında səlahiyyət bölgüsü, 22 fevral 2021-ci il tarixli 2516 nömrəli Sərəncamı ilə isə ASCO-nun Müşahidə Şurasının tərkibi müəyyən edilmişdir. Hazırda ASCO-nun Müşahidə Şurasının nəzdində Strategiya və investisiyalar komitəsi, Təyinat və mükafatlandırma komitəsi və Audit komitəsi fəaliyyət göstərir.*

**Səhmdarların Ümumi Yığıncağı**

- Azərbaycan Respublikası Prezidenti
- Azərbaycan İnvestisiya Holdinqi

**Müşahidə Şurası**

- Müşahidə Şurasının Sədri
- Müşahidə Şurasının üzvləri (4 nəfər)

**Müşahidə Şurası yanında komitələr**

- Strategiya və investisiyalar Komitəsi
- Audit Komitəsi
- Təyinat və mükafatlandırma Komitəsi

**Idarə Heyəti**

- İdarə Heyətinin Sədri
- İdarə Heyətinin Sədrinin müavinləri-İdarə Heyətinin üzvləri (6 nəfər)

**İdarə Heyəti yanında komitələr**

- Satınalmalar Komitəsi
- Risklər üzrə Komitə
- Personalın İdarəedilməsi Komitəsi
- İctimai Məsləhətləşmələr Şurası
- Layihələrin İdarəedilməsi Mərkəzi
- Mükafatlandırma üzrə İşçi qrup

**Struktur idarələr**

# Strateji idarəetmə

- 2022-ci ildə ASCO-nun 2022-2030-cu illəri əhatə edən Strategiyası beynəlxalq nüfuzlu KPMG şirkətinin məsləhətçi xidmətlərinin dəstəyi ilə yenilənmişdir.
- Həmin Strategiyaya uyğun qısamüddətli investisiya planı təsdiq edilmişdir.
- 2023-cü ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, ASCO-da özəl investisiyaların cəlb edilməsinə hazırlığın qiymətləndirilməsi, özəl investisiyaların cəlb edilməsi üzrə uyğun mexanizmin seçilməsi məqsədi ilə, beynəlxalq nüfuzlu məsləhətçi şirkət Boston Consulting Group (BCG) və hüquq məsləhətçisi qismində Deloitte&Touche şirkəti cəlb edilmişdir. Qeyd edilən layihə çərçivəsində nəzərdə tutulan əsas məqamlar:

o ASCO-da müvafiq təhlillərin aparılması

o Özəl investisiyaların cəlb edilməsi üzrə mümkün istiqamətlərin müəyyən edilməsi

o Uyğun hesab edilən istiqamət üzrə özəl investisiyaların cəlb edilməsi üçün müvafiq hazırlıq işlərinin həyata keçirilməsi

# Şəffaflıq, hesabatlılıq və məlumatların açıqlanması

- Yarandığı gündən etibarən ASCO-da Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) tətbiq edilmişdir.
- Bu standartlara uyğun hazırlanmış konsolidə edilmiş maliyyə hesabatları hər il beynəlxalq nüfuzlu audit şirkəti tərəfindən audit olunur və ictimaiyyətə açıq şəkildə ASCO-nun rəsmi internet səhifəsində dərc edilir.
- Yarandığı gündən etibarən ASCO-nun iki illik dövrü əhatə edən Dayanıqlı İnkişaf haqqında hesabatları hazırlanır.
- ASCO Xəzər hövzəsində sosial korporativ məsuliyyəti üzrə fəaliyyətinə dair hesabatı açıqlayan ilk gəmiçilik şirkətidir.
- Dayanıqlı İnkişaf haqqında hesabatlar beynəlxalq nüfuzlu audit şirkəti tərəfindən audit olunur və ictimaiyyətə açıq şəkildə ASCO-nun rəsmi internet səhifəsində dərc edilir.
- ASCO-da maliyyə və əməliyyat nəticələrinin açıqlanmasını şərtləndirən Məlumatların açıqlanması Siyasəti tətbiq edilmişdir.
- ASCO-nun nailiyyətləri və əməliyyat nəticələri, Gəmiçilikdə baş verən yeniliklər və önəmli hadisələr, görülən işlər haqqında məlumatlar ASCO-nun rəsmi internet səhifəsi və sosial şəbəkə hesabları üzərindən, o cümlədən digər tanınmış kütləvi informasiya vasitələri ilə ictimaiyyətə şəffaflıqla çatdırılır.

# Mükafatlandırma sistemi

- 2017-ci ildən etibarən ASCO-da illik fəaliyyətin nəticələrinə əsaslanan mükafatlandırma sistemi tətbiq edilir.
- Bu çərçivədə ASCO-nun Korporativ Əsas Səmərəlilik Göstəriciləri (ƏSG) və İdarə Heyətinin üzvlərinə kaskadlanmış ƏSG-lər üzrə hədəflər və çəki payları ASCO-nun Müşahidə Şurası tərəfindən illik əsasda təsdiq olunur.
- Mükafatlandırma prosesinin tənzimlənməsini və koordinasiyasını təmin etmək məqsədi ilə, ASCO-da Mükafatlandırma üzrə İşçi Qrup təsis edilmişdir.
- KPI-ların nəticələrinin və bonus məbləğlərinin hesablanması elektron sistem üzərindən avtomatik şəkildə həyata keçirilir.
- Tətbiq olunan mükafatlandırma sistemi aşağıdakı meyar, prinsip və məqsədləri özündə cəmləşdirir:

    o Gəmiçiliyin qarşısında müəyyən etdiyi strateji hədəf və məqsədlərə çatmaq;

    o Gəmiçiliyin gəlirliliyini və rentabelliyini təmin etmək;

    o Əməkdaşları inkişaf və təkmilləşməyə həvəsləndirmək, onları daha da məhsuldar fəaliyyətə motivasiya etmək;

    o Yüksək ixtisaslı və aparıcı kadrların ASCO-ya bağlılığını və loyallığını daha da artırmaq, yeni güclü kadrları Gəmiçiliyə cəlb etmək;

    o Fəaliyyətin qiymətləndirilməsi və mükafatlandırmada şəffaflığı, ədalətliliyi, obyektivliyi təmin etmək.

# Satınalma sistemi

- ASCO-da təchizatçıların seçilməsi üçün satınalma prosedurları Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq ASCO-nun Müşahidə Şurası tərəfindən təsdiq edilmiş Satınalma Qaydalarına və digər daxili sənədlərə, həmçinin satınalmalar üzrə beynəlxalq gəmiçilik sahəsində qabaqcıl prinsiplərə uyğun həyata keçirilir.
- Bu prosedurlar Satınalma Komissiyası kollegial orqanının nəzarəti ilə icra edilir.
- Təchizatçıların seçim prosesi çərçivəsində onların etibarlılığı, maliyyə vəziyyətlərinin sabitliyi və müsbət işgüzar nüfuzları qiymətləndirilir.
- Həyata keçirilən müsabiqələr ASCO tərəfindən ictimaiyyətə açıq şəkildə, Gəmiçiliyin rəsmi internet səhifəsində dərc edilir.
- Bütün səhmləri dövlətə məxsus olan gəmiçilik şirkəti olaraq, ASCO tərəfindən müvafiq keyfiyyət tələblərinə uyğunluq nəzərə alınmaqla, yerli mal, iş və xidmət təchizatçılarına üstünlük verilir.

# Daxili audit və nəzarət sistemi
# Risklərin idarəedilməsi

- Korporativ idarəetmə sisteminin effektivliyinin təmin edilməsi məqsədilə «üç səviyyəli müdafiə modeli»nin tətbiqi
- Beynəlxalq təcrübədə tətbiq edilən "Treadway" Komissiyasının Sponsor Təşkilatları Komitəsinin modelinin (COSO modelinin) 5 əsas komponentinin (nəzarət mühiti, risklərin qiymətləndirilməsi, nəzarət tədbirləri, məlumat və kommunikasiya, monitorinq) səmərəli təşkili yolu ilə təmin edilmiş daxili nəzarət funksiyasının əsas fəaliyyət istiqamətləri:
    - Gəmiçiliyin aparatı və struktur bölmələrin fəaliyyətinin Azərbaycan Respublikasının qanunvericiliyinə, daxili sənəd və qaydalara uyğunluğuna nəzarət
    - Biznes proseslərin və nəzarət mexanizmlərinin səmərəliliyinin qiymətləndirilməsi
- Daxili audit haqqında Azərbaycan Respublikası Qanununa, ASCO-nun Daxili Audit Departamentinin Əsasnaməsinə və Daxili Auditorlar İnstitutunun Daxili Audit Standartlarına uyğun olaraq təşkil edilmiş daxili audit funksiyasının fəaliyyət istiqamətləri:
    - Təminat (audit yoxlaması) xidmətləri
    - Konsaltinq (məsləhət xarakterli) xidmətləri
- Aparıcı beynəlxalq təcrübəyə uyğun olaraq COSO-nun Müəssisələrdə Risklərin İdarəedilməsi (Enterprise Risk Management) metodologiyası əsasında təşkil edilmiş risklərin idarəedilməsi sistemi
- Beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında" və "Neftlə çirklənmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında", eləcə də gəminin gövdə və mexanizmlərinin sığortası

# Biznes etikası və komplayens

- ASCO-da əməkdaşların davranış etikası, etika normaları və onlara əməl edilməsi ilə bağlı münasibətləri, peşə fəaliyyəti zamanı etika prinsipləri üzrə əsas tələbləri müəyyən edən Biznes Etikası Məcəlləsi və Daxili İntizam Qaydaları tətbiq edilir.
- Bu yöndə tələblərə riayət olunmasının təmin edilməsi məqsədilə 24/7 rejimində fəaliyyət göstərən “Qaynar xətt” əlaqə mərkəzi, ASCO-nun rəsmi internet səhifəsində elektron müraciət bölməsi və korporativ sosial şəbəkə funksiyasını yerinə yetirən “My ASCO” mobil tətbiqində müvafiq şikayətlərin bildirilməsi funksiyası mövcuddur.
- Gəmiçiliyin əməkdaşlarının biznes etikası sahəsində maarifləndirilməsi və məlumatlandırılması çərçivəsində davamlı təlimlər təşkil edilir və işçilərə müvafiq təlimatlar verilir.
- İnsan haqlarının qorunması Azərbaycan Respublikasının Konstitusiyası və ölkənin digər qanunvericilik aktları, Gəmiçiliyin Biznes Etikası Məcəlləsi, eləcə də beynəlxalq konvensiyalar, o cümlədən İnsan Hüquqlarının və Azadlıqlarının Müdafiəsi Haqqında Avropa Konvensiyasının tələbləri ilə tənzimlənir.
- ASCO daxilində komplayens (uyğunluq) funksiyası Gəmiçiliyin fəaliyyətinin şirkətdaxili etik standartlara, yerli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğunluğunu təmin edir.



# Korrupsiyaya qarşı tədbirlər

- 2022-ci ildə beynəlxalq nüfuzlu təsnifat cəmiyyəti - LRQA (Lloyd's Register) tərəfindən aparılan audit yoxlamalarının nəticələrinə əsasən ASCO-ya ISO 37001 – "Antikorrupsiya idarəetmə sistemi" beynəlxalq standartı üzrə sertifikat təqdim edilmişdir.
- ASCO tərəfindən anti-korrupsiya tədbirləri "Korrupsiya ilə mübarizəyə dair Təlimat", "Korrupsiyaya qarşı Mübarizə Siyasəti" və "Korrupsiyaya qarşı Mübarizə Qaydaları" ilə tənzimlənir.
- Qeyd edilən sənədlərin əsas məqsədləri aşağıdakılardır:

  o işəgötürənlə işçi arasında etimadın möhkəmləndirilməsi;

  o qanuna zidd vəzifələrin icrasına yol verilməməsi;

  o korrupsiya ilə əlaqədar hüquqpozmanın törədilməsini istisna edən şəraitin yaradılması;

  o ədalətin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiə olunması;

  o istənilən növ təzahürdə korrupsiya fəaliyyətinin ASCO tərəfindən qəbul edilməməsi haqqında bütün maraqlı tərəflərdə vahid anlayışın yaradılması;

  o ASCO üzrə korrupsiya risklərinin minimuma endirilməsi, fəaliyyətdə şəffaflığın artırılması;

  o korrupsiya əleyhinə başlıca hərəkət qaydalarının və normalarının formalaşdırılması.



# Korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi yönündə görülmüş digər işlər

- Hazırda ASCO aşağıdakı sertifikatlara sahibdir və müvafiq konvensiyaların tələblərinə cavab verir:

    o ISO 9001: Keyfiyyətin idarə edilməsi
    o ISO 14001: Ekoloji idarəetmə
    o ISO 50001: Enerji səmərəliliyinin idarə edilməsi
    o ISO 45001: Sağlamlıq və təhlükəsizlik idarəetmə sistemi
    o ISO 37001: Anti-korrupsiya idarəetmə sistemi
    o ISM code 2010: Təhlükəsizliyin beynəlxalq idarəetmə sistemi
    o SOLAS: Dənizdə həyat təhlükəsizliyi üzrə beynəlxalq konvensiya
    o MARPOL: Dəniz çirklənməsi əleyhinə konvensiya
    o STCW: Təlimləndirmə standartları, Sertifikatlaşma və Növbəçəkmə üzrə Beynəlxalq Konvensiya



- 2019-cu ildə Moody's şirkəti, 2022-ci ildə isə Fitch Ratings şirkəti tərəfindən ASCO-ya kredit reytinqi təqdim edilmiş və ASCO-nun öz kredit öhdəliklərini yerinə yetirmək qabiliyyətinin dayanıqlı olduğu müəyyənləşdirilmişdir.
- Biznes proseslərin avtomatlaşdırılması, innovativ elektron sistemlərin və proqram təminatlarının tətbiq edilməsi istiqamətində ASCO-da SAP ERP və onun müvafiq modulları, eləcə də donanmanın istismarı, gəmi təmiri və layihələndirilməsi, insan resurslarının idarəedilməsi və ümumi inzibati işlər üzrə müxtəlif sistem və proqramlar tətbiq edilmişdir.
- ASCO-da tətbiq edilmiş əməkdaşlar üçün elektron kabinet – "My ASCO" mobil tətbiqi vasitəsilə aşağıdakı əməliyyatları icra etmək mümkündür:

o ASCO ilə bağlı ən son məlumatları əldə etmək;

o Əməkdaşlar arasında ünsiyyətin asanlaşdırılması məqsədi ilə, mobil tətbiq çərçivəsində korporativ sosial şəbəkə fəaliyyəti;

o İş yerindən müxtəlif növ arayış və sənədləri sorğu etmək;

o Müxtəlif növ toplu və fərdi bildirişlər, elanlar, sənəd və sertifikatların bitmə vaxtı barədə xatırlatma və digər vacib məlumatlar almaq;

o Real vaxt rejimində aylıq əmək haqqı üzrə ətraflı onlayn çıxarış əldə etmək;

o Məzuniyyət günləri barədə məlumat almaq və məzuniyyət üçün elektron formada müraciət etmək;

o Xidməti fəaliyyətin qiymətləndirilməsinin son illər ərzində nəticələri ilə tanış olmaq;

o Daxili onlayn təlim platformasına keçid etmək;

o ASCO-nun aparatı və struktur idarələrinə gələn və yaxud iş gününün sonunda çıxan uyğun avtobus marşrutları, eləcə də hər gün aparatda və struktur bölmələrdə nahar zamanı təqdim edilən yeməklərin siyahısı ilə tanış olmaq;

o Mövcud açıq vakansiyalar barədə məlumat əldə etmək və uyğun vakansiya üzrə müraciət göndərmək.





# MALİYYƏ HESABATLARI

# "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC

**Konsolidasiya edilmiş maliyyə hesabatları**

Müstəqil Auditorun Hesabatı ilə birlikdə
31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə

# MÜNDƏRİCAT


## Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə Müstəqil Auditorun Hesabatı

## Konsolidasiya edilmiş maliyyə hesabatları

Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat ..... 93
Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat ..... 94
Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat ..... 95
Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat ..... 96

## Konsolidasiya edilmiş maliyyə hesabatlarına dair qeydlər

1. Qrup və onun əməliyyatları ..... 97
2. Maliyyə heabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri ..... 98
3. Mühüm mühasibat uçotu qiymətləndirmələri və mühakimələri ..... 113
4. Yeni və ya düzəliş edilmiş standartların, onlara dair şərhlərin tətbiqi və yeni uçot qaydaları... 116
5. Seqment məlumatları ..... 118
6. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və məhdudlaşdırılmış pul vəsaitləri ..... 119
7. Ticarət və digər debitor borcları ..... 119
8. Vergilər üzrə debitor borcları ..... 120
9. Avans ödənişləri ..... 120
10. Mal-material ehtiyyatları ..... 121
11. Ticarət və digər kreditor borcları və digər uzunmüddətli öhdəliklər ..... 121
12. Borc öhdəlikləri ..... 122
13. Gəmilər, əsas vəsaitlər ..... 123
14. İstifadə hüququ olan aktivlər və icarə öhdəlikləri ..... 124
15. Səhm kapitalı və əlavə ödənilmiş kapital ..... 124
16. Gəlirlərin kateqoriyalar üzrə təhlili ..... 124
17. Xərclərin xüsusiyyətinə görə təhlili ..... 125
18. Əlaqəli tərəflərlə qalıqlar və əməliyyatlar ..... 125
19. Vergilər üzrə kreditor borcları ..... 127
20. Mənfəət vergisi ..... 127
21. Digər əməliyyat gəlirləri ..... 129
22. Birgə müəssisəyə investisiya ..... 129
23. Maliyyə risklərinin idarə edilməsi ..... 130
24. Maliyyə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər ..... 135
25. Potensial öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri ..... 136
26. Hesabat tarixindən sonra baş vermiş hadisələr ..... 138

## Müstəqil Auditorun Hesabatın

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin
Rəhbərliyinə və Müşahidə Şurasına

***Rəy***

Biz "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan və konsolidasiya edilmiş maliyyə hesabatlarına dair qeydlərdən, habelə mühüm mühasibat uçotu prinsiplərindən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2023-cü il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının ("MBESŞ") "Peşəkar mühasiblərin etika məcəlləsi"nə (Beynəlxalq Müstəqillik Standartları daxil olmaqla) ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Qrupdan müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Əsas audit məsələləri***

Əsas audit məsələləri peşəkar mühakiməmizə uyğun olaraq cari dövrün konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üçün ən önəmli olan məsələlərdir. Həmin məsələlər ümumilikdə konsolidasiya edilmiş maliyyə hesabatlarının tərəfimizdən aparılan auditi kontekstində və həmin hesabatlar üzrə rəyimiz formalaşdığı zaman nəzərdən keçirilmişdir və biz bu məsələlərə dair ayrıca rəy bildirmirik. Aşağıda göstərilən məsələlərin hər birinin audit zamanı hansı şəkildə nəzərdən keçirildiyi həmin kontekstdə təsvir olunur.

Biz hesabatımızın "Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir olunan öhdəliklərimizi, o cümlədən həmin məsələlərlə bağlı olan öhdəlikləri yerinə yetirdik. Müvafiq olaraq, apardığımız audit konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərinin tərəfimizdən qiymətləndirilməsinə cavab verəcək prosedurların yerinə yetirilməsini əhatə edirdi. Audit prosedurlarımızın, o cümlədən aşağıdakı məsələlərin nəzərdən keçirilməsi üçün yerinə yetirilmiş prosedurların nəticələri əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları üzrə audit rəyimizin əsasını təşkil edir.

| Əsas audit məsələsi | Apardığımız audit nəticəsində əsas audit məsələsinin həlli |
|---|---|
| *Gəlirlərin tanınması* | |
| Gəlirlərin məbləği konsolidasiya edilmiş maliyyə hesabatları üçün çox əhəmiyyətli olduğundan biz gəlirlərin tanınması məsələsini apardığımız audit üçün ən vacib məsələlərdən biri hesab etdik. Bundan əlavə, əməliyyatların əhəmiyyətli həcmi və müxtəlif gəlir mənbələrinin sayını nəzərə alaraq gəlirlərin tanınması mürəkkəb prosesdir.<br><br>Gəlirlər haqqında məlumatlar konsolidasiya edilmiş maliyyə hesabatlarına dair 2-ci və 16-cı Qeydlərdə açıqlanır. | Biz gəlirlərin tanınması ilə bağlı Qrupun uçot siyasətini təhlil etdik və Qrupun gəlir mənbələri barədə anlayış əldə etdik.<br><br>Taym-çarterlər üçün, biz seçmə üsulu əsasında təhvil-təslim aktlarında göstərilən günlərin sayını xidmət müqavilələrində göstərilən tariflərə vuraraq gəlirləri yenidən hesabladıq və məbləği Qrup tərəfindən tanınmış məbləğlə müqayisə etdik.<br><br>Reys çarterləri üçün, biz seçmə üsulu əsasında konosamentdə göstərilən yük daşıma tariflərini yüklərin çəkisinə vuraraq gəlirləri yenidən hesabladıq və nəticələri Qrup tərəfindən tanınmış gəlir məbləği ilə müqayisə etdik.<br><br>Seçmə üsulu əsasında müştərilərdən debitor borcları qalıqlarına dair təsdiqlər əldə etdik.<br><br>Biz konsolidasiya edilmiş maliyyə hesabatlarına dair qeydlərdə gəlirlərin açıqlanmasını təhlil etdik. |

| Əsas audit məsələsi | Apardığımız audit nəticəsində əsas audit məsələsinin həlli |
|---|---|
| *Uzunmüddətli aktivlərin dəyərsizləşməsi göstəricilərinin qiymətləndirilməsi* | |
| 31 dekabr 2023-cü il tarixinə uzunmüddətli aktivlərin əhəmiyyətli olduğuna və dəyərsizləşmə göstəricilərinin təhlilində istifadə edilmiş ehtimallarla bağlı rəhbərliyin mühakimələri və hesablamalarının subyektivliyinə görə bu məsələni apardığımız audit üçün ən vacib məsələlərdən biri hesab etdik.<br>Dəyərsizləşmə göstəricilərinin təhlilində istifadə edilən əhəmiyyətli fərziyyələrə gələcək kapital tələbləri, əməliyyat nəticələri, habelə istifadə edilən diskont dərəcəsi daxildir.<br>Rəhbərlik dəyərsizləşmə göstəriciləri üzrə təhlil aparmış və 31 dekabr 2023-cü il tarixinə uzunmüddətli aktivlərin dəyərsizləşməsinə səbəb olan hər hansı xarici və ya daxili amilləri müəyyən etməmişdir.<br>Uzunmüddətli aktivlərin dəyərsizləşmə göstəricilərinin təhlilinə dair məlumatlar konsolidasiya edilmiş maliyyə hesabatlarına dair 3-cü Qeyddə açıqlanmışdır. | Biz uzunmüddətli aktivlərin potensial dəyərsizləşməsi göstəricilərinin olub-olmaması üzrə rəhbərliyin qiymətləndirməsini təhlil etdik.<br>Biz mövcud məlumatları təhlil etdik və aktivlərin dəyərinin əhəmiyyətli dərəcədə azalmasının müşahidə edilə bilən göstəricilərinin olub-olmamasını qiymətləndirdik.<br>Biz il ərzində Qrupa mənfi təsir göstərən əhəmiyyətli təsirlərin olub-olmamasını qiymətləndirdik. Xüsusilə, biz hər hansı kənarlaşmaları aşkar etmək üçün Qrupun faktiki fəaliyyət nəticələrini planlaşdırılmış əməliyyat nəticələri ilə müqayisə etdik.<br>Biz dövr ərzində bazar faiz dərəcələri və Qrupun cari kapitalının orta qiymətində artımın olub-olmamasını qiymətləndirdik.<br>Biz aktivlərin fiziki zədələnməsinə dair mövcud əsasları araşdırdıq. Əhəmiyyətli gecikmələr və ya kənarlaşmaları müəyyən etmək üçün biz Qrup tərəfindən çəkilmiş faktiki əsaslı xərcləri planlaşdırılmış əsaslı xərclərlə müqayisə etdik.<br>Biz həmçinin konsolidasiya edilmiş maliyyə hesabatlarında Qrupun dəyərsizləşmə təhlili haqqında açıqlamasını təhlil etdik. |

***Qrupun 2023-cü il üzrə İllik Hesabatına daxil edilən digər məlumatlar***

Digər məlumatlar konsolidasiya edilmiş maliyyə hesabatları və konsolidasiya edilmiş maliyyə hesabatları üzrə auditorun hesabatı istisna olmaqla, Qrupun 2023-cü il üzrə İllik Hesabatına daxil edilmiş məlumatlardan ibarətdir. Rəhbərlik digər məlumatlara görə məsuliyyət daşıyır. Qrupun 2023-cü il üzrə İllik Hesabatının hazırkı auditor hesabatının tarixindən sonra bizə təqdim edilməsi gözlənilir.

Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə rəyimiz digər məlumatları əhatə etmir və biz həmin məlumatlara dair hər hansı formada əminlik ifadə edən heç bir nəticə təqdim etmirik.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının tərəfimizdən aparılan auditi ilə əlaqədar bizim vəzifəmiz əldə edildiyi zaman yuxarıda göstərilən digər məlumatlarla tanış olmaq və digər məlumatla konsolidasiya edilmiş maliyyə hesabatları və ya audit zamanı əldə etdiyimiz məlumat arasında əhəmiyyətli uyğunsuzluğun olub-olmadığını və ya digər məlumatlarda əhəmiyyətli təhrifin mövcud olub-olmadığını yoxlamaqdır.

***Konsolidasiya edilmiş maliyyə hesabatları üçün rəhbərliyin və Audit Komitəsinin məsuliyyəti***

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarətə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Qrupu ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətlə bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit Komitəsi Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti***

Bizim məqsədimiz ümumiyyətlə konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürülməklə hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Saxtakarlıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki saxtakarlığa gizli sözləşmə, aldatma, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər;
- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Qrupun daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük;
- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk;

- Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gələcəyimiz halda, biz auditor hesabatımızda konsolidasiya edilmiş maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Bizim nəticələr audit hesabatımızın tarixinədək əldə etdiyimiz audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və ya şəraitlər Qrup daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmununu, eləcə də konsolidasiya edilmiş maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk;
- Konsolidasiya edilmiş maliyyə hesabatları haqqında rəy bildirmək üçün Qrupa daxil olan müəssisələrin maliyyə məlumatları və fəaliyyəti ilə bağlı kifayət qədər audit sübutlarını əldə edirik. Biz qrup auditinin yönləndirilməsi, nəzarət edilməsi və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz audit rəyinə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə hər hansı əhəmiyyətli çatışmazlıqları tərəfimizdən müəyyən olunduğu halda Audit Komitəsinin nəzərinə çatdırmalıyıq.

Bundan əlavə biz Audit Komitəsinə müstəqilliklə bağlı müvafiq etik tələblərə riayət etdiyimiz barədə, eləcə də müstəqilliyimizə təsir göstərə bilməsi əsaslı olaraq ehtimal edilə bilən bütün münasibətlər və digər məsələlər və tələb olunan hallarda təhdidlərin aradan qaldırılması üçün görülən tədbirlər və ya tətbiq edilən ehtiyat tədbirləri haqqında xəbər verdiyimiz barədə bəyanat təqdim edirik.

Audit Komitəsinə təqdim edilmiş məsələlərdən biz cari dövrün konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üçün daha önəmli olan və beləliklə də əsas audit məsələlərini təşkil edən məsələləri müəyyən edirik. Tətbiq edilən qanun və ya normativ aktlar belə məsələlərin açıqlanmasına yol vermədiyi və ya, müəyyən məsələnin auditor hesabatına daxil edilərsə, belə daxil etmənin mənfi nəticələrinin həmin məlumatın açıqlanmasından əldə edilən ictimai faydanı üstələyəcəyini müəyyən etdiyimiz çox nadir hallar istisna olmaqla, biz bu məsələləri auditor hesabatında təsvir edirik.

Bu müstəqil auditorun hesabatının təqdim edilməsi ilə nəticələnən auditə görə məsuliyyətli partnyor Nərgiz Kərimovadır.

*Ernst & Young Holdings (CIS) B.V.*

15 may 2024-cü il

Bakı, Azərbaycan

**Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat**

**31 dekabr 2023-cü il tarixinə**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 6 | 278,314 | 34,353 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 6 | 259 | 406 |
| Ticarət və digər debitor borcları | 7 | 93,766 | 232,597 |
| Vergilər üzrə debitor borcları | 8 | 9,543 | 10,187 |
| Mənfəət vergisi üzrə debitor borcları | 20 | 5,221 | – |
| Qısamüddətli avans ödənişləri | 9 | 8,000 | 6,558 |
| Mal-material ehtiyatları | 10 | 43,588 | 36,413 |
| **Cəmi cari aktivlər** | | **438,691** | **320,514** |
| **Uzunmüddətli aktivlər** | | | |
| Gəmilər, əsas vəsaitlər | 13 | 965,287 | 964,264 |
| Birgə müəssisəyə investisiyalar | 22 | 190,055 | – |
| Qeyri-maddi aktivlər | | 5,004 | 4,566 |
| İstifadə hüququ olan aktivlər | 14 | – | 9,153 |
| Ticarət və digər debitor borclarının uzunmüddətli hissəsi | 7 | 110,591 | – |
| Uzunmüddətli avans ödənişləri | 9 | 33,911 | 36,919 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **1,304,848** | **1,014,902** |
| **Cəmi aktivlər** | | **1,743,539** | **1,335,416** |
| **Kapital** | | | |
| Səhm kapitalı | 15 | 440,051 | 440,051 |
| Əlavə ödənilmiş kapital | 15 | 361,100 | 129,100 |
| Bölüşdürülməmiş mənfəət | | 635,281 | 604,539 |
| **Cəmi kapital** | | **1,436,432** | **1,173,690** |
| **Öhdəliklər** | | | |
| **Cari öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borcları | 11 | 28,910 | 37,900 |
| Digər vergilər üzrə kreditor borcları | 19 | 44,931 | 38,008 |
| Mənfəət vergisi üzrə kreditor borcları | 20 | – | 11,102 |
| Qısamüddətli və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | 12 | 7,848 | 4,499 |
| İcarə öhdəlikləri | 14 | – | 2,594 |
| Müqavilə öhdəlikləri | | 17,616 | 16,662 |
| **Cəmi cari öhdəliklər** | | **99,305** | **110,765** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 20 | 33,407 | 34,123 |
| Uzunmüddətli borc öhdəliklərinin uzunmüddətli hissəsi | 12 | 169,490 | 4,235 |
| İcarə öhdəlikləri | 14 | – | 7,797 |
| Digər uzunmüddətli öhdəliklər | 11 | 4,905 | 4,806 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **207,802** | **50,961** |
| **Cəmi öhdəliklər** | | **307,107** | **161,726** |
| **Cəmi kapital və öhdəliklər** | | **1,743,539** | **1,335,416** |

15 may 2024-cü il tarixində konsolidasiya edilmiş maliyyə hesabatlarını Qrupun adından imzalayan və buraxılmasına icazə verənlər:

Cənab Rauf Vəliyev
Sədr

Cənab Cəlal Fərəcli
İqtisadi məsələlər üzrə sədr müavini

*Əlavə edilən qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.*

**Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat**

**31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 2023-cü il | 2022-ci il |
|---|---|---|---|
| Gəlirlər | 16 | 524,195 | 570,071 |
| Satışların maya dəyəri | 17 | (375,113) | (369,444) |
| **Ümumi mənfəət** | | **149,082** | **200,627** |
| Ümumi və inzibati xərclər | 17 | (60,921) | (52,159) |
| Sosial xərclər | 17 | (9,506) | (8,575) |
| Digər əməliyyat gəliri | 21 | 50,490 | 32,827 |
| Digər əməliyyat xərcləri | 17 | (67,259) | (70,172) |
| Gözlənilən kredit zərərləri (“GKZ”) | 17 | (1,050) | (8,249) |
| Gəmilərin, əsas vəsaitlərin, qeyri-maddi aktivlərin silinməsindən gəlir/(zərər) | | 74 | (175) |
| Məzənnə fərqindən zərər | | (1,688) | (829) |
| **Əməliyyat mənfəəti** | | **59,222** | **93,295** |
| Maliyyə xərcləri | | (9,621) | (1,222) |
| Birgə müəssisələrin nəticəsində pay | | 6,761 | – |
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | | **56,362** | **92,073** |
| Mənfəət vergisi xərci | 20 | (12,677) | (26,632) |
| **İl üzrə mənfəət** | | **43,685** | **65,441** |
| İl üzrə digər ümumi gəlir | | – | – |
| **İl üzrə cəmi ümumi gəlir** | | **43,685** | **65,441** |

*Əlavə edilən qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.*

**Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat**

**31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Səhm kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə qalıq** | **440,051** | **99,100** | **549,098** | **1,088,249** |
| İl üzrə cəmi ümumi gəlir | – | – | 65,441 | **65,441** |
| Əlavə ödənilmiş kapitalda artım (Qeyd 15) | – | 30,000 | – | **30,000** |
| Dividendlər (Qeyd 15) | – | – | (10,000) | **(10,000)** |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **440,051** | **129,100** | **604,539** | **1,173,690** |
| İl üzrə cəmi ümumi gəlir | – | – | 43,685 | **43,685** |
| Əlavə ödənilmiş kapitalda artım (Qeyd 15) | – | 232,000 | – | **232,000** |
| Ümumi nəzarət altında olan müəssisədən ticarət debitor borclarında dəyişikliyin təsiri (Qeyd 7) | – | – | (12,943) | **(12,943)** |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **440,051** | **361,100** | **635,281** | **1,436,432** |

*Əlavə edilən qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.*

## Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat

## 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 2023-cü il | 2022-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 56,362 | 92,073 |
| *Aşağıdakılar üzrə düzəlişlər* | | | |
| Gəmilərin, əsas vəsaitlərin və istifadə hüququ olan aktivlərin köhnəlməsi | 13 | 87,275 | 96,174 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 17 | 899 | 887 |
| GKZ | 17 | 1,050 | 8,249 |
| Mal-material ehtiyatları üzrə ehtiyatın qaytarılması | 17 | (2,086) | (1,282) |
| Məzənnə fərqi | | 781 | 776 |
| Gəmilərin, əsas vəsaitlərin və qeyri-maddi aktivlərin silinməsindən zərər | | 73 | 175 |
| Əlverişli satınalma üzrə gəlir | 22 | (13,294) | – |
| İcarənin xitamından gəlir | 14 | (1,238) | – |
| Maliyyə xərcləri | | 9,621 | 1,222 |
| Birgə müəssisənin nəticəsində pay | | (6,761) | – |
| Ticarət və digər debitor borclarının silinməsi | | 885 | – |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **133,567** | **198,274** |
| Ticarət və digər debitor borclarında azalma | | 10,233 | 2,435 |
| Mal-material ehtiyatlarında azalma/(artım) | | (5,089) | 10,783 |
| Avans ödənişlərində azalma/(artım) | | (1,442) | 7,044 |
| Vergilər üzrə debitor borclarında azalma | | 644 | 4,483 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitlərində azalma/ (artım) | | 147 | (308) |
| Ticarət və digər kreditor borclarında azalma | | (8,956) | (2,510) |
| Digər uzunmüddətli öhdəliklərdə (azalma) /artım | | 99 | (770) |
| Müqavilə öhdəliklərində artım | | 953 | 7,964 |
| Vergilər üzrə kreditor borclarında (azalma)/artım | | 6,923 | (13,492) |
| **Əməliyyat fəaliyyətindən əldə edilmiş pul vəsaitləri** | | **137,079** | **213,903** |
| Ödənilmiş mənfəət vergisi | 19, 20 | (26,480) | (13,128) |
| Ödənilmiş faizlər | | (310) | (854) |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | | **110,289** | **199,921** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Gəmilərin, əsas vəsaitlərin alınması | | (87,104) | (173,548) |
| Qeyri-maddi aktivlərin alınması | | (1,005) | (577) |
| Birgə müəssisəyə investisiyalar | 22 | (170,000) | – |
| **İnvestisiya fəaliyyətində istifadə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **(258,109)** | **(174,125)** |
| **Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Uzunmüddətli kreditlərin ödənilməsi | 12 | (4,235) | (4,235) |
| Səhmdara ödənilmiş dividend | | – | (10,000) |
| İstiqrazlar üzrə faizin ödənilməsi | | (5,100) | – |
| İstiqrazlardan daxilolmalar | | 170,000 | – |
| Əlavə ödənilmiş kapitalda artım | 15 | 232,000 | 30,000 |
| İcarə öhdəliyi üzrə ödəniş | | – | (12,633) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə əldə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **392,665** | **3,132** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım** | | **244,845** | **28,928** |
| Xalis məzənnə fərqi | | (884) | (887) |
| İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 6 | 34,353 | 6,312 |
| **İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | | **278,314** | **34,353** |

*Əlavə edilən qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.*

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 1. Qrup və onun əməliyyatları

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti (“Şirkət”) Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında 22 oktyabr 2013-cü il tarixli 6 nömrəli və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında 10 yanvar 2014-cü il tarixli 213 nömrəli Sərəncamlarına əsasən, Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi (“ADXDG”) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (“SOCAR”) Xəzər Dəniz Neft Donanmasının (“XDND”) birləşdirilərək yenidən təşkil olunması yolu ilə yaradılıb. İki şirkət iqtisadiyyatda köklü struktur islahatlarının davam etdirilməsi, dəniz gəmiçiliyi sahəsində yerli və beynəlxalq daşımaların artırılması, Azərbaycanın rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsi, eləcə də dövlətə məxsus gəmiçilik şirkətlərinin mərkəzləşdirilmiş qaydada idarə edilməsindən sinerjilərin əldə edilməsi məqsədilə birləşdirilmişdir.

Şirkət və onun törəmə müəssisələri hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında birlikdə “Qrup” adlandırılır və Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına aşağıdakı müəssisələr daxildir:

| | Kapitalda pay, % | |
|---|---|---|
| **Ad** | **2023-cü il** | **2022-ci il** |
| Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC | 100 | 100 |
| Azərbaycan Dövlət Dəniz Akademiyası | 100 | 100 |
| Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutu | 100 | 100 |
| Azərbaycan Dənizçilik Kolleci | 100 | 100 |
| “Dənizçi” Mənzil-Tikinti Kooperativi MMC | 96 | 96 |
| “ASCO” Logistics MMC | 100 | 100 |
| “ASCO Dry Türkiye İşletmeciliyi” Anonim Şirkəti | 100 | 100 |
| “Yaxt Klub” MMC | 100 | 100 |
| “ASCO Mühafizə” MMC | 100 | 100 |
| “Xəzər Dəniz Gəmiçiliyi” MMC | 100 | 100 |
| “Xəzər Dəniz Mühəndisliyi Bürosu” MMC | 51 | 51 |
| “ASCO Nəqliyyat” MMC | 100 | 100 |
| “Dənizçi təmir-tikinti” MMC | 100 | 100 |
| ASCO Ship Management AFEZCO | 100 | 0 |
| SA Maritime AFEZCO | 50 | 0 |

Qrupun tərkibinə 6,846 nəfər tam ştat işçisi olan dəniz xidməti-köməkçi və ticarət donanmaları, iki gəmi təmiri zavodu, istehsal xidmətləri, eləcə də logistika xidmətləri, dənizçilik üzrə təhsil, təmir, tikinti, quraşdırma və layihələşdirmə işlərini göstərən müəssisələr daxildir. Azərbaycan Respublikasının hökuməti (“Dövlət”) Qrupun 100% mülkiyyətçisidir.

22 fevral 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Şirkətin sədri və dörd üzvdən ibarət Müşahidə şurasının tərkibinin təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır.

3 may 2023-cü il və 22 may 2023-cü il tarixlərində yeni müəssisələr - müvafiq olaraq SA Maritime AFEZCO və ASCO Ship Management AFEZCO yaradılmışdır.

SA Maritime AFEZCO Qrup və SOCAR-a məxsus birgə müəssisədir, hər bir tərəfin şirkətdəki payı 50% təşkil edir. Qrup birgə müəssisənin nizamnamə kapitalına 100 milyon ABŞ dolları investisiya qoymuşdur. Birgə müəssisə xaricdə kommersiya fəaliyyəti ilə məşğul olmaq məqsədilə yaradılmış və Xəzərdən kənar hövzələrdə fəaliyyət göstərmək məqsədilə 3 ədəd “Aframax” tipli gəmi almışdır.

ASCO Ship Management AFEZCO nizamnamə kapitalı 100 min ABŞ dolları olan Qrupun 100%-lik törəmə müəssisəsidir. Bu müəssisə SA Maritime AFEZCO tərəfindən alınmış 3 yeni gəminin əməliyyatları üzərində idarəetmə fəaliyyəti ilə məşğuldur.

Qrupun rəsmi ünvanı: Azərbaycan, Bakı, Neftçilər prospekti 2.

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri

### Maliyyə hesabatlarının hazırlanmasının əsası

Qrupun hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotunun Standartları Komitəsinin ("BMUSK") buraxdığı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmışdır. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilən əsas mühasibat uçotu prinsipləri aşağıda təqdim olunur. Həmin prinsiplər təqdim olunmuş bütün dövrlərə ardıcıl qaydada tətbiq edilmişdir. Xüsusi göstərilmiş hallar istisna olmaqla hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında bütün məbləğlər min Azərbaycan Manatı ("AZN") ilə təqdim edilir.

Qrup maliyyə hesabatlarını fəaliyyətinin fasiləsizliyi prinsipi əsasında hazırlamışdır.

### Konsolidasiyanın əsası

Konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2023-cü il tarixinə Şirkətin və onun törəmə müəssisələrinin maliyyə hesabatlarından ibarətdir.

Törəmə müəssisələr Qrupun fəaliyyətindən fayda əldə etmək məqsədilə maliyyə və əməliyyat siyasətlərini idarə etməkdən ibarət nəzarəti olan və səsvermə hüquqlarının yarısından çox iştirak payına sahib olan bütün müəssisələrdir. Xüsusilə, Qrup investisiya obyektinə yalnız və yalnız o halda nəzarət edir ki, Qrup:

- İnvestisiya obyekti üzrə nəzarət hüququna malik olsun (yəni mövcud olan səsvermə hüquqları hazırda investisiya obyektinin müvafiq fəaliyyətini idarə etmək imkanını versin);
- İnvestisiya obyektində iştirakla bağlı risk və ya dəyişən gəlirlər əldə etmək hüququna malik olsun;
- Gəlirlərə təsir göstərmək üçün investisiya obyekti üzrə nəzarəti istifadə etmək imkanına malik olsun.

Qrup investisiya obyekti üzrə nəzarət hüququnun olub-olmadığını o halda yenidən qiymətləndirir ki, fakt və şəraitlər üç nəzarət elementindən bir və ya bir neçəsində dəyişiklik əlamətinin olduğunu göstərsin. Törəmə müəssisənin konsolidasiyası Qrup törəmə müəssisə üzərində nəzarət əldə edəndə başlayır və Qrup törəmə müəssisə üzrə nəzarəti itirəndə başa çatır. Törəmə müəssisənin il ərzində əldə edilmiş və ya silinmiş aktivləri, öhdəlikləri, gəlir və xərcləri Qrupun onun üzərində nəzarəti əldə etdiyi tarixdən başlayaraq və həmin nəzarətin başa çatdığı tarixədək konsolidasiya edilmiş maliyyə hesabatlarına daxil edilir.

Lazım olduqda, istifadə edilən uçot siyasətinin Qrupun qəbul etdiyi uçot siyasətinə uyğun olması üçün törəmə müəssisələrin maliyyə hesabatlarına düzəlişlər edilir. Qrupun üzvləri arasında olan əməliyyatlarla əlaqədar bütün qrupdaxili aktivlər və öhdəliklər, kapital, gəlir, xərc və pul vəsaitlərinin hərəkəti konsolidasiya zamanı bütünlüklə silinir.

Törəmə müəssisənin mülkiyyət payında nəzarətin itirilməsi ilə nəticələnməyən dəyişiklik kapital əməliyyatı kimi uçota alınır.

Qrup törəmə müəssisə üzərində nəzarət hüququnu itirirsə, bu zaman o, əlaqəli aktivlərin (o cümlədən qudvilin), öhdəliklərin, qeyri-nəzarət iştirak payının və kapitalın digər komponentlərinin tanınmasını dayandırır; nəticədə əldə edilən gəlir və ya zərər mənfəət və ya zərərdə tanınır. Qalan investisiyalar ədalətli dəyərlə tanınır.

### Cari və uzunmüddətli təsnifat

Qrup konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifat əsasında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv kimi təsnif edilir:

- Normal əməliyyat dövründə satılması gözlənilir və ya satılması və ya istifadəsi planlaşdırılır;
- Əsasən ticarət məqsədləri üçün saxlanılır;
- Hesabat tarixindən on iki ay sonra reallaşdırılması gözlənilir; və ya
- Hesabat tarixindən sonra ən azı on iki ay ərzində öhdəliyi ödəmək üçün mübadiləsi və ya istifadəsi məhdudlaşdırıldığı hallar istisna olmaqla pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentidir.

Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi təsnif edilir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

### Cari və uzunmüddətli təsnifat (davamı)

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik kimi təsnif edilir:

- Normal əməliyyat dövründə ödənilməsi gözlənilir;
- Əsasən ticarət məqsədləri üçün saxlanılır;
- Hesabat tarixindən sonra on iki ay ərzində ödənilməlidir; və ya
- Hesabat tarixindən sonra ən azından on iki ay ərzində öhdəliyin ödənilməsini təxirə salmaq üçün şərtsiz hüquq yoxdur.

Qrup bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər kimi təsnif edir.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

### Müəssisələrin birləşməsi

Müəssisələrin birləşməsi alış metodunu tətbiq etməklə uçota alınır. Alışın dəyəri alış tarixində ədalətli dəyərlə ölçülən köçürülmüş ödəniş məbləğinin və əldə edilən müəssisədə qeyri-nəzarət payının cəmi kimi ölçülür. Müəssisələrin birləşməsi üçün alıcı əldə edilən müəssisədə qeyri-nəzarət iştirak payını ədalətli dəyərlə, yaxud da əldə edilən müəssisənin müəyyən edilə bilən xalis aktivlərindəki payına proporsional olaraq qiymətləndirir. Çəkilmiş alış məsrəfləri xərclərə silinir və inzibati xərclərə daxil edilir. Qrup hər hansı müəssisəni satın aldıqda, münasib təsnifləşdirmə və təyin etmə məqsədilə maliyyə aktivlərini və öhdəliklərini müqavilə şərtləri, iqtisadi şərait, alış tarixində mövcud olan digər uyğun şərtlər əsasında qiymətləndirməlidir. Buna əldə edilən müəssisə tərəfindən əlaqədar törəmə alətlərin əsas müqavilədə ayrılması da aid edilir.

Müəssisələrin mərhələlərlə birləşdirilməsi zamanı alıcı müəssisənin satın alınan müəssisədə əvvəllər mövcud olan iştirak payı alış tarixində ədalətli dəyərlə yenidən ölçülür və nəticədə yaranan gəlir və ya zərər müvafiq olaraq mənfəət və ya zərərdə tanınır.

*Ümumi nəzarət altında olan müəssisələrlə birləşmələr*

Ümumi nəzarət altında olan müəssisələrlə birləşmələrə Qrup mühasibat uçotunun alış metodunu tətbiq edir.

### Birgə müəssisəyə investisiya

Birgə müəssisə (“BM”) birgə nəzarəti həyata keçirən tərəflərin birgə müəssisənin xalis aktivləri üzrə hüquq əldə etdikləri müqavilə razılaşmasıdır. Müqavilə ilə razılaşdırılmış birgə nəzarət yalnız müvafiq fəaliyyətlə əlaqədar qərarların qəbul edilməsi üçün birgə nəzarəti həyata keçirən tərəflərin birgə razılığı tələb edildikdə mövcud olur.

Əhəmiyyətli dərəcədə təsir və ya birgə nəzarətin olub-olmadığı müəyyən edilərkən istifadə edilən amillər törəmə müəssisələr üzrə nəzarətin müəyyən edilməsində istifadə edilən amillər ilə oxşardır.

Qrupun birgə müəssisələrə investisiyaları pay iştirakı üzrə kapital metoduna əsasən uçota alınır. Pay iştirakı üzrə kapital metoduna əsasən birgə müəssisədə investisiya ilkin olaraq maya dəyəri ilə tanınır. Alış tarixindən sonra birgə müəssisənin xalis aktivlərində Qrupun payındakı dəyişiklikləri tanımaq üçün investisiyanın balans dəyərində düzəlişlər edilir. Birgə müəssisəyə aid olan qudvil investisiyanın balans dəyərinə daxil edilir, amortizasiyaya silinmir və fərdi şəkildə dəyərsizləşmə baxımından yoxlanılmır. Konsolidasiya edilmiş mənfəət və ya zərər haqqında hesabat Qrupun birgə müəssisənin əməliyyatlarında payını əks etdirir. Həmin investisiya obyektlərinin digər ümumi gəlirində hər hansı dəyişiklik Qrupun digər ümumi gəlirinin tərkibində təqdim edilir. Birgə müəssisənin kapitalında birbaşa tanınmış payın satışından hər hansı gəlir və ya zərər Qrupun birgə müəssisənin mənfəət və ya zərərindəki payı daxilində gəlir və ya zərər kimi əks etdirilir. Qrup ilə birgə müəssisələr arasında əməliyyatlardan irəli gələn gəlirlər və zərərlər müstəqil investorların birgə müəssisədəki payın nisbətində tanınır. Birgə müəssisənin mənfəət və ya zərərində Qrupun payı konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatın özündə əməliyyat mənfəətindən kənar təqdim edilir və birgə müəssisələrin vergidən sonra mənfəət və ya zərərini və törəmə müəssisələrdə qeyri-nəzarət paylarını əks etdirir.

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

**Birgə müəssisəyə investisiya (davamı)**

Birgə müəssisənin maliyyə hesabatları Qrupda olduğu kimi eyni hesabat dövrü üçün hazırlanır. Lazım olduqda, istifadə edilən uçot siyasətinin Qrupun qəbul etdiyi uçot siyasətinə uyğun olması üçün həmin maliyyə hesabatlarına düzəlişlər edilir.

Pay iştirakı üzrə kapital metodu tətbiq edildikdən sonra, Qrup birgə müəssisəyə investisiya üzrə dəyərsizləşmə zərəri tanınmalı olub-olmadığını müəyyən edir. Hər hesabat tarixində Qrup birgə müəssisəyə investisiyanın dəyərsizləşməsinə dair obyektiv sübutun olub-olmadığını müəyyən edir. Belə sübut olarsa, Qrup dəyərsizləşmənin məbləğini birgə müəssisənin bərpa oluna bilən dəyəri və onun balans dəyəri arasındakı fərq kimi hesablayır, sonra isə zərəri konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda "Sair əməliyyat xərcləri"nin tərkibində tanıyır. Birgə müəssisə üzrə müvafiq olaraq əhəmiyyətli dərəcədə olan təsir və birgə nəzarət itirildikdən sonra Qrup qalan investisiyanı ədalətli dəyərlə ölçür və tanıyır. Əhəmiyyətli dərəcədə təsir və birgə nəzarət itirildikdən sonra birgə müəssisənin balans dəyəri ilə qalan investisiyanın ədalətli dəyəri və satışdan daxilolmalar arasında hər hansı fərq mənfəət və ya zərərdə tanınır.

**Xarici valyutanın çevrilməsi**

Şirkətin və onun törəmə müəssisələrinin funksional valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatıdır (AZN), çünki Qrupun gəlirləri, xərcləri, alınmış mal-material ehtiyatları və öhdəliklərinin əhəmiyyətli hissəsinin qiymətləndirilməsi, çəkilməsi, ödənilməsi və ya digər yolla ölçülməsi AZN ilə həyata keçirilir.

Qrupun müəssisələrinin Qrupun funksional valyutasından fərqli olan valyutalarla aparılan və Qrupun funksional valyutası ilə ölçülməmiş əməliyyatları aşağıdakı şəkildə çevrilir:

- Qrupun müvafiq müəssisəsinin funksional valyutası ilə ölçülməyən monetar aktiv və öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatın tarixinə qüvvədə olan yekun məzənnəyə əsasən həmin müəssisənin funksional valyutasına çevrilir;
- Hər bir mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat üzrə gəlir və xərclər orta məzənnə ilə yenidən qiymətləndirilir (həmin orta məzənnə əməliyyat tarixinə məzənnələrin məcmu təsirinə əsaslı şəkildə yaxın olmadıqda, gəlir və xərclər əməliyyat tarixinə qüvvədə olan məzənnə ilə çevrilir).

Qrupun müvafiq müəssisələrinin funksional valyutalarında yenidən ölçülmə nəticəsində yaranan məzənnə gəlir və zərərləri konsolidasiya edilmiş mənfəət və ya zərər hesabatında tanınır.

31 dekabr 2023-cü il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə edilən əsas valyuta məzənnələri: 1 ABŞ dolları = 1.7000 AZN, 1 Avro = 1.8766 AZN, 1 RUB = 0.0188 AZN, 1 Türk lirəsi = 0.0576 AZN (31 dekabr 2022-ci il: 1 ABŞ dolları = 1.7000 AZN, 1 Avro = 1.8114 AZN, 1 RUB = 0.0230 AZN, 1 Türk lirəsi = 0.0909 AZN).

**Maliyyə alətləri – əsas qiymətləndirmə üsulları**

Maliyyə aləti bir müəssisənin maliyyə aktivini və digər müəssisənin maliyyə öhdəliyi və ya kapital alətini yaradan müqavilədir.

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərdə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyatlar zamanı aktivin satılmasından alına bilən və ya öhdəliyin köçürülməsinə görə ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- Aktivin və ya öhdəliyin əsas bazarı; və ya
- Əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

### Maliyyə alətləri – əsas qiymətləndirmə üsulları (davamı)

Qrupun əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülür və ehtimal edilir ki, bazar iştirakçıları bu zaman öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər.

Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının, aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya həmin aktivi maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla, iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Qrup mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

Maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktivlər və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

- Səviyyə 1 – Oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda kvotasiya edilmiş (təshih edilməmiş) qiymətləri mövcud olanlar;
- Səviyyə 2 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları;
- Səviyyə 3 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Qrup hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitləri və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə bağlıdır. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri əməliyyat xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üçün ehtiyatı çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

**2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)**

**Maliyyə alətləri – əsas qiymətləndirmə üsulları (davamı)**

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinədək dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilən faiz dərəcəsidir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir. İlkin tanınma zamanı alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş aktivlər üçün effektiv faiz dərəcəsi kredit riski nəzərə alınaraq uyğunlaşdırılır, yəni müqavilə üzrə ödənişlər deyil, ilkin tanınmada gözlənilən pul vəsaitlərinin hərəkətinə əsasən hesablanır.

**Maliyyə aktivləri**

***İlkin tanınma və ölçmə***

Maliyyə aktivləri ilkin tanınmada sonradan amortizasiya hesablanmış dəyərlə, digər ümumi gəlir (DÜG) vasitəsilə ədalətli dəyərlə tanınan aktivlər və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi təsnifləşdirilir.

İlkin tanınmada maliyyə aktivlərinin təsnifatı maliyyə aktivləri üzrə müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin xüsusiyyətlərindən və Qrupun bunları idarə etmək üçün seçdiyi biznes modeldən asılıdır. Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Qrupun praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları istisna olmaqla Qrup ilk öncə maliyyə aktivlərini ədalətli dəyərlə ölçür və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi tanınan aktivlər üçün əməliyyat xərclərini əlavə edir. Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Qrupun praktiki vasitənin tətbiq etdiyi ticarət debitor borcları 15 saylı MHBS əsasında müəyyənləşdirilən əməliyyat qiyməti ilə ölçülür.

Maliyyə aktivinin amortizasiya dəyəri ilə təsnifləşdirilməsi və ölçülməsi üçün qalan əsas məbləğ üzrə yalnız əsas məbləğin və faizlərin ödənilməsini (“YƏMFÖ”) təşkil edən pul vəsaitlərinin hərəkəti yaradılmalıdır. Bu qiymətləndirməyə “YƏMFÖ testi” deyilir və bu, hər bir alət üzrə ayrıca aparılır.

Qrupun maliyyə aktivlərini idarə etmək üçün seçdiyi biznes modeli, onun pul vəsaitlərinin hərəkətini yaratmaq məqsədilə maliyyə aktivlərinin idarəedilməsi metodunu təsvir edir. Başqa sözlə, Qrupun biznes modeli pul vəsaitlərinin hərəkətinin müqavilədən, maliyyə aktivlərinin satışından və ya onların hər ikisindən yaranacağını müəyyən edir.

Qanunvericiliklə və ya bazar razılaşmaları ilə ümumi şəkildə müəyyən edilmiş müddət ərzində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alınması və ya satılması əməliyyatları alqı-satqı tarixində, yəni Qrup aktivi almaq və ya satmaq öhdəliyini üzərinə götürdüyü tarixdə tanınır.

***Sonrakı ölçülmə***

Sonrakı ölçülmə məqsədilə maliyyə aktivləri 4 kateqoriyaya təsnifləşdirilir:

- Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Məcmu gəlirləri və zərərləri yenidən bölüşdürməklə DÜG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Uçotdan çıxarılanda məcmu gəlirləri və zərərləri yenidən bölüşdürmədən DÜG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri);
- Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivləri.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

**Maliyyə aktivləri (davamı)**

*Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri)*

Bu kateqoriya Qrupa daha uyğundur. Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Qrup maliyyə aktivini amortizasiya olunmuş dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı müqavilə üzrə pul vəsaitlərini toplamaq məqsədilə saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə yalnız qalan əsas məbləğ və faiz ödənişlərindən (YƏMFÖ) ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri sonradan Effektiv Faiz Dərəcəsi (EFD) metodundan istifadə etməklə ölçülür və dəyərsizləşmə hesablanır. Gəlir və zərərlər mənfəət və ya zərərdə aktiv uçotdan çıxarılanda, dəyişiklik ediləndə və ya dəyərsizləşəndə tanınır.

Qrupun amortizasiya hesablanmış dəyərlə maliyyə aktivlərinə ticarət debitor borcları daxildir.

Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Qrup borc alətlərini DÜG ilə ədalətli dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı həm müqavilə üzrə pul vəsaitlərini toplamaq, həm də satılmaq məqsədilə saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

DÜG ilə ədalətli dəyərlə borc alətləri üçün faiz gəliri, xarici valyutanın yenidən qiymətləndirilməsi və dəyərsizləşmə zərərləri və ya qaytarmalar konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda tanınır və amortizasiya hesablanmış dəyərlə maliyyə aktivləri ilə eyni qaydada hesablanır. Ədalətli dəyərdə qalan dəyişikliklər DÜG ilə tanınır. Uçotdan çıxarılanda DÜG-də tanınmış məcmu ədalətli dəyərdə dəyişiklik mənfəət və ya zərərə yenidən bölüşdürülür.

Qrupun DÜG ilə ədalətli dəyərlə borc alətləri mövcud deyil.

*DÜG ilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri)*

İlkin tanınmada Qrup 32 saylı *“Maliyyə alətləri: Təqdimatı”* adlı MUBS əsasında kapital tərifinə uyğun olan bəzi kapital investisiyalarını ticarət üçün saxlanılan alətlər kimi deyil, kapital alətləri kimi təsnif etmək üçün yekun seçim edə bilər. Belə təsnifat alətlər üzrə fərdi şəkildə müəyyən edilir.

Bu kapital alətləri üzrə gəlir və zərərlər heç zaman mənfəət və ya zərərə aid edilmir. Ödəmə hüququ müəyyən ediləndə, dividendlər konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda digər gəlir kimi tanınır. Lakin Qrup alətin dəyərinin bir hissəsinin qaytarılması olan belə daxilolmalardan faydalanırsa, belə gəlirlər DÜG-də tanınır. DÜG vasitəsilə ədalətli dəyərlə kapital alətləri üzrə dəyərsizləşmənin qiymətləndirilməsi aparılmır.

*Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri*

Qrupun saxladığı ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivlərinə ticarət üçün saxlanılan maliyyə aktivləri, ilkin tanınmada ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri və ya ədalətli dəyərlə ölçülməsi mütləq olan aktivlər daxildir. Yaxın zamanda satış və ya yenidən alış məqsədi ilə əldə olunarsa, maliyyə aktivləri ticarət üçün saxlanılan aktivlər kimi təsnif olunur. Effektiv hecinq alətləri kimi təyin olunmayan törəmə alətlər, o cümlədən ayrılmış əlaqədar törəmə alətlər də satış üçün saxlanılan aktivlər kimi təsnif olunur. Yalnız əsas məbləğ və faizlərin ödənilməsini təşkil etməyən pul vəsaitlərinin hərəkətini yaradan maliyyə aktivləri, biznes modeldən asılı olmayaraq, mənfəət və ya zərərdə ədalətli dəyərlə təsnifləşdirilir. Borc alətlərinin amortizasiya hesablanmış dəyərlə və ya DÜG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi üçün yuxarıda təsvir edilən meyarlara baxmayaraq borc alətləri, bununla uçot uyğunsuzluğu aradan qaldırılar və ya əhəmiyyətli dərəcədə azaldılarsa, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri kimi təyin edilə bilər.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

**Maliyyə aktivləri (davamı)**

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərlə tanınır, ədalətli dəyərdə xalis dəyişikliklər isə konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda tanınır.

Hibrid müqavilənin tərkib hissəsi olan, maliyyə öhdəliyini və ya qeyri-maliyyə əsas müqaviləni ehtiva etdirən asılı törəmə alət, aşağıdakı hallarda əsas müqavilədən ayrılır və ayrıca alət kimi uçota alınır: iqtisadi xüsusiyyətlər və risklər əsas müqavilə ilə sıx əlaqəli deyildir, asılı törəmə alətlə eyni şərtləri olan ayrıca alət törəmə alət anlayışına uyğundur və hibrid müqavilə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilməyən alət kimi ölçülmür. Asılı törəmə alətlər ədalətli dəyərlə ölçülür, ədalətli dəyərdə dəyişikliklər mənfəət və ya zərərdə tanınır. Müqavilə əsasında tələb olunacaq pul vəsaitlərinin hərəkətini əhəmiyyətli dərəcədə dəyişən müqavilənin şərtlərində dəyişiklik olanda və ya maliyyə aktivi ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən aktivlər kateqoriyasından xaric yenidən təsnifləşdiriləndə yenidən qiymətləndirmə aparılır.

Maliyyə aktivinə dair əsas müqaviləni ehtiva etdirən hibrid müqavilə daxilində asılı törəmə alət ayrıca uçota alınmır. Maliyyə aktivi, asılı törəmə alətlə birlikdə, tam şəkildə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivi kimi təsnifləşdirilməlidir.

***Uçotdan çıxarma***

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan (yəni Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatından) çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının müddəti başa çatmışdır;
- Qrup özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya üzərinə aktivdən pul vəsaitlərini “tranzit” razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və ya Qrup: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə köçürmüş, nə də özündə saxlamış, lakin aktiv üzrə nəzarət hüququnu köçürmüşdür.

Qrup aktivdən pul vəsaitlərini almaq hüququnu köçürdükdə və ya “tranzit” razılaşmasına qoşulduqda, mülkiyyət hüququ ilə bağlı risk və faydaları saxlayıb-saxlamadığını və nə dərəcədə saxladığını qiymətləndirir. Qrup nə aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş, nə də özündə saxlamışdırsa, nə də aktiv üzrə nəzarət hüququnu köçürmüşdürsə, aktiv Qrupun həmin aktivdə davam edən iştirakı həddində əks etdirilir. Bu halda Qrup əlaqəli öhdəliyi də tanıyır. Köçürülmüş aktiv və əlaqəli öhdəlik Qrupun saxladığı hüquq və öhdəlikləri əks etdirən əsaslarla ölçülür.

Aktivdə iştirakın köçürülmüş aktiv üzrə zəmanət formasında davam etməsi aktivin ilkin balans dəyəri və Qrupdan tələb oluna biləcək maksimal ödəniş məbləğindən daha az olanı ilə ölçülür.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi***

Qrup ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunmayan bütün borc alətləri üçün GKZ üçün ehtiyatı tanıyır. GKZ müqaviləyə uyğun olaraq ödəniləcək müqavilədə nəzərdə tutulan pul vəsailətinin hərəkəti ilə Qrupun alınmasını gözlədiyi bütün pul vəsaitlərinin hərəkəti arasında fərqi ilkin effektiv faiz dərəcəsinə yaxın dərəcə ilə diskontlaşdırmaqla müəyyən edilir.

GKZ iki mərhələdə müəyyən edilir. İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artmayan kredit öhdəlikləri üçün GKZ növbəti 12 aylıq dövr ərzində mümkün olan defolt hadisəsindən irəli gələn kredit zərərləri üçün ayrılır (12 aylıq GKZ). İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artan kredit öhdəlikləri üzrə kredit ehtiyatı aktivin qalan müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə (aktivin müddəti ərzində gözlənilən kredit zərəri və ya AMƏGKZ) əsaslanır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

**Maliyyə aktivləri (davamı)**

Ticarət debitor borcları olmayan maliyyə aktivləri üçün Qrup GKZ-nin hesablanmasına ümumi yanaşmanı tətbiq edir. Ticarət debitor borcları və müqavilə aktivləri üçün Qrup GKZ-nin hesablanmasında sadələşdirilmiş yanaşma tətbiq edir. Beləliklə, Qrup kredit riskində dəyişiklikləri izləmir, əvəzinə hər hesabat tarixində AMƏGKZ əsasında kredit zərərini tanıyır. Qrup debitorlara və iqtisadi mühitə xas olan perspektiv amilləri nəzərə almaqla düzəliş edilmiş Qrupun keçmiş dövrlər üzrə kredit zərəri əsasında ehtiyat matrisasını yaratmışdır.

**Maliyyə öhdəlikləri**

***İlkin tanınma və ölçmə***

Maliyyə öhdəlikləri ilkin tanınma zamanı, müvafiq olaraq, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri, kreditlər və borc öhdəlikləri və ya effektiv hecinqdə hecinq aləti kimi təyin olunmuş törəmə alətləri kimi təsnif edilir.

Maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə tanınır və kreditlər, borclar və kreditor borcları halında birbaşa aid edilən əməliyyat xərcləri çıxılır. Qrupun maliyyə öhdəliklərinə ticarət və digər kreditor borcları, kreditlər və borc öhdəlikləri daxildir.

***Sonrakı ölçmə***

Maliyyə öhdəliklərinin ölçülməsi onların aşağıda göstərilən təsnifatından asılıdır:

*Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri*

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəliklərinə, ticarət üçün saxlanılan maliyyə öhdəlikləri və ilkin tanınmada ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi təyin edilmiş maliyyə öhdəlikləri daxildir.

Maliyyə öhdəlikləri yaxın zamanda geri alınmaq məqsədilə qəbul edilirsə ticarət üçün saxlanılan öhdəliklər kimi təsnifləşdirilir. Bu kateqoriyaya eyni zamanda 9 saylı MHBS-də müəyyən edildiyi qaydada hecinq münasibətlərində hecinq aləti kimi təyin olunmayan törəmə maliyyə alətləri daxildir. Ayrılmış əlaqəli törəmə alətlər də effektiv hecinq aləti kimi təyin edilmədiyi hallarda ticarət üçün saxlanılan alətlər kimi təsnifləşdirilir.

Ticarət üçün saxlanılan öhdəliklər üzrə gəlir və ya zərərlər konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda tanınır.

İlkin tanınma tarixində ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi tanınmış öhdəliklər ilkin tanınma tarixində və yalnız 9 saylı MHBS-də nəzərdə tutulan meyar qarşılananda təyin olunur. Qrup hər hansı maliyyə öhdəliyini ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan öhdəlik kimi təyin etməmişdir.

*Kreditlər, borc öhdəlikləri və kreditor borcları*

Bu kateqoriya Qrup üçün daha uyğundur. İlkin tanınmadan sonra faiz hesablanan kreditlər və borc öhdəlikləri daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir. Gəlirlər və zərərlər mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də amortizasiya prosesi vasitəsilə əks etdirilir. Amortizasiya hesablanmış dəyər satınalma zamanı tətbiq edilən endirimi və ya əlavə qiyməti və effektiv faiz dərəcəsinin ayrılmaz hissəsi olan haqq və xərcləri nəzərə almaqla hesablanır. EFD-nin amortizasiyası konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda maliyyə xərclərinə daxil edilir. Bu kateqoriya faiz hesablanan kreditlərə və borc öhdəliklərinə tətbiq edilir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

**Maliyyə öhdəlikləri (davamı)**

***Tanınmanın dayandırılması***

Maliyyə öhdəliyinin tanınması bu halda dayandırılır ki, həmin öhdəlik ya dayandırılmış, ya ləğv olunmuş, ya da müddəti bitmiş olsun. Əgər mövcud maliyyə öhdəliyi həmin kreditor qarşısında fərqli şərtlərlə başqa öhdəliklə əvəz edilərsə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirilərsə, bu cür əvəzedilmə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq balans dəyərlərindəki fərq konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda öz əksini tapır.

**Maliyyə alətlərinin qarşılıqlı əvəzləşdirilməsi**

Qrup maliyyə aktivləri və maliyyə öhdəliklərinin tanınmış məbləğlərini qarşılıqlı əvəz etmək üçün qanuni hüquqa malik olduğu və ya hesablaşmanı xalis əsasda həyata keçirmək, ya da eyni vaxtda aktivi reallaşdırmaq və öhdəliyi yerinə yetirmək niyyəti olduğu halda, qarşılıqlı əvəzləşdirir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda xalis məbləğ kimi təqdim edir.

**Ticarət və digər debitor borcları**

Ticarət və digər debitor borcları ilk öncə ədalətli dəyərlə tanınır və sonra effektiv faiz metodundan istifadə etməklə, gözlənilən kredit zərərləri üzrə ehtiyatı çıxaraq, amortizasiya hesablanmış dəyərlə ölçülür. Debitor borcları Qrupun müəyyən şərtlərdən asılı olaraq ödəniş almaq hüququndan ibarətdir.

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə kassada olan nağd pul, bank hesablarındakı tələb edilənədək depozitlər və ilkin ödəmə müddəti 3 aydan çox olmayan digər qısamüddətli və yüksək likvidli investisiyalar daxildir.

**Məhdudiyyət qoyulmuş pul vəsaitləri**

Məhdudiyyət qoyulmuş pul vəsaitləri “pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri” kateqoriyasından ayrıca göstərilir. Məhdudiyyət qoyulmuş qalıqlar ƏDV depozit qalığında mövcud olan məbləğdən ibarətdir və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinin tərkibindən çıxarılır.

**Ticarət kreditor borcları**

Ticarət kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı qeydə alınır. Ticarət kreditor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərlə ölçülür.

**Kreditlər**

Bütün kreditlər əvvəlcə kreditlə bağlı emissiya xərcləri çıxılmaqla, əldə edilmiş daxilolmaların ədalətli dəyərində qeydə alınır. Kreditlər effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə uçota alınır.

Gəmilər, əsas vəsaitlərin tikintisini maliyyələşdirmək üçün alınmış kreditlər üzrə faiz xərcləri aktivi istifadəyə yararlı vəziyyətə gətirmək üçün onun tikintisinin tamamlanması və ya hazırlanması üçün tələb olunan dövr ərzində kapitallaşdırılır. Borc öhdəlikləri üzrə digər xərclər mənfəət və ya zərərdə əks etdirilir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

### Gəmilər, əsas vəsaitlər

Tamamlanmamış tikinti, əsas vəsaitlər yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə çıxılmaqla maya dəyəri ilə uçota alınır. Əgər tanınma meyarı qarşılanırsa, bu dəyərə gəmilərin, əsas vəsaitlərin bir hissəsinin əvəzlənməsi xərcləri və uzunmüddətli tikinti layihələri üçün borc öhdəlikləri üzrə məsrəflər daxildir. Gəmilərin və əsas vəsaitlərin mühüm hissələrinin müntəzəm olaraq dəyişdirilməsi tələb olunarsa, bu zaman Qrup bu hissələri ayrıca olaraq, onlara xüsusi istifadə müddətləri əsasında amortizasiya hesablayır. Analoji olaraq, əsas yoxlama aparılanda, tanınma meyarı qarşılanırsa, onun dəyəri əsas vəsaitlərin balans dəyərində əvəzedilmə kimi tanınır. Bütün digər təmir və saxlama xərcləri mənfəət və ya zərərin tərkibində xərclərə silinmiş kimi əks olunur.

Sonrakı tarixdə əmələ gələn, gəmilərin əsaslı yenilənməsi və təmiri üzrə əhəmiyyətli xərclər hər bir aktivin balans dəyərinə daxil edilir. Onlar yalnız bu halda ayrıca aktiv kimi tanınmalıdır ki, həmin maddə ilə bağlı gələcək iqtisadi faydaların Qrup üçün faydalı olması ehtimal edilsin və aktivin alış dəyəri etibarlı şəkildə müəyyən edilə bilsin. Adi təmir və texniki xidmət xərcləri çəkildiyi dövr ərzində hesabat dövrünün xərcləri kimi tanınır.

Gəmilərə onların qiymətləndirilmiş istifadə müddəti üzrə amortizasiya hesablanır. Aktivlərin qiymətləndirilmiş istifadə müddəti və qalıq dəyərlərinə hər hesabat dövrünün sonunda yenidən baxılır və lazım olarsa gözlənilən gələcək iqtisadi faydalarda baş vermiş dəyişiklikləri əks etdirmək məqsədilə düzəlişlər aparılır.

### Köhnəlmə

Gəmilər, əsas vəsaitlər üçün düzxətli amortizasiya metoduna əsasən amortizasiya hesablanır. Torpaq üçün amortizasiya hesablanmır. Tikilməkdə olan aktivlər üçün amortizasiya hesablanmır.

Qrupun gəmilərinin, əsas vəsaitlərinin təxmin edilən faydalı istifadə müddəti aşağıda göstərilir:

| | |
|---|---|
| Bina və tikililər | 15-30 il |
| Maşın və avadanlıq | 3-25 il |
| Gəmilər və port qurğuları | 3-30 il |

Gəmilərin, əsas vəsaitlərin faydalı istifadə müddəti hər il nəzərdən keçirilir və lazım olduqda onların faydalı istifadə müddətindəki dəyişikliklər sonrakı dövrdən etibarən uçota alınır.

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Qrupun həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Əgər Qrup aktivlərini fiziki istismar müddətinin sonunadək istifadə edəcəyini gözləyərsə və əlavə qalıq dəyərinin mövcud olmadığı nəzərdə tutulursa, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri lazım olduqda hər bir hesabat tarixində nəzərdən keçirilir və dəqiqləşdirilir.

### İcarələr

Qrup müqavilənin icarə müqaviləsi olub-olmaması və ya icarə komponentinə sahib olub-olmaması, yəni ödəniş qarşılığında müəyyən müddət ərzində müəyyən aktivdən istifadə hüququnun olması faktını başlanğıc tarixində müəyyənləşdirir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

**İcarələr (davamı)**

***Qrup icarəçi qismində***

Qrup qısa müddətli icarələr və az dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanınma və ölçülmə metodundan istifadə edir. Qrup icarə üzrə ödənişləri etmək üçün icarə öhdəlikləri və müvafiq aktivdən istifadə hüququnu təzahür edən aktivdən istifadə hüququ tanıyır.

*i) İstifadə hüququ olan aktivlər*

Qrup icarənin başlanğıc tarixində (yəni müvafiq aktivin istifadəyə hazır olduğu tarix) aktivdən istifadə hüququ tanıyır. İstifadə hüququ olan aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə çıxılmaqla maya dəyəri ilə uçota alınır və icarə öhdəliklərinin yenidən qiymətləndirilməsi üzrə düzəlişlərə məruz qalır. İstifadə hüququ olan aktivlərin maya dəyərinə tanınan icarə öhdəliklərinin dəyəri, ilkin birbaşa xərclər və icarə üstünlükləri çıxılmaqla başlanğıc tarixində və ya ondan əvvəl edilmiş icarə ödənişləri daxildir. İstifadə hüququ olan aktivlər icarə müddəti və ya aktivin ehtimal edilən ömür müddətindən daha qısa olan dövr üzrə düzxətli amortizasiya metoduna əsasən aşağıdakı qaydada amortizasiya olunur:

| | |
|---|---|
| Binalar və tikililər | 3-15 il |
| Maşın və avadanlıqlar | 3-15 il |
| Gəmilər və liman avadanlıqları | 3-15 il |
| Nəqliyyat vasitələri, mebel və digər | 3-5 il |

Əgər icarəyə götürülmüş aktiv üzərində mülkiyyət hüququ icarə müddətinin sonunda Qrupa keçirsə və ya maya dəyəri özündə alış opsiyonundan istifadəni ehtiva edirsə, amortizasiya aktivin ehtimal edilən ömür müddəti üzrə aparılır.

*ii) İcarə öhdəlikləri*

İcarənin başlanma tarixində Qrup icarə müddəti ərzində ediləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə icarə güzəştləri üzrə alınacaq məbləğlər çıxılmaqla sabit ödənişlər (o cümlədən mahiyyətcə sabit ödənişlər), indeks və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri və qalıq dəyəri zəmanətləri üzrə ödənilməsi gözlənilən məbləğlər daxildir. İcarə ödənişlərinə həmçinin icarə müddəti ərzində Qrup tərəfindən istifadəsi əminliklə bilinən alış opsionunun qiyməti və icarə müddətinin Qrupun xitam vermə opsionundan istifadə edəcəyini əks etməsi halında icarə müqaviləsinə xitam verilməsi səbəbindən ödənilək cərimələr də daxildir. İndeks və ya dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri (mal-material istehsalı üçün çəkildiyi hallar istisna olmaqla) ödənişi şərtləndirən hadisənin baş verdiyi və ya şəraitin yarandığı dövrdə xərc kimi tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən icarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsinin dərhal müəyyən edilməsi mümkün olmadığı təqdirdə Qrup icarənin başlanma tarixinə olan artan borc alma dərəcəsindən istifadə edir. Başlanma tarixindən sonra icarə öhdəliklərinin məbləği faizin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, modifikasiya, icarə müddətində dəyişiklik, icarə ödənişlərində dəyişiklik (məsələn, bu cür icarə ödənişlərini müəyyən etmək üçün istifadə edilən indeks və ya dərəcədə dəyişiklikdən irəli gələn gələcək ödənişlərə edilən dəyişikliklər) və ya əsas aktivin alış opsionunun qiymətləndirməsində dəyişiklik baş verdikdə icarə öhdəliklərinin balans dəyəri yenidən ölçülür.

*iii) Qısa müddətli icarələr və azdəyərli aktivlərin icarəsi*

Qrup maşın və avadanlıqların qısa müddətli icarəsinə qısa müddətli icarənin tanınması üzrə azad olmanı tətbiq edir (məsələn: başlanma tarixindən etibarən 12 ayadək dövrü əhatə edən və alış opsiyonu olmayan icarələr). Qrup həmçinin azdəyərli sayılan ofis avadanlıqlarının icarəsinə aşağı dəyərli aktivlərin icarəsinin tanınması üzrə azad olmanı tətbiq edir. Qısa müddətli icarələr və azdəyərli aktivlərin icarəsi üzrə icarə ödənişləri icarə müddəti ərzində düz xətt üsulu ilə xərc kimi tanınır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

**2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)**

**İcarələr (davamı)**

***Qrup icarədar qismində***

Aktiv üzrə mülkiyyət hüququna aid olan risklərin və faydaların əksəriyyətini Qrupdan digər tərəfə keçirməyən icarələr əməliyyat icarələri kimi təsnif edilir. Əməliyyat icarəsi üzrə danışıqlar zamanı çəkilən ilkin birbaşa xərclər icarəyə götürülən aktivin balans dəyərinə əlavə olunur və icarə gəliri ilə eyni əsaslarla icarə müddəti boyunca tanınır. Şərti icarə haqları qazanıldığı dövrdə gəlir kimi tanınır.

**Qeyri-maddi aktivlər**

Ayrılıqda əldə edilmiş qeyri-maddi aktivlər ilkin tanınmada maya dəyəri ilə ölçülür. Müəssisələrin birləşməsi zamanı əldə edilmiş qeyri-maddi aktivlərin maya dəyəri həmin aktivlərin əldə etmə tarixində ədalətli dəyərinə bərabərdir. İlkin tanınmadan sonra qeyri-maddi aktivlər bütün yığılmış amortizasiya və bütün yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə uçota alınır.

Şirkətin daxilində yaradılmış qeyri-maddi aktivlər, kapitallaşdırılmış inkişaf xərcləri istisna olmaqla, kapitallaşdırılmır və əlaqəli məsrəf həmin məsrəfin meydana gəldiyi dövrdə mənfəət və ya zərərin tərkibində göstərilir. Qeyri-maddi aktivlərə hüquqlar və kompüter proqramları, patentlər, lisenziyalar, müştərilərlə münasibətlər, ticarət adı, su mülkü və tədqiqat və inkişaf layihələri daxildir.

Qeyri-maddi aktivlərin istifadə müddətləri məhdud və ya qeyri-müəyyən hesab edilir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlərə faydalı iqtisadi istifadə müddətləri boyunca bərabər hissələrə bölünməklə amortizasiya hesablanır və qeyri-maddi aktivin dəyərsizləşə biləcəyini göstərən hər hansı əlamət olduqda dəyərsizləşmə baxımından qiymətləndirmə aparılır. Məhdud faydalı istifadə müddəti olan qeyri-maddi aktiv üçün amortizasiya müddəti və amortizasiya metoduna ən azı hər hesabat dövrünün sonunda yenidən baxılır. Gözlənilən faydalı istifadə müddəti və ya aktivin özündə təcəssüm etdiyi gələcək iqtisadi səmərənin gözlənilən əldə olunma strukturundakı dəyişikliklər, müvafiq olaraq, amortizasiya müddəti və ya metodunun dəyişdirilməsi yolu ilə hesabata alınır və uçot ehtimallarında dəyişikliklər hesab olunur. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda qeyri-maddi aktivin funksiyasına uyğun xərc kateqoriyasında əks olunur.

Qeyri-müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər amortizasiya edilmir, lakin fərdi qaydada və ya pul vəsaitlərini yaradan biznes vahidləri səviyyəsində hər il dəyərsizləşmə üzrə yoxlanılır. Qeyri-müəyyən faydalı istifadə müddətinin qiymətləndirilməsi qeyri-müəyyən istifadə müddətinin uyğun olmaqda davam edə biləcəyini müəyyən etmək üçün hər il nəzərdən keçirilir. İstifadə müddəti uyğun olmadıqda, istifadə müddəti sonrakı dövrdən etibarən qeyri-müəyyən müddətdən məhdud müddətə dəyişdirilir.

Qeyri-maddi aktivin uçotdan silinməsindən irəli gələn gəlirlər və ya zərərlər xaric etmədən əldə edilən xalis daxilolmalar ilə aktivin balans dəyəri arasındakı fərq kimi ölçülür və aktiv uçotdan silinəndə konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda tanınır.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və xalis satış dəyəri arasında ən aşağı olan dəyərdə qeydə alınır. Mümkün xalis satış dəyəri, hesablanmış tamamlama və satış məsrəfləri çıxılmaqla, hesablanmış adi fəaliyyət zamanı satış qiymətidir.

Maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Maya dəyərinə birbaşa alış xərcləri, hasilat xərcləri, nəqliyyat və istehsal xərcləri (normal fəaliyyət həcminə əsasən) daxildir.

**Dividendlər**

Qrup dividend ödəmək öhdəliyini bölüşdürməyə icazə verildikdə və bölüşdürmə artıq Qrupun ixtiyarında olmadıqda tanıyır. Azərbaycan Respublikasının korporativ qanunvericiliyinə əsasən, bölüşdürmə səhmdar tərəfindən təsdiq edildikdə aparıla bilər. Müvafiq məbləğ birbaşa kapitalda tanınır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

### Dövlətə ayırmalar

Dövlətə ayırmalar hökumətin xüsusi qərarlarına uyğun olaraq dövlət büdcəsinə, ayrı-ayrı dövlət agentliklərinə və hökumətin həyata keçirdiyi layihələrə Qrup tərəfindən pul şəklində qoyuluşları və ya maliyyələşdirməni əks etdirir. Bu cür ayırmalar kapitalın azalması kimi uçota alınır. Pul şəklində olmayan ayırmalar köçürülmüş aktivlərin qalıq dəyərində qeydə alınır.

### Dövlət ayırmaları

Səhmdar rolunda çıxış edən dövlətin ayırmaları pul vəsaitləri və ya qeyri-monetar aktivlərin köçürülməsi formasında həyata keçirilir. Dövlət ayırmaları qeyri-monetar aktivlər formasında həyata keçirildikdə, Qrup bu cür aktivləri ödənişin ədalətli dəyəri ilə tanıyır; beləliklə, bu aktivlər sıfıra bərabər olan ödəniş məbləğində tanınır.

### Əlavə dəyər vergisi

Vergi orqanları satış və alış əməliyyatları üzrə əlavə dəyər vergisinin ("ƏDV") xalis ödənilməsinə icazə verir.

*ƏDV üzrə kreditor borcu*

ƏDV üzrə kreditor borcu hesabat tarixində əvəzləşdirilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla, satış ilə bağlı ƏDV məbləğidir. Satış ilə bağlı ƏDV vergi orqanlarına ödəniş alındıqdan sonra ödənilir. Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatın tarixinə əvəzləşdirilməmiş satışlarla bağlı ƏDV həmçinin ƏDV üzrə kreditor borcuna daxildir. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat yaradıldıqda, dəyərsizləşmə üzrə ehtiyat lazım olduqda ƏDV də daxil olmaqla, debitor borcunun ümumi məbləğində qeydə alınır. Əlaqəli ƏDV üzrə təxirə salınmış öhdəlik debitor borcu vergi məqsədləri üçün silinənədək saxlanılır.

*Əvəzləşdirilən ƏDV*

Əvəzləşdirilən ƏDV hesabat tarixində əvəzləşdirilməmiş alışlara aiddir. Əvəzləşdirilən ƏDV alışlar üçün ödəniş aparıldıqda satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər.

### Gəlirlərin tanınması

Qrupun gəlirləri əsasən dəniz xidmətlərinin göstərilməsi (əsasən taym-çarterlər) və yük və sərnişinlərin daşınmasından (əsasən reys çarterləri) əldə edilir. Gəlirlər xidmətlər və ya mallar üzrə nəzarət müştəriyə keçəndə Qrupun həmin xidmətlər və ya mallar üçün almağı gözlədiyi ödənişin məbləği ilə tanınır. Qrup, gəlirlərə dair razılaşmada əsas tərəf kimi çıxış etdiyi qənaətinə gəlmişdir, çünki adətən o, malları və ya xidmətləri müştəriyə ötürdükdən əvvəl, onlara nəzarət edir.

*Reys çarterlərindən gəlirlər*

Reys çarterlərindən gəlirlər gəminin sifarişçisinin bir ton yük üçün razılaşdırılmış fraxt dərəcəsi ilə ödənişi müqabilində bir və ya bir neçə yerdə yükü vurub bir və ya bir neçə yerdə yükü boşaltmaqla spot bazarında və fraxt müqaviləsi üzrə yükün daşınmasından əldə edilir. Fraxt müqavilələrində gəmidə yükün vurulması və boşaldılması üçün mövcud olan vaxt həcminə dair şərtlər nəzərdə tutulur. Qrup, bu şərtlər pozularsa, demerec formasında əlavə vaxta görə kompensasiya alır. Demerec, onun ödənilməsi mümkün olduğu andan reysin qalan müddəti üzrə tanınan dəyişkən məbləğdir. Gəlirlərin tanınması metodunu tətbiq etməklə rəhbərlik hesab edir ki, reys çarteri üçün icra öhdəliyinin yerinə yetirilməsi gəmi yükləmə portuna çatanda başlayır və yük boşaltma portunda yük boşaldılanda başa çatır (yükləmədən boşaldılmaya qədər – bu zaman müştəri ilə müqavilənin qüvvəsi tamamlanır). Qrup icra öhdəliyinin yerinə yetirilməsini ölçmək üçün nəticələr metodundan istifadə edir, yəni reys üzrə gəlirlər yükləmədən yükboşaltmanın tamamlanması gözlənildiyi tarixədək keçən vaxt əsasında proporsional qaydada tanınır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

### Gəlirlərin tanınması (davamı)

*Taym-çarterdən gəlirlər*

Taym-çarterdən gəlirlər gəminin sifarişçisi tərəfindən gəminin və gəmi heyətinin xidmətlərindən razılaşdırılmış müddət ərzində istifadə edilməsindən əldə edilir. Müddətli fraxt müqavilələrinin xidmət müqavilələri kimi uçota alınması davam etdirilir. Gəminin sifarişçiləri Qrupun təklif etdiyi faydaları eyni zamanda aldığı və istifadə etdiyinə görə icra öhdəliyi dövr ərzində yerinə yetirilir.

*Digər gəlirlər*

Əsas fəaliyyət növləri olmayan əməliyyatlardan digər gəlirlərə adətən bir fərqli icra öhdəliyi daxil olur, bu da müştəri Qrupun fəaliyyətindən faydaları eyni zamanda aldığı və istifadə etdiyinə görə nəticələr metodu əsasında dövr ərzində yerinə yetirilir. Bununla bərabər Qrupun əsas fəaliyyəti ilə bağlı olmayan mal və xidmətlərin satışları ilə əlaqədar müqavilələrdən digər gəlirlər də əldə edilir. Bunlar konkret vaxtda yerinə yetirilir.

### Müqavilə aktivləri

Müqavilə aktivi müştəriyə çatdırılan mallar və ya xidmətlər müqabilində ödənişin alınması hüququdur. Qrup malları və xidmətləri müştərinin ödəniş etməsindən və ya ödəniş müddətinin çatmasından əvvəl çatdırarsa, müqavilə aktivi şərti olaraq əldə edilmiş ödəniş üçün tanınır.

### Müqavilə öhdəlikləri

Müqavilə öhdəliyi Qrupun müştəridən ödəniş aldığı (və ya ödəniş almalı olduğu) mal və xidmətlərin müştəriyə çatdırılması öhdəliyidir. Müştəri ödənişi Qrupun mal və xidmətləri müştəriyə çatdırdıqdan əvvəl etdikdə, müqavilə öhdəliyi ödəniş ediləndə və ya edilməli olanda (hansının daha öncə baş verməsindən asılı olaraq) tanınır. Müqavilə öhdəlikləri Qrup müqavilə üzrə öhdəliyini yerinə yetirdikdə gəlirlər kimi tanınır.

### Əlaqəli tərəflər

Əlaqəli tərəflər haqqında məlumat 24 saylı *"Əlaqəli tərəflər barədə açıqlamalar"* adlı MUBS-a uyğun olaraq açıqlanır.

Dövlətin iqtisadi və sosial siyasəti Qrupun maliyyə vəziyyətinə, əməliyyat nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsir edir.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər. Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

### Mənfəət vergisi

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında mənfəət vergisi hesabat tarixinə qüvvədə olan və ya faktiki olaraq qüvvəyə minmiş müvafiq qanunvericiliyə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri digər ümumi gəlirlərdə və ya bilavasitə kapitalda uçota alınan əməliyyatlar istisna olmaqla, mənfəət və ya zərər kimi əks etdirilir.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə bağlı vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisi olmayan digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış vergi, öhdəlik metodundan istifadə etməklə, hesabat tarixində aktivlərin və öhdəliklərin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün göstərilmiş qalıq dəyərləri arasında mövcud olan bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

**2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)**

**Mənfəət vergisi (davamı)**

Təxirə salınmış vergi öhdəlikləri aşağıdakılar istisna olmaqla vergiyə cəlb olunan bütün müvəqqəti fərqlər üçün tanınır:

- Təxirə salınmış vergi öhdəliyi şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı qudvil və ya aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəldiyi, eləcə də əməliyyat zamanı uçot mənfəətinə və ya vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərmədiyi hallar;
- Müvəqqəti fərqlərin qaytarılması vaxtının nəzarət altında saxlanıla bilən və müvəqqəti fərqin yaxın gələcəkdə qaytarılması ehtimalı olmayan hallar istisna olmaqla, törəmə müəssisələrə, əlaqəli şirkətlərə investisiyalarla və birgə müəssisələrdə iştirak payları ilə əlaqədar vergiyə cəlb olunan müvəqqəti fərqlər.

Təxirə salınmış vergi aktivləri aşağıdakılar istisna olmaqla bütün çıxılmalı müvəqqəti fərqlərin, sonrakı dövrə keçirilmiş istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi öhdəliklərinin istifadəsi ilə əlaqədar vergi tutulmalı mənfəətin mövcudluğunun mümkünlüyü baxımından, çıxılmalı müvəqqəti fərqlər, sonrakı dövrə keçirilmiş istifadə edilməmiş vergi kreditləri və istifadə edilməmiş vergi öhdəlikləri üçün tanınır:

- Çıxılan müvəqqəti fərqə aid olan təxirə salınmış vergi aktivi şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəldiyi, eləcə də əməliyyat zamanı uçot mənfəətinə və ya vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərmədiyi hallar; və
- Törəmə müəssisələrə, əlaqəli şirkətlərə investisiyalarla və birgə müəssisələrdə iştirak payları ilə bağlı vergiyə cəlb olunan müvəqqəti fərqlərlə əlaqədar, təxirə salınmış vergi aktivi yaxın gələcəkdə müvəqqəti fərqlərin qaytarılması və müvəqqəti fərqləri qarşılaya biləcək vergiyə cəlb olunan mənfəətin mövcudluğunun mümkünlüyü həddində tanınır.

Təxirə salınmış vergi aktivlərinin dəyəri hər maliyyə vəziyyəti haqqında hesabat tarixində nəzərdən keçirilir və təxirə salınmış vergi aktivlərinin hamısının və ya bir hissəsini qarşılamaq üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin mövcudluğu ehtimalı olmadığı halda azaldılır. Tanınmamış təxirə salınmış vergi aktivləri hər hesabat tarixində yenidən qiymətləndirilir və gələcək vergiyə cəlb olunacaq gəlirlər təxirə salınmış vergi aktivinin bərpa olunmasına imkan verdiyi dərəcədə tanınır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri, hər maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan və ya faktiki olaraq qüvvədə olan vergi dərəcələri (və vergi qanunları) əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

Təxirə salınmış vergi aktivləri və təxirə salınmış vergi öhdəlikləri, cari vergi aktivlərini cari vergi öhdəlikləri ilə əvəzləşdirmək üçün qanuni hüquq mövcud olanda və təxirə salınmış vergilər eyni vergiyə cəlb olunan müəssisəyə aid olanda əvəzləşdirilir.

Təxirə salınmış vergi aktivləri müvəqqəti fərqlərin istifadə oluna bilməsi üçün vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının mövcud olacağı zaman hesablanır.

Təxirə salınmış mənfəət vergisi, Qrupun müvəqqəti fərqlərin bərpası dövrünə nəzarət etməsi və müvəqqəti fərqlərin yaxın gələcəkdə bərpa edilməməsi ehtimal olunan hallar istisna olmaqla, törəmə və asılı müəssisələrə investisiyaların qoyulmasından yaranan müvəqqəti fərqlər üçün hesablanır.

**İşçilərə ödənişlər**

Əmək haqları, maaşlar, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, ödənişli illik məzuniyyət və bülletenlər, mükafatlar, əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlərlə bağlı öhdəliklər və pul şəklində olmayan imtiyazlar (məs. səhiyyə xidmətləri və uşaq bağçaları) Qrupun işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

**Xərclər**

Xərclər konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda funksiyalarına görə əks etdirilir. Xərclərin xarakterinə uyğun kateqoriyaya ayrılması Qrupun idarələri və törəmə müəssisələrinin əməliyyat funksiyasına əsaslanır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm uçot prinsipləri (davamı)

### Seqmentlər üzrə məlumat

Əməliyyat seqmentləri haqqında məlumat daxili hesabat qaydalarına əsasən əməliyyat məsələləri ilə bağlı Qrupun əsas qərar qəbul edən şəxslərinə təqdim edildiyi formada göstərilir. Qrup aşağıdakı kəmiyyət hüdudlarından hər hansı birinə uyğun gələn əməliyyat seqmenti haqqında məlumatları ayrıca təqdim etməlidir:

- Kənar müştərilərə satışlar və seqmentlərarası satışlar və köçürmələr də daxil olmaqla, bəyan edilmiş gəlirləri bütün əməliyyat seqmentlərinin daxili və xarici gəlirləri daxil olmaqla məcmu gəlirlərinin 10 və ya daha artıq faizini təşkil edir;
- Hesabatda göstərilmiş mənfəət və ya zərərin mütləq məbləği, bəyan edilmiş zərəri olmayan bütün əməliyyat seqmentlərinin hesabatda təqdim edilmiş məcmu mənfəətin və bəyan edilmiş zərəri olan bütün əməliyyat seqmentlərinin hesabatda təqdim edilmiş məcmu zərərin mütləq məbləğlərindən ən yüksək olanının 10 və ya daha artıq faizini təşkil edir;
- Aktivləri bütün əməliyyat seqmentlərinin məcmu aktivlərinin 10 və ya daha artıq faizini təşkil edir.

## 3. Mühüm mühasibat uçotu qiymətləndirmələri və mühakimələri

Qrupun 2 saylı Qeyddə təsvir olunan mühasibat uçotu prinsipləri tətbiq edilərkən, rəhbərlik aktiv və öhdəliklərin digər mənbələrdən əldə edilə bilən balans dəyərlərinə dair mühakimələr, qiymətəndirmələr və fərziyyələri istifadə etməlidir. Qiymətləndirmələr və əlaqəli fərziyyələr ötən dövrlərdə toplanmış təcrübəyə, eləcə də münasib hesab olunan digər amillərə əsaslanır. Faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər.

Qiymətləndirmələr və onların əsasında dayanan fərziyyələr daim təhlil edilir. Uçot qiymətləndirmələrinə düzəlişlər yalnız müəyyən dövrə aiddirsə, həmin dövrdə tanınır, müəyyən dövrə və gələcək dövrlərə aiddirsə, həm cari, həm də gələcək dövrlərdə tanınır.

Növbəti maliyyə ilində aktiv və öhdəliklərin balans dəyərlərində əhəmiyyətli düzəlişlərin edilməsi ilə bağlı əhəmiyyətli risk yaradan, gələcək dövrlərə aid əsas fərziyyələr, eləcə də hesabat dövrünün sonuna qiymətləndirmə qeyri-müəyyənliyinin digər əsas mənbələri aşağıda təqdim edilir.

### Gözlənilən kredit zərərləri üzrə ehtiyat

Ticarət debitor borcları və müqavilə aktivləri üçün GKZ-ni hesablamaq məqsədilə Qrup ehtiyat matrisindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər sxemləri olan (məsələn, coğrafi baxımdan, məhsul növü, müştərinin növü və reytinqi, akkreditiv və ya digər kredit sığortası növü ilə əhatə) müxtəlif müştəri seqmentlərinin qruplaşmasına görə keçmiş günlərin sayına əsaslanır.

Ehtiyat matrisi ilk öncə Qrupun keçmiş dövrlərdə müşahidə edilə bilən defolt dərəcələrinə əsaslanır. Qrup, keçmiş dövrlərdə kredit zərəri ilə bağlı təcrübəni proqnoz məlumatlarına uyğunlaşdırmaq üçün matrisi dəqiqləşdirir. Məsələn, proqnoz maliyyə şəraitlərinin (məsələn ümumi yerli məhsul) növbəti ildə pisləşməsi, nəticədə sektordan defolt saylarının artması gözlənildiyi halda keçmiş dövrlər üzrə defolt dərəcələrində düzəlişlər edilir. Hər bir hesabat tarixində keçmiş dövrlər üzrə müşahidə edilən defolt dərəcələrində düzəlişlər edilir və proqnoz qiymətləndirmələrində dəyişikliklər təhlil edilir.

Keçmiş dövrlər üzrə müşahidə edilən defolt dərəcələri, proqnoz şəraitləri və GKZ arasında əlaqənin qiymətləndirilməsi əhəmiyyətli qiymətləndirmə təşkil edir. GKZ məbləği şəraitlərin dəyişməsinə və proqnoz iqtisadi şəraitlərə həssasdır. Həmçinin, Qrupun keçmiş dövrlər üzrə kredit zərəri ilə bağlı təcrübəsi və iqtisadi şəraitlərin proqnozu müştərini gələcəkdə faktiki defolta uğramasını göstərməyə bilər. Qrupun ticarət debitor borcları üzrə GKZ-lər haqqında məlumat 7-ci Qeyddə təqdim olunur.

## 3. Mühüm mühasibat uçotu qiymətləndirmələri və mühakimələri (davamı)

**Təxirə salınmış mənfəət vergisi aktivlərinin tanınması**

Təxirə salınmış xalis vergi aktivləri vergi tutulan gəlirlərdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisindən ibarətdir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivləri əlaqədar vergi faydasının realizasiyasının ehtimalı mövcud olduqda qeydə alınır. Vergi tutulan gələcək mənfəət və gələcəkdə realizasiyası ehtimal edilən vergi faydalarının məbləğini müəyyən edərkən Rəhbərlik mühakimələr edir və mövcud şəraitdə məqbul hesab edilən gələcək gəlirə dair gözləntilərdən istifadə edir.

**Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlərlə bağlı öhdəlik**

Qrup öhdəliyi Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq qeydə alır və iş yerində xəsarət almış işçilərə kompensasiyanın ödənilməsi ilə bağlı öhdəlik daşıyır. Ehtiyat kimi uçota alınmış məbləğ mövcud öhdəliyin hesabat tarixinə qüvvədə olan qanunvericilik və qaydalara uyğun olaraq yerinə yetirilməsi üçün tələb olunan məsrəflərin ən dəqiq təxminlərini əks etdirir. Bu məbləğ qanunvericilik, normativ aktlar və müvafiq şərhlərin dəyişdirilməsi və yenidən baxılması ilə əlaqədar olaraq dəyişə bilər. Hökumət orqanları müvafiq qanunvericiliyi və onun tətbiqini davamlı olaraq nəzərdən keçirir. Bu şərtlərin subyektivliyini nəzərə alaraq bu cür xərclərin məbləği və çəkildiyi müddətlə bağlı qeyri-müəyyənlik mövcuddur. Ehtimal edilən əmək qabiliyyətinin itirilməsi ilə bağlı öhdəliklərin məbləğinin ölçülməsi və həssaslığın təhlili üçün istifadə edilən əsas fərziyyələr 11-ci Qeyddə açıqlanır.

**Dəyərsizləşmiş və ya köhnəlmiş mal-material ehtiyatları üçün ehtiyat**

Qrup mal-material ehtiyatlarının qalıq dəyərini hər hesabat tarixində nəzərdən keçirir və lazım olarsa, köhnəlmiş, dəyərdən düşmüş və ləng hərəkət edən maddələrin məbləği qədər azaldır. Bu məbləğ ziyanın səviyyəsindən və istifadənin tezliyindən asılı olaraq, fərdi və ya məcmu şəkildə, köhnəlmiş və ləng hərəkət edən mal-material ehtiyatlarına tətbiq edilən faiz əsasında qiymətləndirilir.

**Digər ehtiyatlar**

Qrup keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəliklərə malik olduqda, bu öhdəliklərin yerinə yetirilməsi üçün iqtisadi resursların sərf olunmasının ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ehtimal edilə bildikdə ehtiyatlar uçota alınır. Qrup ehtiyatların hamısının və ya bir hissəsinin, məsələn, sığorta müqaviləsi əsasında, əvəzinin ödənilməsini gözləyirsə, bu ödəniş yalnız baş tutacağı zahirən yəqin olduqda ayrıca aktiv kimi uçota alınır. Ehtiyata aid olan xərclər konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda hər hansı əvəzin ödənilməsini çıxmaqla təqdim olunur. Pulun vaxt dəyərinin təsiri önəmlidirsə, ehtiyatlar münasib olduqda öhdəliyə xas olan riskləri əks etdirən cari vergidən əvvəlki dərəcəni istifadə etməklə diskont edilir. Diskont istifadə edildəndə, vaxt keçməsinə görə ehtiyatın artması maliyyə xərci kimi tanınır.

**Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi**

Bərpa edilə bilinməyən aktivlərin balans dəyərini əks etdirən hadisələr və ya şəraitlərə əsasən rəhbərlik hər bir hesabat tarixində bütün qeyri-maliyyə aktivlərinin mümkün dəyərsizləşməsi üzrə hər hansı göstəricilərin olub-olmamasını müəyyən edir. Bu cür göstəricilərə aşağıdakılar daxildir: Qrupun biznes planlarında baş verən dəyişikliklər, qeyri-rentabelli fəaliyyətə gətirib çıxaran əmtəə qiymətlərində dəyişikliklər və məhsul qarışıqlarında olan dəyişikliklər. Qudvil və digər qeyri-müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər hər il və digər vaxtlarda dəyərsizləşmə göstəriciləri olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır. Digər qeyri-maliyyə aktivləri bərpa edilə bilməyən balans dəyərinə dair göstəricilərin mövcud olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır.

İstifadə dəyəri hesablanarkən rəhbərlik aktivlər və yaxud pul vəsaitlərini yaradan vahidlər üzrə gələcək pul vəsaitlərinin hərəkətini təxmin edir və onların cari dəyərini hesablamaq üçün uyğun diskont dərəcəsini seçir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 3. Mühüm mühasibat uçotu qiymətləndirmələri və mühakimələri (davamı)

**Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi (davamı)**

Aktivin bərpa edilə bilən dəyəri onun satışı üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərin və istifadə dəyərinin daha yüksək olan məbləğinə bərabərdir. Qrup adətən istifadə dəyərini rəhbərliyin təsdiq etdiyi maliyyə büdcəsindəki diskont edilmiş pul vəsaitlərinin hərəkəti modelindən istifadə etməklə müəyyən edir. Aktivin bərpa edilə bilən dəyəri satış xərcləri çıxılmaqla ədalətli dəyər əsasında müəyyən edilirsə, Qrup qeyri-maliyyə aktivlərinin bərpa edilə bilən dəyərini müəyyənləşdirmək üçün müstəqil qiymətləndiriciləri cəlb edir.

31 dekabr 2023-cü il tarixinə Qrup dəyərsizləşmə göstəricilərinin təhlilini aparmış və hər hansı dəyərsizləşmə amilini müəyyən etməmişdir (31 dekabr 2022-ci il: hər hansı dəyərsizləşmə amili müəyyən edilməmişdir).

**Gəmilərin, əsas vəsaitlərin və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti**

Rəhbərlik gəmiləri, əsas vəsaitləri və qeyri-maddi aktivlərinin təxmin edilən faydalı istifadə müddətini və müvafiq amortizasiya xərclərini müəyyən edir. Bu təxminlər, Qrupun həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Faydalı istifadə müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olanda rəhbərlik amortizasiya xərcini artırır və ya ləğv edilmiş və ya satılmış texniki cəhətdən köhnəlmiş aktivləri balansdan silir. Faydalı istifadə müddətinə ən azı hər maliyyə ilinin sonunda yenidən baxılır. Yuxarıda qeyd olunan şərtlərin və ya təxminlərin hər hansı birində dəyişiklik olarsa, bu, gələcəkdə amortizasiya dərəcələri üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

**İcarələr**

*İcarənin uzadılması hüququ ilə müqavilələrin icarə müddətinin müəyyənləşdirilməsində əhəmiyyətli mühakimə*

İcarəçi və icarədar müqavilənin icarənin başlanğıcında icarə olub-olmadığını müəyyən etməlidir. Başlanğıc tarixi icarə müqaviləsinin qüvvəyə minməsi və tərəflərin icarə predmetinin əsas şərtlərinə və hallarına dair öhdəlikləri qəbul etməsi tarixlərindən ən tez başlayan tarixdir. Əsas aktiv icarə müqaviləsinin mövzusu olan və həmin aktivi üzrə istifadə hüququ icarədar tərəfindən icarəçiyə verilən aktivdir. İcarənin başlanma tarixi icarədarın əsas aktivi icarəçinin istifadəsi üçün əlçatan etməsi tarixidir.

İcarə müddəti icarə müddətinin başlanğıc tarixində başlayır və icarədar tərəfindən icarəçiyə icarə haqqı ödəmədən verilmiş hər hansı müddəti özündə cəmləşdirir.

Qrup icarə müddətini aşağıdakı müddətlərlə birlikdə ləğv edilməyən icarə müddəti kimi müəyyən edir:

- İcarəçi icarənin uzadılması hüququndan istifadə edəcəyindən əsaslı şəkildə əmin olduqda icarənin uzadılması hüququ ilə əhatə olunmuş müddətlər; və
- İcarəçi bu hüquqdan istifadə etməyəcəyindən əsaslı şəkildə əmin olduqda icarənin ləğv edilməsi hüququ ilə əhatə olunmuş müddətlər.

Alış opsionları icarənin müddətini uzatmaq və ya ona xitam vermək opsionlarına oxşar şəkildə qiymətləndirilir. Əsas aktivi almaq opsionu iqtisadi cəhətdən əsas aktivin qalan iqtisadi istifadə müddəti üçün icarə müddətinin uzadılması opsionu ilə oxşardır.

Qrup icarə müddətini icarəçi icarənin uzadılması hüququndan istifadə edəcəyindən əsaslı şəkildə əmin olduqda icarənin uzadılması hüququ ilə əhatə olunmuş müddətlər və icarəçi bu hüquqdan istifadə etməyəcəyindən əsaslı şəkildə əmin olduqda icarənin ləğv edilməsi hüququ ilə əhatə olunmuş müddətlər daxil olmaqla ləğv edilməyən müddət kimi müəyyən edir. Qrup, icarəçinin bu hüququndan istifadə etməsi və ya etməməsi üçün, icarənin başlanğıc müddətindən bu hüququn istifadə edilmə tarixinədək faktlar və şərtlərdə gözlənilən dəyişikliklər daxil olmaqla, ona iqtisadi stimul yaradacaq bütün müvafiq fakt və şərtləri nəzərə alır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 3. Mühüm uçot qiymətləndirmələri və mühakimələri (davamı)

### İcarələr (davamı)

*Artan faiz dərəcəsi (AFD)*

Qrup icarədə nəzərdə tutulan faiz dərəcəsini dərhal müəyyən edə bilmir və bu səbəbdən icarə öhdəliklərinin ölçülməsi üçün artan faiz dərəcəsindən (AFD) istifadə edir. AFD Qrupun oxşar şərt və oxşar girovla oxşar iqtisadi mühitdə istifadə hüququ olan aktivə oxşar dəyərli aktivin əldə edilməsi üçün tələb olunan vəsaitlərin borca alınması üçün ödəməli olduğu faiz dərəcəsidir. Beləliklə, AFD Qrupun nəyi “ödəməli olduğunu” əks etdirir, bu isə müşahidə edilən dərəcələr olmadıqda (məs. Qrup maliyyə əməliyyatları aparmadıqda) və ya icarə şərtlərini əks etdirmək üçün düzəliş edilməli olduqda (məs. icarələr Qrupun funksional valyutasında olmadıqda) qiymətləndirilmənin aparılmasını tələb edir. Qrup AFD-ni mümkün olduqda müşahidə edilən giriş məlumatlarından (bazardakı faiz dərəcələri kimi) istifadə etməklə qiymətləndirir və müəssisənin xüsusiyyətlərini nəzərə almaqla müəyyən qiymətləndirmələr aparır.

## 4. Yeni və ya düzəliş edilmiş standartların, onlara dair şərhlərin tətbiqi və yeni uçot qaydaları

Qrup 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minən (digəri qeyd edilmədikdə) müəyyən standartları və düzəlişləri ilk dəfə tətbiq etmişdir. Qrup buraxılmış, lakin hələ qüvvəyə minməmiş hər hansı digər standart, şərh və ya düzəlişi vaxtından əvvəl qəbul etməmişdir.

*17 saylı MHBS Sığorta Müqavilələri*

17 saylı “Sığorta müqavilələri” adlı MHBS məlumatların tanınması və ölçülməsi, təqdimatı və açıqlanması məsələlərini əhatə edən sığorta müqavilələrinin uçotu üzrə yeni kompleks uçot standartıdır. 17 saylı MHBS 4 saylı “Sığorta müqavilələri” adlı MHBS-ni əvəz edir.

17 saylı MHBS sığortanı verən müəssisələrin növündən asılı olmayaraq, bütün növ sığorta müqavilələrinə (yeni, həyat sığortası, digər sığortalar, birbaşa və təkrar sığorta), eləcə də ixtiyari iştirak xüsusiyyətləri olan müəyyən zəmanətlərə və maliyyə alətlərinə tətbiq edilir. Əhatə dairəsinə bir neçə istisna tətbiq ediləcək. 17 saylı MHBS-nin ümumi məqsədi bütün müvafiq uçot amillərini əhatə edən sığortaçılar üçün daha faydalı və uyğun olan sığorta müqavilələrinin uçotu modelini təqdim etməkdir. 17 saylı MHBS-nin əsasını ümumi model təşkil edir və aşağıdakılarla tamamlanır:

- Birbaşa iştirak xüsusiyyətləri olan müqavilələr üçün xüsusi adaptasiya (dəyişkən haqq yanaşması);
- Sadələşdirilmiş yanaşma (premium bölüşdürmə yanaşması) – əsas etibarı ilə qısamüddətli müqavilələrə aiddir.

Yeni standartın Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına heç bir təsiri olmamışdır.

*Uçot qiymətləndirmələrinin tərifi – 8 saylı MUBS-a düzəlişlər*

8 saylı MUBS-a düzəlişlərdə uçot qiymətləndirmələrində dəyişikliklər, uçot prinsiplərində dəyişikliklər və səhvlərin düzəldilməsi arasında fərqlər izah edilir. Bundan əlavə, müəssisələr tərəfindən uçot qiymətləndirmələrinin aparılması üçün ölçmə üsullarının və giriş məlumatlarının istifadə edilməsi yolları izah edilir. Düzəlişlər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir göstərməmişdir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

**4. Yeni və ya düzəliş edilmiş standartların, onlara dair şərhlərin tətbiqi və yeni uçot qaydaları (davamı)**

*Mühasibat uçotu prinsiplərinin açıqlanması – 1 saylı MUBS və MHBS üzrə Praktiki Tövsiyələr 2-yə düzəlişlər*

1 saylı MUBS və MHBS üzrə Praktiki Tövsiyələr 2 *“Əhəmiyyətliliyə dair mülahizələrin formalaşdırılması”*na düzəlişlər əhəmiyyətlilik mülahizələrinin mühasibat uçotu prinsiplərinə tətbiq edilməsində müəssisələrə kömək etmək üçün qaydalar və nümunələr təqdim edilir. Düzəlişlərin məqsədi aşağıdakılar vasitəsilə uçot prinsiplərinə dair daha səmərəli açıqlamaların təqdim edilməsinə kömək etməkdir:

- Müəssisələr qarşısında qoyulmuş “mühüm” mühasibat uçotu prinsiplərin açıqlamaq tələbini “əhəmiyyətli” mühasibat uçotu prinsiplərinin açıqlanması üzrə tələblə əvəz edilməsi; və
- Mühasibat uçotu prinsiplərinin açıqlanması ilə bağlı qərarlar verərkən müəssisələrin əhəmiyyətlilik anlayışını necə tətbiq etdiklərinə dair təlimatın əlavə edilməsi.

Düzəlişlər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir göstərməmişdir.

*Vahid əməliyyatdan yaranan aktivlər və öhdəliklərlə bağlı təxirə salınmış vergi – 12 saylı MUBS-a düzəlişlər*

Mənfəət vergisi adlı 12 saylı MUBS-a düzəlişlər ilkin tanınma istisnasının əhatə dairəsini daraldır, belə ki, həmin istisna artıq icarələr və istismardan çıxarma öhdəlikləri kimi bərabər vergi tutulan və çıxılan müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara tətbiq edilmir. Düzəlişlər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir göstərməmişdir.

*Beynəlxalq Vergi İslahatı – Pillə 2 modelinin qaydaları – MUBS 12-yə düzəlişlər*

MUBS 12-yə düzəlişlər İƏİT-in BEPS Pillə 2 qaydalarına cavab olaraq edilmiş və aşağıdakıları əhatə edir:

- Pillə 2 modelinə aid qaydaların müxtəlif yurisdiksiyalarda tətbiqindən irəli gələn təxirə salınmış vergilərin tanınması və açıqlanması üçün məcburi müvəqqəti istisna; və
- Maliyyə hesabatlarının istifadəçilərinə müəssisənin həmin qanunvericilikdən, xüsusən də onun qüvvəyə minmə tarixindən əvvəl, Pillə 2 mənfəət vergilərinə cəlb edilib-edilməməsi məsələsini daha yaxşı başa düşməsinə kömək etmək üçün müvafiq müəssisələr üçün açıqlama tələbləri.

İstifadəsinin açıqlanması tələb olunan məcburi müvəqqəti istisna dərhal tətbiq edilir. Qalan açıqlama tələbləri 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün tətbiq edilir, 31 dekabr 2023-cü il tarixində və ya bu tarixdən əvvəl başa çatan aralıq dövrlər üçün isə tətbiq edilmir. Düzəlişlər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına heç bir təsir göstərməmişdir.

**Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni standartlar**

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının təqdim edilməsi tarixinə buraxılmış, lakin hələ qüvvəyə minməmiş standartlar və şərhlər aşağıda göstərilir. Qrup bu standartlar və düzəlişlər qüvvəyə mindikdə (tətbiq edildikdə) olanları qəbul etmək niyyətindədir.

*16 saylı MHBS-yə düzəlişlər: Satış və geriyə icarə əməliyyatında icarə öhdəliyi*

2022-ci ilin sentyabr ayında BMUSK 16 saylı MHBS-yə düzəlişlər etmişdir. Həmin düzəlişlər satıcı-icarəçinin saxlanılan istifadə hüququ ilə bağlı gəlir və ya zərərin məbləğini tanımamasını təmin etmək üçün, satış və geriyə icarə əməliyyatında yaranan icarə öhdəliyinin ölçülməsində satıcı-icarəçinin istifadə etdiyi tələbləri müəyyən edir.

Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və 16 saylı MHBS-nin ilkin tətbiqi tarixindən sonra bağlanmış satış və geriyə icarə əməliyyatlarına retrospektiv qaydada tətbiq edilməlidir. Erkən tətbiqə icazə verilir və bu fakt açıqlanmalıdır.

Düzəlişlərin Qrupun maliyyə hesabatlarına əhəmiyyətli təsiri gözlənilmir.

## 4. Yeni və ya düzəliş edilmiş standartların, onlara dair şərhlərin tətbiqi və yeni uçot qaydaları (davamı)

**Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni standartlar (davamı)**

*1 saylı MUBS-a düzəlişlər – Öhdəliklərin cari və uzunmüddətli kimi təsnifləşdirilməsi*

2020-ci ilin yanvar ayında öhdəliklərin cari və uzunmüddətli kimi təsnifləşdirilməsi üzrə tələbləri müəyyən etmək üçün BMUSK 1 saylı MUBS-un 69-76 bəndlərinə düzəlişlər dərc etmişdir. Düzəlişlər aşağıdakı məsələlərə aydınlıq gətirir:

- Hesablaşmanı təxirə salmaq hüququ nəyi nəzərdə tutur;
- Təxirə salmaq hüququ hesabat dövrünün sonunda mövcud olmalıdır;
- Müəssisənin təxirə salmaq hüququndan istifadə edə bilməsi təsnifləşdirməyə təsir etmir;
- Konvertasiya edilə bilən öhdəliyə daxil edilmiş törəmə alətin özü kapital alətidirsə, öhdəliyin şərtləri təsnifləşdirməyə təsir göstərməyəcək.

Bu düzəlişlər 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və retrospektiv qaydada tətbiq edilməlidir. Hal-hazırda Qrup düzəlişlərin onun cari təcrübəsinə təsirini və mövcud kredit müqavilələrinə yenidən nəzərdən keçirilməsinə ehtiyacın olub-olmamasını qiymətləndirir

*7 saylı MUBS və 7 saylı MHBS-yə düzəlişlər: Təchizatçının maliyyə sövdələşmələri*

2023-cü ilin may ayında BMUSK 7 saylı Pul vəsaitlərinin hərəkəti haqqında hesabat adlı MUBS-a və 7 saylı Maliyyə alətləri adlı MHBS-yə düzəlişlər dərc etmişdir. Açıqlamalar təchizatçının maliyyə sövdələşmələrinin xüsusiyyətlərini aydınlaşdıracaq və bu cür sövdələşmələr haqqında əlavə açıqlama tələb edəcək. Düzəlişlərdəki açıqlama tələbləri maliyyə hesabatlarının istifadəçilərinə təchizatçının maliyyə sövdələşmələrinin müəssisənin öhdəliklərinə, pul vəsaitlərinin hərəkətinə və likvidlik riskinə məruzluğa təsirlərini başa düşməyə kömək etmək məqsədi daşıyır.

Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minəcək. Erkən tətbiqə icazə verilir, lakin bu fakt açıqlanmalıdır. Düzəlişlərin Qrupun maliyyə hesabatlarına əhəmiyyətli təsiri gözlənilmir.

*21 saylı MUBS-a düzəlişlər: Mübadilə qabiliyyətinin olmaması*

Müəssisənin valyutanın mübadilə edilə bilən olub-olmadığını necə qiymətləndirməli olduğunu və mübadilə qabiliyyəti olmadıqda spot məzənnəni necə müəyyən etməli olduğunu müəyyən etmək üçün BMUSK 21 saylı "Valyuta Məzənnələrində Dəyişikliklərin Təsirləri" adlı MUBS-a düzəlişlər etmişdir. Düzəlişlər maliyyə hesabatlarının istifadəçilərinə valyutanın mübadilə edilə bilməməsinin təsirini başa düşməyə imkan verən məlumatların açıqlanmasını tələb edir.

Düzəlişlər 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün tətbiq edilir. Erkən tətbiqə yol verilir. Bununla belə, müəssisə müqayisəli məlumatları təkrar təqdim edə bilməz. Düzəlişlərin Qrupun maliyyə hesabatlarına əhəmiyyətli təsiri gözlənilmir.

## 5. Seqment məlumatları

Əməliyyat seqmenti gəlir əldə edə bilən və ya xərc çəkə bilən, əməliyyat nəticələri Qrupun rəhbərliyi tərəfindən mütəmadi nəzərdən keçirilən və fərdi maliyyə məlumatları mövcud olan biznes fəaliyyətində iştirak edən komponentdir.

Qrup öz işgüzar fəaliyyətinin vahid seqment daxilində aparıldığını hesab edir və rəhbərlik işgüzar fəaliyyətini MHBS-yə uyğun konsolidasiya edilmiş maliyyə hesabatlarında təqdim edilən vergidən sonrakı mənfəət əsasında qiymətləndirir. Qrupun 31 dekabr 2023-cü il tarixində başa çatan il ərzində hər biri fərdi olaraq əldə edilmiş ümumi gəlirin 10%-dən çoxunu təşkil edən 1 müştərisi var (2022-ci il: 2 müştəri).

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 5. Seqment məlumatları (davamı)

### Coğrafi məlumatlar

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizində (TRACECA) birləşdirici rol oynayır, yük və sərnişinlərin dəniz daşımalarını həyata keçirir, habelə neft-qaz əməliyyatları üçün texniki xidmətlər göstərir. Şirkətin fəaliyyətinə təsir edə biləcək digər amil Azərbaycan, Gürcüstan və Türkiyənin dəmir yollarını birləşdirən yeni “Bakı-Tbilisi-Qars Yeni Dəmir Yolu” dəhlizi layihəsidir. Bu layihə ilə Xəzər dənizindən Avropaya Türkiyə üzərindən yeni dəmir yolu dəhlizi açılır. Rəhbərlik hesab edir ki, Türkiyə ilə Mərkəzi Asiya ölkələri arasında ticarətin artması ticarət axınlarını, xüsusən də Orta Asiyadan Türkiyəyə idxal olunan xammalı və Türkiyənin ixrac etdiyi hazır məhsulları cəlb etmək üçün əhəmiyyətli imkanlar yaradır. Rəhbərlik Xəzər dənizi və Qara dəniz regionlarında göstərilən xidmətlərə bir-birindən birbaşa asılı olan xidmətlər kompleksi kimi yanaşır. Buna görə də rəhbərlik regional bölgüdən asılı olmayaraq maliyyə məlumatlarını bütövlükdə təhlil etməyə üstünlük verir.

## 6. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və məhdudlaşdırılmış pul vəsaitləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və məhdudlaşdırılmış pul vəsaitləri göstərilən tarixlərdə aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| AZN ilə bank qalıqları | 3,847 | 4,371 |
| ABŞ dolları ilə bank qalıqları | 274,119 | 29,043 |
| Digər valyutalar | 348 | 939 |
| **Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **278,314** | **34,353** |
| ƏDV depozit hesabı, AZN | 259 | 406 |
| **Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və məhdudlaşdırılmış pul vəsaitləri** | **278,573** | **34,759** |

1 yanvar 2008-ci il tarixindən başlayaraq dövlət vergi orqanları ƏDV depozit hesablarını və bu hesablar vasitəsilə əvəzləşdirilən və hesablanan ƏDV üzrə icbari ödəmələri tətbiq etmişdir. Bu yeni vergi qanunvericiliyinə uyğun olmaq üçün Qrup ƏDV üzrə depozit hesabını açmışdır. Bu qanunvericiliyə uyğun olaraq ƏDV depozit hesabındakı qalıq vergi orqanlarına 45 gün əvvəl bildiriş göndərməklə çıxarılır.

## 7. Ticarət və digər debitor borcları

Ticarət və digər debitor borcları göstərilən tarixlərdə aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Ticarət borcları | 104,073 | 247,973 |
| Uzunmüddətli ticarət debitor borcları | 116,684 | – |
| Çıxılsın: GKZ | (16,565) | (15,515) |
| **Cəmi ticarət debitor borcları** | **204,192** | **232,458** |
| Digər debitor borcları | 165 | 139 |
| **Cəmi ticarət və digər debitor borcları** | **204,357** | **232,597** |

Ticarət debitor borcları əsasən dəniz nəqliyyatı, yüklərin daşınması və Qrupun müştərilərinə göstərdiyi digər xidmətlər üzrə müştərilərdən alınacaq məbləğlərdən ibarətdir.

70,351 AZN (31 dekabr 2022-ci il: 86,140 AZN) məbləğində ticarət və digər debitor borcları əsasən ABŞ dolları və Avro olan xarici valyutalarla ifadə edilmişdir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 7. Ticarət və digər debitor borcları (davamı)

Qrupun Müşahidə Şurasının 25 dekabr 2023-cü il tarixli qərarından sonra Qrup və “Azneft” İB, Qrupun “Azneft” İB-dən 194,636 AZN məbləğində ticarət debitor borclarının ödənişi cədvəlinə dəyişiklik etmək qərarına gəlmişdir. Yenidən nəzərdən keçirilmiş cədvələ əsasən, debitor borclarının ümumi məbləği 2024-cü ildən 2026-cı ilədək ödəniləcək. Hər iki müəssisənin ümumi nəzarət altında olması səbəbindən, bu maliyyə aktivinə edilən dəyişiklik nəticəsində 2023-cü ildə 16,178 AZN məbləğində zərər tanınmış və birbaşa kapital vasitəsilə qeydə alınmışdır. 31 dekabr 2023-cü il tarixinə 2024-cü ildən sonra əldə olunacaq ödənişlərin cari dəyəri Qrupun maliyyə vəziyyəti haqqında hesabatında uzunmüddətli ticarət debitor borcları kimi uçota alınır.

Ticarət debitor borcları üzrə GKZ üçün ehtiyatda hərəkət aşağıdakı kimi olmuşdur:

| | **2023-cü il** | **2022-ci il** |
|---|---|---|
| **1 yanvar tarixində** | **(15,515)** | **(7,266)** |
| GKZ | (1,050) | (8,249) |
| **31 dekabr tarixində** | **(16,565)** | **(15,515)** |

## 8. Vergilər üzrə debitor borcları

Vergilər üzrə debitor borcları gələcək vergi öhdəlikləri ilə əvəzləşdirmə vasitəsilə və ya vergi orqanları tərəfindən birbaşa ödənilmiş pul vəsaitləri kimi bərpa olunur.

Vergilər üzrə debitor borcları göstərilən tarixlərdə aşağıdakılardan ibarət olmuşdur:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Dövlət büdcəsindən alınacaq məbləğlər | 896 | 1,465 |
| Əvəzləşdirilən ƏDV | 8,647 | 8,722 |
| **Cəmi vergilər üzrə debitor borcları** | **9,543** | **10,187** |

Dövlət büdcəsindən alınacaq məbləğlər il ərzində vergilər üzrə edilmiş avans ödənişləri ilə əlaqədardır. Əvəzləşdirilən ƏDV hesabat dövründə ödənilməmiş alışlar üzrə kreditor borcları ilə bağlıdır və müvafiq kreditor borcunun ödənilməsi və əlaqədar xidmətlərin göstərilməsindən sonra tələb olunacaq tikinti işləri üzrə avans ödənişin edilməsindən sonra tələb edilməlidir.

## 9. Avans ödənişləri

Avans ödənişləri göstərilən tarixlərdə aşağıdakılardan ibarət olmuşdur:

| | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Ticarət və xidmətlər üçün qısamüddətli avans ödənişləri | 8,000 | 6,558 |
| Gəmilərin tikintisi üçün uzunmüddətli avans ödənişləri | 33,911 | 36,919 |
| **Cəmi avans ödənişləri** | **41,911** | **43,477** |

31 dekabr 2023 və 2022-ci il tarixlərinə avans ödənişləri əsas etibarı ilə təchizatçılara gəmilərin tikintisi, xammal, ehtiyat hissələri və materiallar, avadanlıq, eləcə də gəmilərin təmiri və texniki xidmətin göstərilməsi üçün edilmiş avans ödənişlərindən ibarətdir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 10. Mal-material ehtiyatları

Mal-material ehtiyatları göstərilən tarixlərdə aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Xammal və ehtiyat hissələri | 22,803 | 16,711 |
| Yanacaq | 6,901 | 8,955 |
| Digər | 13,884 | 10,747 |
| **Cəmi mal-material ehtiyatları** | **43,588** | **36,413** |

## 11. Ticarət və digər kreditor borcları və digər uzunmüddətli öhdəliklər

31 dekabr 2023 və 2022-ci il tarixlərinə ticarət və digər kreditor borclarına əsasən təchizatçılara gəmilər üçün xammal, ehtiyat hissələri və avadanlıqların alınması və təmiri və texniki xidməti üçün ödəniləcək məbləğlərdən ibarətdir.

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Ticarət kreditor borcları | 14,645 | 20,311 |
| **Cəmi maliyyə kreditor borcları** | **14,645** | **20,311** |
| İşçilər qarşısında cari öhdəliklər | 14,265 | 17,589 |
| **Cəmi ticarət və digər kreditor borcları** | **28,910** | **37,900** |

5,174 AZN (31 dekabr 2022-ci il: 4,769 AZN) məbləğində maliyyə kreditor borcları xarici valyuta ilə (əsas etibarı ilə ABŞ dolları və avro ilə) ifadə edilmişdir.

31 dekabr 2023-cü il tarixinə işçilərə ödəniləcək məbləğlərə 976 AZN (31 dekabr 2022-ci il: 1,023 AZN) məbləğində əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üzrə öhdəliklərin cari hissəsi daxil olmuşdur. 4,905 AZN (31 dekabr 2022-ci il: 4,806 AZN) məbləğində əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üzrə öhdəliklər digər uzunmüddətli öhdəliyə daxil edilmişdir.

*Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üzrə öhdəliklər*

| | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| **1 yanvar tarixində balans dəyəri** | **5,829** | **6,594** |
| İstifadə | (2,240) | (2,490) |
| Cari dəyər diskontunun qaytarılması | 589 | 423 |
| Əlavələr | 1,500 | 2,924 |
| Dəyişikliyin təxminlərə təsiri (diskont dərəcəsi) | 203 | (1,622) |
| **31 dekabr tarixində balans dəyəri** | **5,881** | **5,829** |
| *Bunlardan*: | | |
| Cari | 976 | 1,023 |
| Uzunmüddətli | 4,905 | 4,806 |

Qrup öz işçilərinə işlədikləri müddətdə onların sağlamlığına dəyən zərəri kompensasiya etmək, habelə işdə həlak olmuş işçilərin ailələrinə kompensasiya vermək öhdəliyinə malikdir. Qrup 31 dekabr 2023 və 2022-ci il tarixlərinə müvafiq olaraq 10.03% və 10.1% diskont dərəcəsindən istifadə etməklə işçilərə xəsarət üçün ödənişlərin diskontlaşdırılmış dəyərini hesablamışdır. Xəsarət almış işçilərə ömürlük ödənişlərin hesablanması məqsədilə Qrup kişilər və qadınlar üçün gözlənilən ömür müddətini müvafiq olaraq 71 və 76 yaş kimi qiymətləndirmişdir. Hesablamada istifadə edilmiş təxmin edilən uçot dərəcəsi rəhbərliyin təxminindən 1 faiz yüksək/aşağı olsaydı, əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödəniş üzrə öhdəliyin balans dəyəri müvafiq olaraq 298 AZN az / 419 AZN yüksək olardı.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 12. Borc öhdəlikləri

31 dekabr 2023 və 2022-ci il tarixlərinə Qrupun uzunmüddətli borc öhdəliklərinin cari hissəsi və qısamüddətli borc öhdəlikləri aşağıdakılardan ibarət olmuşdur:

| Vəsaitlər | Faiz dərəcəsi | Ödəniş tarixi | 31 dekabr 2023-cü il tarixinə qalıq | 31 dekabr 2022-ci il tarixinə qalıq |
|---|---|---|---|---|
| AZN ilə qısamüddətli kreditlər | 3.65% | avqust 2024-cü il | 213 | 264 |
| Uzunmüddətli kreditlərin cari hissəsi | | | 4,235 | 4,235 |
| Uzunmüddətli istiqrazların cari hissəsi | 6% | mart 2028-ci il | 3,400 | – |
| **Cəmi qısamüddətli və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi** | | | **7,848** | **4,499** |

2023-cü ilin mart ayında Qrup ödəniş müddəti 5 il olan 100 milyon ABŞ dolları məbləğində istiqrazlar buraxmışdır, onlar ictimaiyyətə açıq olub və yerli fond birjalarında dövriyyəyə buraxılıb. Hər bir istiqrazın nominal dəyəri istiqraz sahiblərinə yarım ildə bir dəfə ödənilən 6% sabit kupon dərəcəsi ilə 1 min ABŞ dollarına bərabər olmuşdur. 31 dekabr 2023 və 2022-ci il tarixlərinə Qrupun uzunmüddətli borc öhdəlikləri aşağıdakılardan ibarət olmuşdur:

| | | | 31 dekabr 2023-cü il tarixinə qalıq | | 31 dekabr 2022-ci il tarixinə qalıq | |
|---|---|---|---|---|---|---|
| Vəsaitlər | Faiz dərəcəsi | Ödəniş tarixi | Uzunmüddətli hissəsi | Cari hissəsi | Uzunmüddətli hissəsi | Cari hissəsi |
| 42 milyon AZN | 3.65% | avqust 2024-cü il | – | 4,235 | 4,235 | 4,235 |
| 170 milyon AZN | 6% | mart 2028-ci il | 169,490 | 3,400 | – | – |
| **Cəmi uzunmüddətli borc öhdəlikləri** | | | **169,490** | **7,635** | **4,235** | **4,235** |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 13. Gəmilər, əsas vəsaitlər

Gəmilərin, əsas vəsaitlərin balans dəyərində hərəkət aşağıdakı kimi olmuşdur:

| | Binalar və tikililər | Maşın və avadanlıqlar | Gəmilər və liman avadanlıqları | Nəqliyyat vasitələri, mebel və digər | Tamamlanmamış tikinti | Cəmi |
|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | | |
| **1 yanvar 2022-ci il** | **146,558** | **33,637** | **1,473,687** | **36,129** | **192,140** | **1,882,151** |
| Əlavələr | 3 | 1,844 | 27 | 1,641 | 103,685 | **107,200** |
| Silinmələr | (1) | (1,802) | – | (526) | – | **(2,329)** |
| Köçürmələr | – | – | 167,656 | – | (167,656) | **–** |
| **31 dekabr 2022-ci il** | **146,560** | **33,679** | **1,641,370** | **37,244** | **128,169** | **1,987,022** |
| Əlavələr | 1,508 | 2,280 | 72 | 2,176 | 82,335 | **88,371** |
| Silinmələr | (1,521) | (258) | – | (399) | – | **(2,178)** |
| Köçürmələr | 119 | 2 | 46,008 | 1 | (46,130) | **–** |
| **31 dekabr 2023-cü il** | **146,666** | **35,703** | **1,687,450** | **39,022** | **164,374** | **2,073,215** |
| **Köhnəlmə** | | | | | | |
| **1 yanvar 2022-ci il** | **(36,132)** | **(25,656)** | **(845,324)** | **(23,914)** | **–** | **(931,026)** |
| İl üzrə köhnəlmə xərci | (5,791) | (2,978) | (82,373) | (2,744) | – | **(93,886)** |
| Silinmələr | – | 1,653 | – | 501 | – | **2,154** |
| **31 dekabr 2022-ci il** | **(41,923)** | **(26,981)** | **(927,697)** | **(26,157)** | **–** | **(1,022,758)** |
| İl üzrə köhnəlmə xərci | (5,823) | (2,744) | (76,128) | (2,580) | – | **(87,275)** |
| Silinmələr | 1,569 | 241 | – | 295 | – | **2,105** |
| **31 dekabr 2023-cü il** | **(46,177)** | **(29,484)** | **(1,003,825)** | **(28,442)** | **–** | **(1,107,928)** |
| **Xalis balans dəyəri** | | | | | | |
| **1 yanvar 2022-ci il** | **110,426** | **7,981** | **628,363** | **12,215** | **192,140** | **951,125** |
| **31 dekabr 2022-ci il** | **104,637** | **6,698** | **713,673** | **11,087** | **128,169** | **964,264** |
| **31 dekabr 2023-cü il** | **100,489** | **6,219** | **683,625** | **10,580** | **164,374** | **965,287** |

## 14. İstifadə hüququ olan aktivlər və icarə öhdəlikləri

### Qrup icarəçi qismində

31 dekabr 2022-ci il tarixində başa çatan il ərzində Qrupun Qara dəniz regionunda beyrboat-çarter müqavilələri əsasında icarəyə götürülmüş 2 tanker üçün icarə müqavilələri olmuşdur. 2023-cü ildə Qrup Caspian Marine Services-dən iki gəminin icarəsini dayandırmaq qərarına gəlmişdir. Şirkət bu icarə müqavilələri ilə bağlı müvafiq icarə öhdəliklərinin və istifadə hüququ olan aktivinin tanınmasını dayandırmış və 1,238 AZN məbləğində mənfəəti tanımışdır.

## 15. Səhm kapitalı və əlavə ödənilmiş kapital

### Səhm kapitalı

31 dekabr 2023 və 2022-ci il tarixlərinə Şirkət nominal dəyəri 1 Azərbaycan Manatı olan 440,050,998 sayda səhmin buraxılmasını təsdiqləmiş və Qrupun yeganə və yekun səhmdarı olan Azərbaycan Respublikasının Hökumətinə buraxmışdır.

### Əlavə ödənilmiş kapital

2023-cü ildə Qrupun əlavə ödənilmiş kapitalında 232,000 AZN (2022-ci il: 30,000 AZN) məbləğində artım pul vəsaiti formasında köçürülmüşdür. Bu məbləğ nizamnamə kapitalında qeydə alınmayan dövlət ayırmalarını əks etdirir.

## 16. Gəlirlərin kateqoriyalar üzrə təhlili

| | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| Gəlirlər | 424,234 | 508,341 |
| İcarə gəliri | 99,961 | 61,730 |
| **Cəmi gəlirlər** | **524,195** | **570,071** |

İcarə gəliri beyrboat və taym-çarter müqavilələrindən əldə edilən gəlirlərdən ibarətdir. Gəlirlərə yük və sərnişin daşımaları, texniki xidmət və logistika xidmətləri daxildir. 31 dekabr 2023 və 2022-ci il tarixlərində başa çatan illər üzrə gəlirlər aşağıdakılardan ibarət olmuşdur:

| | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| Dəniz nəqliyyatı xidməti | 177,734 | 249,120 |
| Yük və sərnişin daşımaları | 239,766 | 250,336 |
| Logistika xidmətləri | 108 | 1,147 |
| Digər gəlirlər | 6,626 | 7,738 |
| **Cəmi** | **424,234** | **508,341** |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 17. Xərclərin xüsusiyyətinə görə təhlili

31 dekabr 2023 və 2022-ci il tarixlərində başa çatan illər üzrə satışların maya dəyəri, sosial, ümumi və inzibati xərclər və digər əməliyyat xərcləri aşağıdakılardan ibarət olmuşdur:

| | 2023-cü il | 2022-ci il* |
|---|---|---|
| Əmək haqqı və sosial müdafiə xərcləri | 193,976 | 168,471 |
| Gəmilərin, əsas vəsaitlərin, icarəyə götürülmüş aktivlərin amortizasiyası (Qeyd 13) | 86,543 | 95,609 |
| İstifadə edilən xammal və materiallar | 66,264 | 81,890 |
| Təmir və texniki xidmət xərcləri | 34,292 | 32,306 |
| Liman haqları | 24,930 | 33,209 |
| Yemək xərcləri | 16,027 | 16,132 |
| Əvəzi ödənilən xərclər | 13,467 | 6,927 |
| Üzücü heyətin üzvlərinin sutkalıq yol xərcləri | 13,455 | 10,393 |
| Nəqliyyat xərcləri | 8,516 | 7,284 |
| Mənfəət vergisi istisna olmaqla digər vergilər | 6,357 | 6,423 |
| Sığorta xərcləri | 5,902 | 5,868 |
| Kommunal xərclər | 4,514 | 4,893 |
| Gəmilərin qeydiyyatı xərcləri | 4,106 | 3,818 |
| Sosial evlərin təmin edilməsi | 4,063 | 3,754 |
| Agentlik və broker xidmətləri üçün xərclər | 2,949 | 4,740 |
| Təhlükəsizlik xərcləri | 2,493 | 2,987 |
| İcarə xərcləri | 2,883 | 257 |
| GKZ | 1,050 | 8,249 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 899 | 887 |
| Ezamiyyə xərcləri | 773 | 310 |
| Logistika xərcləri | 117 | 1,276 |
| Mal-material üzrə ehtiyatda dəyişiklik | (2,087) | (1,282) |
| Digər | 22,360 | 14,198 |
| **Cəmi satışların maya dəyəri, sosial, ümumi, inzibati və digər əməliyyat xərcləri** | **513,849** | **508,599** |

* *Cari ilin təqdimatına uyğunlaşdırmaq üçün müqayisəli məlumatlara müəyyən yenidən təsnifatlar edilmişdir.*

Cari ildə, audit xidmətlərinin dəyəri 364 AZN (ƏDV istisna olmaqla) olmuşdur.

## 18. Əlaqəli tərəflərlə qalıqlar və əməliyyatlar

### Baş rəhbərliyə ödənişlər

Qrupun baş rəhbərliyinə Qrupun sədri və səkkiz müavini daxildir. Qrupun baş rəhbərliyinin bütün üzvləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir. Baş rəhbərliyin üzvləri təsdiqlənmiş əmək haqqı cədvəlinə uyğun olaraq Qrup tərəfindən əmək haqqı və mükafatlarla təmin edilir. 2023-cü il ərzində baş rəhbərliyə cəmi ödənişlər 874 AZN (2022-ci il: 685 AZN) təşkil etmişdir.

Qrupun əhəmiyyətli əməliyyatlar apardığı və ya əhəmiyyətli qalıqlara malik olduğu əlaqəli tərəflərlə münasibətlər aşağıda göstərilir.

## 18. Əlaqəli tərəflərlə qalıqlar və əməliyyatlar (davamı)

**Baş rəhbərliyə ödənişlər (davamı)**

31 dekabr 2023 və 2022-ci il tarixlərinə Qrupun əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqları aşağıda əks etdirilir:

| | Dövlət və onun nəzarətində olan müəssisələr 31 dekabr 2023-cü il | Dövlət və onun nəzarətində olan müəssisələr 31 dekabr 2022-ci il |
|---|---|---|
| Ticarət və digər debitor borcları | 191,241 | 203,539 |
| GKZ | (7,022) | (10,038) |
| Qısamüddətli avans ödənişləri | 773 | 462 |
| Uzunmüddətli avans ödənişləri | 33,223 | 31,895 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və məhdudiyyət qoyulmuş pul vəsaitləri | 277,141 | 32,264 |
| Uzunmüddətli kredit | – | (4,235) |
| Qısamüddətli kredit və uzunmüddətli kreditin cari hissəsi | (4,448) | (4,499) |
| Ticarət və digər kreditor borcları | (5,815) | (13,103) |
| Uzunmüddətli istiqrazlar | (85,000) | – |

31 dekabr 2023 və 2022-ci il tarixlərinə əlaqəli tərəflərlə əməliyyatlar aşağıda əks etdirilir:

| | Dövlət və onun nəzarətində olan müəssisələr 31 dekabr 2023-cü il | Dövlət və onun nəzarətində olan müəssisələr 31 dekabr 2022-ci il |
|---|---|---|
| Yük və sərnişin daşıması xidmətləri | 73,309 | 82,694 |
| Dəniz nəqliyyatı xidmətləri | 177,682 | 226,754 |
| Digər əməliyyat gəliri | 4,301 | 5,976 |
| Təmir və texniki xidmət xərcləri | (3,498) | (1,706) |
| Kommunal xərclər | (2,791) | (3,221) |
| Port xərcləri | (8,332) | (12,430) |
| Maliyyə xərci | (259) | (448) |
| Digər xərclər | (13,146) | (13,711) |

**Əlaqəli tərəflərlə əməliyyatların şərtləri**

Əlaqəli tərəflərə əsas satışlar və əlaqəli tərəflərdən əsas alışlar bazar qiymətləri ilə aparılır. İlin sonuna ödənilməmiş qalıqlar təminatsızdır və hesablaşmalar nağd şəkildə aparılır. Əlaqəli tərəflər üzrə debitor və kreditor borcları üçün zəmanətlər olmamışdır.

2023-cü ildə aktiv əlaqəli tərəfdən Qrupa ödənişsiz qaydada köçürülmüşdür. Köçürülmüş aktiv Qrupun uçot siyasətinə uyğun olaraq sıfıra bərabər olan ödəniş məbləğində tanınmışdır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 19. Vergilər üzrə kreditor borcları

Vergilər üzrə kreditor borcları aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| ƏDV üzrə kreditor borcları | 423 | 49 |
| Hesablanmış ƏDV | 34,734 | 31,756 |
| Sosial sığorta üzrə ayırmalar | 4,251 | 4,454 |
| Vergi cərimələri və xərcləri | 298 | 298 |
| Digər | 5,225 | 1,451 |
| **Cəmi digər ödəniləcək vergilər** | **44,931** | **38,008** |

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, 1 yanvar 2022-ci il tarixindən etibarən, ƏDV-nin tanınması məqsədilə malların, işlərin və xidmətlərin satışı müştərilərdən ödənişlər alındıqdan sonra tanınır. Hesablanmış ƏDV hesabat dövründə ödənilməmiş satılmış mallar, işlər, xidmətlərə görə debitor borclarına aiddir.

## 20. Mənfəət vergisi

Mənfəət vergisi aşağıdakılardan ibarətdir:

| | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | 10,157 | 19,357 |
| Təxirə salınmış vergi xərci | 2,520 | 7,275 |
| **31 dekabr tarixində başa çatan il üzrə mənfəət vergisi xərci** | **12,677** | **26,632** |

Gözlənilən və faktiki vergi xərclərinin üzləşdirilməsi aşağıda göstərilir:

| | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl mənfəət** | **(56,362)** | **(92,073)** |
| **Qanunvericiliklə müəyyən edilmiş 20 faiz vergi dərəcəsinə əsasən nəzəri vergi xərci** | **11,272** | **18,415** |
| Gəlirdən çıxılmayan xərclərin vergi effekti | 6,955 | 8,789 |
| Tanınmamış müvəqqəti fərqlər | (198) | 825 |
| Vergidən azad edilən zərər | (1,352) | – |
| Birgə müəssisə ilə bağlı tanınmamış müvəqqəti fərq | (2,659) | – |
| Digər | (1,341) | (1,397) |
| **Mənfəət və ya zərərdə bildirilmiş mənfəət vergisi xərci** | **12,677** | **26,632** |

Gəlirdən çıxılmayan xərclər əsasən sosial və işçilərlə bağlı xərclərdən, habelə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, dövlət tərəfindən maliyyələşdirilən aktivlərin köhnəlmə xərclərinin 60 faizindən ibarətdir. Birgə müəssisə ilə bağlı tanınmamış müvəqqəti fərq, birgə müəssisəyə investisiyanın ilkin tanınması zamanı əlverişli əməliyyatdan əldə edilən mənfəətdən ibarətdir. Qrup bu mənfəətin geri qaytarılmasına nəzarət edə bilər və yaxın gələcəkdə satış formasında geri qaytarılmanın mümkün olmadığı qənaətindədir. Qrup bu qaytarılmanın baş vermə ehtimalını hər il yenidən qiymətləndirəcək.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 20. Mənfəət vergisi (davamı)

MHBS və qüvvədə olan yerli vergi qanunvericiliyi arasındakı fərqlər maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün aktivlərin və öhdəliklərin balans dəyəri və onların vergi əsasları arasındakı müvəqqəti fərqlərə səbəb olmuşdur. Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

| | 31 dekabr 2022-ci il | Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir hesabatında müvəqqəti fərqlərin yaranması və qaytarılması | Birbaşa kapitalda tanınan müvəqqəti fərqlərin yaranması və qaytarılması | 31 dekabr 2023-cü il |
|---|---|---|---|---|
| **Gəlirdən çıxılan / (vergi tutulan) müvəqqəti fərqlərin vergiyə təsiri** | | | | |
| İstifadə hüququ olan aktiv | 1,831 | (1,831) | – | – |
| Gəmilər, əsas vəsaitlər | 41,300 | 2,715 | – | 44,015 |
| Mal-material ehtiyatları | (995) | 273 | – | (722) |
| Ticarət və digər debitor borcları | (3,185) | (763) | (3,236) | (7,184) |
| Cari icarə öhdəlikləri | (519) | 519 | – | – |
| Ticarət və digər kreditor borcları | (2,737) | (78) | – | (2,815) |
| Qısamüddətli və uzunmüddətli avans ödəmələri | (13) | – | – | (13) |
| Uzunmüddətli istiqrazların uzunmüddətli hissəsi | – | 102 | – | 102 |
| Uzunmüddətli və qısamüddətli ehtiyatlar | – | 24 | – | 24 |
| Uzunmüddətli icarə öhdəlikləri | (1,559) | 1,559 | – | – |
| **Təxirə salınmış vergi öhdəlikləri** | **34,123** | **2,520** | **(3,236)** | **33,407** |

| | 31 dekabr 2021-ci il | Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər ümumi gəlir hesabatında müvəqqəti fərqlərin yaranması və qaytarılması | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Gəlirdən çıxılan / (vergi tutulan) müvəqqəti fərqlərin vergiyə təsiri** | | | |
| İstifadə hüququ olan aktiv | 2,288 | (457) | 1,831 |
| Gəmilər, əsas vəsaitlər | 34,147 | 7,153 | 41,300 |
| Mal-material ehtiyatları | (1,244) | 249 | (995) |
| Ticarət və digər debitor borcları | (2,225) | (960) | (3,185) |
| Cari icarə öhdəlikləri | (2,765) | 2,246 | (519) |
| Ticarət və digər kreditor borcları | (1,726) | (1,011) | (2,737) |
| Qısamüddətli və uzunmüddətli avans ödəmələri | (13) | – | (13) |
| Uzunmüddətli kredit | 226 | (226) | – |
| Uzunmüddətli icarə öhdəlikləri | (1,840) | 281 | (1,559) |
| **Təxirə salınmış vergi öhdəlikləri** | **26,848** | **7,275** | **34,123** |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 20. Mənfəət vergisi (davamı)

Mənfəət vergisi üzrə debitor və kreditor borcları aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Mənfəət vergisi üzrə debitor borcları | 5,221 | – |
| **Cəmi mənfəət vergisi üzrə debitor borcları** | **5,221** | **–** |

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Mənfəət vergisi üzrə kreditor borcları | – | 11,102 |
| **Cəmi mənfəət vergisi üzrə kreditor borcları** | **–** | **11,102** |

## 21. Digər əməliyyat gəlirləri

Digər əməliyyat gəlirləri aşağıdakılardan ibarətdir:

| | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| Digər malların və göstərilmiş xidmətlərin satışı | 14,908 | 12,363 |
| Alyans razılaşmasından gəlir | 10,443 | 10,480 |
| Digər | 25,139 | 9,984 |
| **Cəmi müqavilələrdən digər əməliyyat gəliri** | **50,490** | **32,827** |

Müttəfiqlik sazişindən əldə edilən gəlir Azərbaycan Respublikasında və Xəzər dənizi regionunda fəaliyyət göstərən neft şirkətlərinə dənizdə dəstək xidmətlərinin göstərilməsindən əldə edilən gəlirlərdən ibarətdir. Digər gəlirə 22-ci Qeyddə qeyd olunduğu kimi, birgə müəssisənin ilkin tanınması zamanı tanınmış 13,294 AZN məbləğində əlverişli əməliyyatdan əldə edilən mənfəət daxildir.

## 22. Birgə müəssisəyə investisiya

1-ci Qeyddə göstərildiyi kimi, SA Maritime AFEZCO Qrupa və SOCAR-a məxsus yeni yaradılmış birgə müəssisədir və hər bir tərəfin şirkətdəki payı 50% təşkil edir. Aşağıdakı cədvəldə Qrupun birgə müəssisəyə investisiyasının balans dəyərindəki hərəkətlər ümumiləşdirilir:

| | 2023-cü il |
|---|---|
| **1 yanvar tarixində balans dəyəri** | – |
| Birgə müəssisəyə investisiyaya əlavələr | 170,000 |
| Əlverişli əməliyyatdan əldə edilən mənfəət | 13,294 |
| BM-in vergidən sonrakı nəticələrində pay | 6,761 |
| **31 dekabr tarixində balans dəyəri** | **190,055** |

2023-cü ildə SA Maritime AFEZCO-nun yaradılmasına uyğun olaraq, aktiv formasında kapital qoyuluşu edilmişdir. Qrup SA Maritime AFEZCO-nun xalis aktivlərinin ədalətli dəyərinin onların dəyərindən artıq olan hissəsinin 50%-ni digər əməliyyat gəliri sətri altında əlverişli əməliyyatdan əldə edilən mənfəət kimi tanımışdır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 22. Birgə müəssisəyə investisiya (davamı)

**SA MARITIME AFEZCO-nun maliyyə vəziyyəti haqqında hesabatının ümumi icmalı:**

| | **31 dekabr 2023-cü il** |
|---|---|
| Cari aktivlər | 79,240 |
| o cümlədən, pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 67,046 |
| Uzunmüddətli aktivlər | 301,490 |
| Cari öhdəliklər | (620) |
| **Xalis aktivlər** | **380,110** |
| Qrupun sahiblik payı | 50% |
| **Xalis aktivlərdə faiz** | **190,055** |
| Alınmış dividendlər | – |
| **Qrupun investisiyasının balans dəyəri** | **190,055** |

**SA MARITIME AFEZCO-nun mənfəət və ya zərər haqqında hesabatının ümumi icmalı:**

| | **2023-cü il** |
|---|---|
| Gəlirlər | 28,279 |
| Satışların maya dəyəri | (15,335) |
| **Ümumi mənfəət** | **12,944** |
| Ümumi və inzibati xərclər | (278) |
| Digər əməliyyat gəliri | 885 |
| Digər əməliyyat xərcləri | (32) |
| Məzənnə fərqindən zərər | 4 |
| **Əməliyyat mənfəəti** | **13,523** |
| Mənfəət vergisi xərci | – |
| **İl üzrə mənfəət** | **13,523** |
| İl üzrə digər ümumi gəlir | – |
| **Cəmi il üzrə məcmu gəlir** | **13,523** |
| **Qrupun il üzrə mənfəətdə payı** | **6,762** |

## 23. Maliyyə risklərinin idarə edilməsi

**Maliyyə riski amilləri**

Qrupun müvafiq bacarıq, təcrübə və səlahiyyətləri olan rəhbərliyi risklərin idarə edilməsinə nəzarət edir və Qrupun ümumi vəziyyəti üzrə müntəzəm monitorinqi həyata keçirir. Risklərin idarə edilməsi üzrə bu proses Qrup üçün çox önəmlidir və Qrupda çalışan aparıcı mütəxəssislər vəzifələrinə uyğun risk həcminə görə məsuliyyət daşıyırlar.

Qrupun əsas maliyyə öhdəlikləri ticarət kreditor borcları, qısamüddətli və uzunmüddətli kreditlərdən ibarətdir. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, məhdudiyyət qoyulmuş pul vəsaitləri, ticarət və digər debitor borcları Qrupun əsas maliyyə aktivləridir. Həm əsas maliyyə öhdəlikləri, həm də maliyyə aktivləri birbaşa Qrupun əməliyyatlarından irəli gəlir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 23. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Maliyyə riski amilləri (davamı)

Fəaliyyətin adi gedişində Qrup kredit, likvidlik və bazar risklərinə məruz qalır. Bazar riski alınan və satılan malların dəyişkən qiymətləri, digər xammalların qiymətləri, valyuta məzənnələri və faiz dərəcələri dəyişmələri nəticəsində yaranır. Bazar qiymətlərindəki bu cür dəyişikliklər, həcmindən asılı olaraq, Qrupun maliyyə vəziyyətinin dəyişməsinə səbəb ola bilər. Qrupun ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və Qrupun maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün Qrupun əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. İdarəetmə üzrə müəyyən edilmiş rəsmi prosedurlarına uyğun olaraq Qrupun rəhbərliyi maliyyə risklərini cari bazar mövqeyinə istinadən müəyyən edir və qiymətləndirir.

### Bazar riski

Qrup bazar risklərinə məruz qalır. Bazar riskləri ümumi və xüsusi bazar hərəkətlərinin təsirinə məruz qalan i) xarici valyuta; ii) faiz hesablanan aktivlər və öhdəliklərin açıq mövqelərindən irəli gəlir. Rəhbərlik qəbul edilə bilən riskin dəyəri üzrə limitlər müəyyən edir və bunların üzərində müntəzəm monitorinq aparır. Bununla bərabər, bu yanaşmadan istifadə daha əhəmiyyətli bazar hərəkətləri olanda bu limitlərdən kənara çıxan zərərlərin qarşısını almır.

*i) Xarici valyuta riski*

Qrup fəaliyyətin adi gedişində müxtəlif xarici valyuta üzrə məzənnə riskinə (əsas etibarı ilə ABŞ dolları ilə əlaqədar) məruz qalır. Xarici valyuta üzrə məzənnə riskləri əsasən gələcək kommersiya əməliyyatlarından, aktiv və öhdəliklər funksional valyutadan fərqli valyutada ifadə edildikdə, uçota alınmış aktiv və öhdəliklərdən yaranır.

Qrupun xarici müştərilər və təchizatçılarla olan borc öhdəliklərinin və satışlarının əksəriyyəti ABŞ dolları ilə ifadə edilir. 31 dekabr 2023 və 2022-ci il tarixlərində başa çatan illər ərzində Azərbaycan Manatının ABŞ dolları və digər önəmli valyutalara qarşı əhəmiyyətli devalvasiyası olmamışdır.

Rəhbərlik Qrupun xarici valyuta riskini heclәmir.

Bütün digər dəyişənlərin sabit qalması şərti ilə, Qrupun vergidən sonra mənfəətinin ABŞ dolları, Avro üzrə məzənnələrdəki mümkün dəyişikliklərə qarşı həssaslıq təhlili aşağıdakı cədvəldə göstərilir. Qrupun kapital balansına əhəmiyyətli təsir göstərilmir:

| | Məzənnənin dəyişməsi (+/-) | 2023-cü ilin vergidən sonrakı mənfəətinə təsir | Məzənnənin dəyişməsi (+/-) | 2022-ci ilin vergidən sonrakı mənfəətinə təsir |
|---|---|---|---|---|
| ABŞ dolları/AZN | 20.00%/-3.00% | 33,574/(5,036) | 20.00%/-3.00% | 22,107/(3,316) |
| AVRO/AZN | 21.00%/-9.00% | 142/(61) | 21.00%/-9.00% | 85/(36) |

*ii) Faiz dərəcəsi riski*

Qrup dəyişkən faiz dərəcəli maliyyə öhdəlikləri üzrə faiz dərəcəsi riskinə məruz qalır. Bu riskin azaldılması məqsədilə Qrupun rəhbərliyi cari faiz dərəcəsinin müntəzəm təhlilini aparır və bu təhlildən asılı olaraq rəhbərlik maliyyələşməni sabit və ya dəyişkən dərəcə əsasında əldə edilməsinin daha əlverişli olub-olmamasına dair qərarı qəbul edir. Cari bazarda sabit və ya dəyişkən faiz dərəcəsi ilə baş vermiş dəyişiklik əhəmiyyətli hesab edildiyi təqdirdə rəhbərlik müəyyən borcun daha əlverişli faiz dərəcəsi ilə yenidən maliyyələşdirməsini nəzərdən keçirə bilər.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 23. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Bazar riski (davamı)

Faiz dərəcələrində dəyişikliklər əsasən borc öhdəliklərinin ədalətli dəyərinə (sabit faizli borclar) və ya gələcək pul vəsaitlərinin hərəkətinə (dəyişkən faizli borclar) təsir edir. Rəhbərlik Qrupun risklərinin sabit və ya dəyişkən faiz dərəcələri üzrə təsirini müəyyən etmək üçün rəsmi siyasətə malik deyil. Lakin, yeni borc öhdəliklərinin cəlb edilməsi zamanı rəhbərlik ödəniş tarixinədək gözlənilən müddət ərzində həmin borc öhdəlikləri üzrə sabit və ya dəyişkən faiz dərəcələrindən hansının daha əlverişli olacağına dair qərar qəbul etmək üçün öz mülahizələrindən istifadə edir. 31 dekabr 2023-cü və 2022-ci il tarixlərinə Qrupun əhəmiyyətli dərəcədə dəyişən faiz dərəcəsi riskinə məruz qalan faiz hesablanan öhdəlikləri və aktivləri olmamışdır.

### Kredit riski və kredit risklərinin konsentrasiyası

Kredit riski qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Qrupa dəyə biləcək potensial maliyyə zərəridir.

Qrupun kredit riskinə məruz qalan maliyyə alətləri ilk növbədə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və ticarət debitor borclarından ibarətdir.

Qrup pul vəsaitlərini Azərbaycan Respublikasında tanınmış maliyyə təşkilatlarında saxlayır. Qrupun pul vəsaitləri əsasən Azərbaycan Hökumətinin nəzarətində olan Azərbaycan Beynəlxalq Bankında (“ABB”) yerləşdirilir. 31 dekabr 2023-cü il tarixinə ABB-də saxlanılan pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri 275,572 AZN (31 dekabr 2022-ci il: 31,992 AZN) təşkil etmişdir. Qrup hesablarının olduğu bankların statusuna daim nəzarət edir.

Qrupun məruz qaldığı kredit riskinin maksimum dərəcəsi konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyəri üzrə əks etdirilir və aşağıdakı cədvəldə aktivlərin kateqoriyalarına görə təsnifləşdirilir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 6) | 278,314 | 34,353 |
| Ticarət və digər debitor borcları, xalis (Qeyd 7) | 204,357 | 232,597 |
| **Cəmi maksimal kredit riski** | **482,671** | **266,950** |

### Ticarət debitor borcları

Müştərinin kredit riski Qrupun müştərinin kredit riskinin idarə edilməsinə dair təsis edilmiş siyasəti, prosedurları və nəzarət sisteminə uyğun olaraq hər bir təsərrüfat bölməsi tərəfindən idarə edilir. Müştərinin kreditinin keyfiyyəti geniş kredit reytinqi cədvəli əsasında qiymətləndirilir və həmin qiymətləndirməyə uyğun olaraq fərdi kredit limitləri müəyyən edilir.

Hər hesabat tarixində gözlənilən kredit zərərlərini ölçmək üçün ehtiyat matrisi istifadə etməklə qiymətləndirmə təhlili aparılır. Ehtiyat dərəcələri oxşar zərər sxemləri olan (məsələn, coğrafi baxımdan, məhsul növü, müştərinin növü və reytinqi, akkreditiv və ya digər kredit sığortası növü ilə əhatə) müxtəlif müştəri seqmentlərinin qruplaşmasına görə keçmiş günlərin sayına əsaslanır. Hesablama mümkünlük baxımından ölçülmüş nəticələri, pulların vaxt dəyərini və hesabat tarixində keçmiş hadisələr haqqında mövcud olan əsaslı və təsdiqlənə bilən məlumata, cari şəraitləri və gələcək iqtisadi şəraitlərin proqnozlarını əks etdirir. Hesabat tarixində kredit riskinin maksimal həcmi aşağıdakı cədvəldə göstərilən hər bir maliyyə aktivləri sinfinin balans dəyəridir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 23. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Ticarət debitor borcları (davamı)

31 dekabr 2023 və 2022-ci il tarixlərinə gözlənilən kredit zərəri üzrə ehtiyat müştərilərdən alınacaq debitor borcları üzrə aşağıdakı kimi müəyyən edilmişdir:

| **31 dekabr 2023-cü il** | **30 günədək vaxtı keçmiş** | **30-60 gün vaxtı keçmiş** | **61-90 gün vaxtı keçmiş** | **91-360 gün vaxtı keçmiş** | **360 gündən çox vaxtı keçmiş** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| Ticarət debitor borclarının ümumi balans dəyəri | 44,115 | 15,696 | 16,790 | 56,038 | 88,118 | **220,757** |
| Çıxılsın: GKZ | (908) | (255) | (108) | (2,023) | (13,271) | **(16,565)** |
| **Xalis ticarət debitor borcları** | **43,207** | **15,441** | **16,682** | **54,015** | **74,847** | **204,192** |

| **31 dekabr 2022-ci il** | **30 günədək vaxtı keçmiş** | **30-60 gün vaxtı keçmiş** | **61-90 gün vaxtı keçmiş** | **91-360 gün vaxtı keçmiş** | **360 gündən çox vaxtı keçmiş** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| Ticarət debitor borclarının ümumi balans dəyəri | 72,176 | 19,095 | 19,058 | 131,612 | 6,032 | **247,973** |
| Çıxılsın: GKZ üçün ehtiyat | (4,234) | (887) | (1,096) | (7,189) | (2,109) | **(15,515)** |
| **Xalis ticarət debitor borcları** | **67,942** | **18,208** | **17,962** | **124,423** | **3,923** | **232,458** |

Qrup qəbul etdiyi kredit riskinin səviyyələrini bir qarşı tərəf və ya qarşı tərəflər qrupu üzrə risk həcmlərinə limit qoymaqla strukturlaşdırır. Bu risklər hər il və ya daha tez-tez təhlil edilir. Kateqoriyalara görə kredit riskinin səviyyəsi üzrə limitlər rəhbərlik tərəfindən hər il təsdiq edilir.

Maliyyə aktivlərinin kredit keyfiyyətini qiymətləndirərkən, Qrup qarşı tərəfin xüsusiyyətini, keçmiş dövrlər üzrə məlumatı, eləcə də defolt dərəcələri haqqında məlumatı və kredit keyfiyyətini qiymətləndirmək üçün istifadə edilə bilən digər mövcud məlumatları nəzərə alır.

Debitor borcları əsasən yerli bazarda fəaliyyət göstərən iri müştərilərdən dəniz nəqliyyatı xidməti və daşıma xidmətləri üzrə debitor borclarından ibarətdir. Qrupun debitor borclarından irəli gələn kredit riski daha sonra müştərilərin krediti ödəmək qabiliyyətini daim izləməklə azaldılır.

### Likvidlik riski

Likvidlik riski Qrupun ödəmə vaxtı çatmış maliyyə öhdəliklərinin yerinə yetirə bilməyəcəyi təqdirdə yaranan riskdir. Likvidliyin idarə edilməsinə Qrupun yanaşması həm adi, həm də qeyri-standart şəraitdə, məqbul olmayan zərər çəkmədən və ya Qrupun nüfuzuna ziyan vurmadan, öhdəlikləri yerinə yetirməli olanda kifayət qədər likvidliyi təmin etməkdən ibarətdir. Likvidlik riskini idarə edərkən Qrup kifayət qədər pul ehtiyatları və borc öhdəlikləri saxlayır, proqnozlaşdırılmış və faktiki pul vəsaitlərinin hərəkətinə davamlı olaraq nəzarət edir.

Likvidlik riskinin düzgün idarə olunması funksiyasına kifayət qədər dövriyyə kapitalının saxlanması və bazar mövqelərinin bağlana bilməsi daxildir. Rəhbərlik, Qrupun likvidlik ehtiyatı üzrə davamlı proqnozlara gözlənilən pul vəsaitlərinin hərəkətinə əsasən nəzarət edir.

Qrupun bütün maliyyə öhdəlikləri qeyri-törəmə maliyyə alətlərindən ibarətdir. Aşağıdakı cədvəldə Qrupun maliyyə öhdəlikləri konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat tarixindən müqavilədə nəzərdə tutulan ödəmə tarixinədək qalan dövr üzrə müvafiq ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər müqavilədə nəzərdə tutulan diskont edilməmiş pul vəsaitlərinin hərəkətini əks etdirir. Diskontlaşmanın təsiri əhəmiyyətli olmadığı üçün 12 ay ərzində ödənilməli olan qalıqlar təxminən onların balans dəyərinə bərabərdir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 23. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Likvidlik riski (davamı)

31 dekabr 2023 və 2022-ci il tarixlərinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| 31 dekabr 2023-cü il | Qeydlər | 3 ayadək | 3-12 ay | 1-5 il | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|---|
| Ticarət kreditor borcları | 11 | 14,645 | – | – | – | **14,645** |
| Borc öhdəlikləri | | 5,744 | 2,156 | 169,490 | – | **177,390** |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | | **20,389** | **2,156** | **169,490** | | **192,035** |

| 31 dekabr 2022-ci il | Qeydlər | 3 ayadək | 3-12 ay | 1-5 il | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|---|
| Ticarət kreditor borcları | 11 | 20,311 | – | – | – | **20,311** |
| Borc öhdəlikləri | | 2,276 | 2,233 | 4,351 | – | **8,860** |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | | **22,587** | **2,233** | **4,351** | **–** | **29,171** |

### Maliyyə alətlərinin ədalətli dəyəri

Maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri alətin könüllü tərəflər arasında məcburi və ya ləğv etmə satışı olmayan cari əməliyyatlar zamanı mübadilə edilə bildiyi məbləğlə daxil edilir. Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Qrup tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək vacibdir. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Aşağıdakı cədvəldə konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilmiş maliyyə alətləri balans dəyərləri və ədalətli dəyər sinifləri üzrə müqayisə edilir:

| | 31 dekabr 2023-cü il | |
|---|---|---|
| | **Balans dəyərləri** | **Ədalətli dəyərlər** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 6) | 278,314 | 278,314 |
| Cəmi maliyyə debitor borcları (Qeyd 7) | 204,357 | 204,357 |
| **Cəmi maliyyə aktivləri** | **482,671** | **482,671** |
| Cəmi maliyyə kreditor borcları (Qeyd 11) | 14,645 | 14,645 |
| Uzunmüddətli istiqrazların cari hissəsi (Qeyd 12) | 3,400 | 3,400 |
| Qısamüddətli kreditlər və uzunmüddətli kreditin cari hissəsi (Qeyd 12) | 4,448 | 4,448 |
| Uzunmüddətli istiqrazların uzunmüddətli hissəsi (Qeyd 12) | 169,490 | 171,424 |
| **Cəmi maliyyə öhdəlikləri** | **191,983** | **193,917** |

| | 31 dekabr 2022-ci il | |
|---|---|---|
| | **Balans dəyərləri** | **Ədalətli dəyərlər** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 6) | 34,353 | 34,353 |
| Cəmi maliyyə debitor borcları (Qeyd 7) | 232,458 | 232,458 |
| **Cəmi maliyyə aktivləri** | **266,811** | **266,811** |
| Cəmi maliyyə kreditor borcları (Qeyd 11) | 20,311 | 20,311 |
| Qısamüddətli kreditlər və uzunmüddətli kreditin cari hissəsi (Qeyd 12) | 4,499 | 4,499 |
| Uzunmüddətli kredit (Qeyd 12) | 4,235 | 4,029 |
| **Cəmi maliyyə öhdəlikləri** | **29,045** | **28,839** |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 23. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

Ədalətli dəyərlər qiymətləndirilərkən, aşağıdakı metod və fərziyyələr istifadə edilmişdir:

*i)* Qısamüddətli maliyyə aktivləri və öhdəlikləri, əsas etibarı ilə bu alətlərin qısamüddətli olduğuna görə, balans dəyərlərini təxmin edir;

*ii)* Uzunmüddətli müəyyən dərəcəli və dəyişən dərəcəli debitor borcları / borc öhdəlikləri Qrup tərəfindən faiz dərəcələri, ölkə üzrə xüsusi risk amilləri, müştərinin fərdi krediti ödəmə qabiliyyəti və maliyyələşdirilən layihənin risk xüsusiyyətləri kimi parametrlərə əsaslanaraq Səviyyə 3-ün giriş məlumatlarından istifadə etməklə qiymətləndirilir.

### Kapitalın idarə edilməsi

Kapitalın idarə edilməsində Qrupun əsas məqsədi düzgün investisiya qərarları qəbul etməklə biznes əməliyyatlarının maliyyələşdirilməsi və davam etdirilməsi üçün güclü kapital bazasının təmin edilməsi və investorun və kreditorun güvənini qorumaqla öz işgüzar fəaliyyətinin dəstəklənməsindən ibarətdir.

Qrup 100% Azərbaycan Respublikasının hökumətinə məxsusdur və yeni gəmilərin alınması üçün vaxtaşırı olaraq Dövlət investisiyaları şəklində vəsaitlər alır.

Qrupun idarə etdiyi məcmu kapital aşağıdakı cədvəldə göstərilir:

| | Qeyd | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| Uzunmüddətli kredit | 12 | – | 4,235 |
| Qısamüddətli kreditlər və uzunmüddətli kreditin cari hissəsi | 12 | 4,448 | 4,499 |
| Ticarət və digər kreditor borcları və hesablanmış öhdəliklər | 11 | 28,910 | 37,900 |
| Uzunmüddətli istiqrazların cari hissəsi | 12 | 3,400 | – |
| Uzunmüddətli istiqrazların uzunmüddətli hissəsi | 12 | 169,490 | – |
| Çıxılsın: pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 6 | (278,314) | (34,353) |
| **Xalis borc** | | **(72,066)** | **12,281** |
| Kapital | | 1,436,432 | 1,173,690 |
| **Kapital və xalis borc** | | **1,364,366** | **1,185,971** |
| Ödəmə qabiliyyəti əmsalı | | -5% | 1% |

## 24. Maliyyə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər

| | 1 yanvar 2023-cü il | Pul vəsaitlərinin hərəkəti | Maliyyə xərci | Məzənnə fərqi üzrə hərəkət | Digər | 31 dekabr 2023-cü il |
|---|---|---|---|---|---|---|
| Qısamüddətli kreditlər və uzunmüddətli kreditlərin cari hissəsi | **4,499** | (4,286) | – | – | 4,235 | **4,448** |
| Uzunmüddətli kreditlər | **4,235** | (259) | 259 | – | (4,235) | **–** |
| İcarə öhdəlikləri | **10,391** | – | – | – | (10,391) | **–** |
| Uzunmüddətli istiqrazların cari hissəsi | **–** | (5,100) | 8,500 | – | – | **3,400** |
| Uzunmüddətli istiqrazların uzunmüddətli hissəsi | **–** | (510) | | | 170,000 | **169,490** |
| **Maliyyələşdirmə fəaliyyətindən cəmi öhdəliklər** | **19,125** | **(10,155)** | **8,759** | **–** | **159,609** | **177,338** |

## 24. Maliyyə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər (davamı)

| | 1 yanvar 2022-ci il | Pul vəsaitlərinin hərəkəti | Maliyyə xərci | Məzənnə fərqi üzrə hərəkət | Digər | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|---|---|
| Qısamüddətli kreditlər və uzunmüddətli kreditlərin cari hissəsi | **4,553** | (4,320) | 31 | – | 4,235 | **4,499** |
| Uzunmüddətli kreditlər | **8,469** | (416) | 417 | – | (4,235) | **4,235** |
| İcarə öhdəlikləri | **23,024** | (12,984) | 351 | – | – | **10,391** |
| **Maliyyələşdirmə fəaliyyətindən cəmi öhdəliklər** | **36,046** | **(17,720)** | **799** | **–** | **–** | **19,125** |

Qısamüddətli və uzunmüddətli kreditlərin "Digər" sütunu 4,235 AZN (2022-ci il: 4,235 AZN) məbləğində uzunmüddətli kreditin cari hissəsinin qısamüddətli kimi təsnifləşdirilməsi, 10,391 AZN məbləğində icarə öhdəliklərinin tanınmasının dayandırılması və 170,000 AZN məbləğində istiqrazların buraxılmasından daxilolmalarla təmsil olunur.

## 25. Potensial öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri

### Əməliyyat mühiti

Qrupun əməliyyatları əsasən Xəzər dənizi hövzəsində həyata keçirilir. Bununla bərabər, 2023-cü il ərzində quru yük daşımalarının 36%-ni və maye yük daşımalarının 20%-ni Qara dəniz hövzəsində həyata keçirilmiş əməliyyatlar təşkil edirdi.

Bazar sistemi formalaşma mərhələsində olan Azərbaycan Respublikasında hal-hazırda daha yetkin bazar iqtisadiyyatlarına xas olan biznes və tənzimləyici infrastruktura sahib deyil.

Azərbaycan iqtisadi islahatları aparmağa və hüquqi, vergi və nizamlayıcı infrastrukturu təkmilləşdirməyə davam edir. Azərbaycan iqtisadiyyatının gələcək sabitliyi önəmli dərəcədə islahatlardan, Hökumətin gördüyü iqtisadi, maliyyə və monetar tədbirlərinin effektivliyindən, xam neftin qiymətindən və Azərbaycan manatının sabitliyindən asılıdır.

Azərbaycan iqtisadiyyatı neft qiymətlərinin aşağı düşməsi və Azərbaycan manatının 2015-ci il ərzində devalvasiyasının mənfi təsirinə məruz qalmışdır. Bu, kapital əldə etmək imkanlarının məhdudlaşması, kapital dəyərinin artması, inflyasiya və iqtisadi artımın qeyri-müəyyənliyi kimi amillərə səbəb olmuşdur.

Bu çətinliklərə cavab olaraq, Azərbaycan hökuməti islahatları sürətləndirmək və maliyyə sisteminə dəstək vermək planlarını açıqlamışdır. 6 dekabr 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti *"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"*ni təsdiqləmişdir. Yol xəritəsi 2016-2020-ci illərdə inkişaf strategiyasını, 2025-ci ilədək uzunmüddətli perspektivləri və 2025-ci ildən sonrakı dövrə nəzəri əhatə edir.

2022-ci ildə Azərbaycanın ÜDM-ni neft və qeyri-neft sektorunda əhəmiyyətli artım hesabına 4,6% artmışdır. Bu, əsasən, karbohidrogenlərin yüksək qlobal qiymətləri ixrac gəlirlərini artırdığı üçün xarici valyuta daxilolmalarının artması ilə bağlıdır. Bu amillər nəticəsində artan pul kütləsi 2023-cü il ərzində bank sektorunda izafi likvidliyə və rekord yüksək mənfəətə gətirib çıxarmış, eyni zamanda defolt dərəcələrinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur.

2022-ci ilin ikinci yarısında və 2023-cü ilin böyük hissəsində qlobal karbohidrogen qiymətlərində azalma müşahidə olunmuş, 2023-cü ilin sentyabr-oktyabr dövründə isə qiymətlər bir qədər yüksəlmişdir. Ölkənin ÜDM-ni 2023-cü ildə cəmi 1,8% artmışdır.

2022-ci və 2023-cü illərdə yüksək orta karbohidrogen qiymətləri yerli valyutaya əlavə sabitlik gətirmişdir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 25. Potensial öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Əməliyyat mühiti (davamı)

Qlobal təchizat zəncirlərinin pozulması, Rusiya Federasiyası ilə Ukrayna arasındakı münaqişə, eləcə də istehlakçıların mallara olan tələbatının artması 2023-cü ildə qlobal iqtisadiyyata əhəmiyyətli inflyasiya təzyiqlərinin yaranması, o cümlədən əmtəə qiymətlərinin kəskin artması ilə nəticələnmişdir.

2023-cü il ərzində qlobal reytinq agentlikləri Azərbaycan hökumətinin kredit reytinqini “Ba1” səviyyəsində qiymətləndiriblər. Qiymətləndirmə son illərdə daha uğurlu fiskal idarəetmə və post pandemiya dövrünə baxmayaraq gələcək şoklara tab gətirmək qabiliyyətinin artması ilə nəticələnən effektiv iqtisadi siyasətin təzahürüdür. İqtisadi canlanma və yüksək karbohidrogen qiymətləri şəraitində ehtiyatlı fiskal idarəetmə sayəsində büdcə göstəriciləri yüksək olaraq qalır və gözləniləndən daha sürətlə artır.

2022-ci və 2023-cü illərdə ARMB bütün dövr ərzində 1 ABŞ dolları üçün 1,7000 AZN səviyyəsində sabit qalan Azərbaycan manatının sabitliyini qorumağa davam etmişdir. 2023-cü il ərzində ARMB pul siyasətini sərtləşdirməyə davam etmiş, nəticədə 31 dekabr 2023-cü il tarixinə yenidən maliyyələşdirmə dərəcəsi 8%- ə çatmışdır (31 dekabr 2022-ci il: 8,25%).

Rəhbərlik cari şəraitdə baş verən bu cür dəyişiklikləri izləməkdədir və Qrupun yaxın gələcəkdə fəaliyyətinin davamlılığı və inkişafını dəstəkləmək üçün lazım hesab etdiyi ehtiyat tədbirlərini görməkdədir.

Qrupun rəhbərliyi hesab edir ki, hal-hazırda Qrupun fəaliyyətinin sabitliyini təmin etmək üçün bütün münasib tədbirlər görülür. Buna baxmayaraq, yuxarıda təsvir edilmiş sahələrdə vəziyyətin gözlənilməz dərəcədə pisləşməsi Qrupun nəticələri və maliyyə vəziyyətinə hazırda dəqiq müəyyən edilə bilməyən mənfi təsir göstərə bilər.

Bu qeyri-müəyyənliklərin gələcəkdə aydınlaşdırılmasından yarana biləcək hər hansı düzəlişlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilməmişdir. Belə düzəlişlər (əgər olarsa), məlum olduğu və təxmin edilə bildiyi dövrdə hesabatda göstəriləcəkdir.

### Məhkəmə prosedurları

Qrupun rəhbərliyi öz təxminlərinə və daxili və xarici peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatlardan başqa heç bir əhəmiyyətli zərər olmayacaqdır.

### Vergi qanunvericiliyi

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq səlahiyyətli orqanlar tərəfindən etiraz edilə bilər.

Qrupun rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür, vergi, xarici valyuta normaları və gömrüklə bağlı Qrupun mövqeləri qorunacaqdır və Qrupun potensial vergi öhdəlikləri hazırkı maliyyə hesabatlarında göstərilən məbləğlərdən artıq olmayacaq.

### Ətraf mühitin qorunması ilə bağlı məsələlər

Hazırda Azərbaycan Respublikasında ətraf mühitin qorunması haqqında qanunvericilik təkmilləşdirilir və ona əməl olunması ilə bağlı hökumət orqanlarının mövqeyinə yenidən baxılır. Qrup, ətraf mühitin qorunması ilə bağlı öhdəliklərini mütəmadi olaraq qiymətləndirir. Öhdəliklər müəyyən edildikcə dərhal uçota alınır. Mövcud qanunvericiliyin və normativ aktların dəyişməsi nəticəsində yarana bilən, eləcə də məhkəmə praktikası nəticəsində kifayət qədər dəqiqliklə qiymətləndirilə bilməyən potensial öhdəliklər əhəmiyyətli ola bilər. Rəhbərlik hesab edir ki, ətraf mühitin qorunması haqqında qüvvədə olan qanunvericiliyə əməl olunması üzrə mövcud nəzarət sistemi şəraitində ətraf mühitə zərər vurulması ilə bağlı əhəmiyyətli öhdəliklər mövcud deyil.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir)*

## 25. Potensial öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Ətraf mühitin qorunması ilə bağlı məsələlər (davamı)

Qrup öz məhsulları, əməliyyatları və digər fəaliyyətləri ilə əlaqədar olaraq ətraf mühitin qorunması haqqında bir sıra qanun və qaydalara riayət etməlidir. Bu qanun və qaydalara əsasən Qrupun əvvəlki illərdə fəaliyyəti nəticəsində ətraf mühitə dəymiş ziyanı aradan qaldırmalıdır. Bu cür öhdəliklər müxtəlif ərazilərdə mövcud olan tullantıların ləğv edilməsi üçün yarana bilər. Bundan əlavə, Qrupun əvvəlki illərdə satılmış aktivlər və ya bağlanmış obyektlər ilə bağlı öhdəlikləri ola bilər. Ətraf mühitə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı əsas tələb və bununla bağlı xərcləri müəyyən etmək mahiyyətcə çətindir. Gələcək xərclərin məbləğinin nəzərəçarpan ola bilməsi və bu cür xərclərin qeydə alındığı dövrdə Qrupun əməliyyat nəticələri üçün əhəmiyyətli ola bilməsinə baxmayaraq bununla bağlı məbləğlərin müəyyən edilməsi praktiki deyildir. Qrup, bu cür xərclərin Qrupun maliyyə vəziyyətinə və ya likvidliyinə əhəmiyyətli dərəcədə təsir göstərəcəyini gözləmir.

### *Rusiya və Ukrayna arasında münaqişə*

2022-ci ilin fevral ayında Rusiya Federasiyası ilə Ukrayna arasında yaşanan münaqişə ilə əlaqədar qərb dövlətlərinin əksəriyyəti Rusiya Federasiyasına qarşı çoxsaylı sanksiyaların tətbiq ediləcəyini bəyan etmişdir.

31 dekabr 2023-cü il tarixinə Qrupun Rusiya şirkətlərindən cəmi debitor borcu 7,125 AZN və Rusiya şirkətlərindən ödənilməmiş debitor borcları üçün tanınmış GKZ 6,403 AZN təşkil etmişdir.

Qrupun rəhbərliyi mövcud şəraitdə iqtisadi vəziyyəti izləyir və Qrupun aktivlərinin yaxın gələcəkdə likvidliyini qorumaq üçün zəruri hesab etdiyi qabaqlayıcı tədbirlər görür.

## 26. Hesabat tarixindən sonra baş vermiş hadisələr

2024-cü ilin fevral ayında Şirkət ödəniş müddəti 5 il olan 50 milyon ABŞ dolları məbləğində daxili istiqrazlar (“İstiqrazlar”) buraxmışdır. İstiqrazlar üzrə illik faiz dərəcəsi ödəmə müddəti başa çatanadək hər yarım ildə bir dəfə ödənilməklə 6% təşkil edir. İstiqrazlar üzrə ödəmə müddəti 2029-cu ilin fevral ayında başa çatır və yerli qiymətli kağızlar bazarında satılır. Şirkət İstiqrazlardan əldə edilən gəlirləri Qara dəniz regionunda fəaliyyət göstərəcək 1 yeni Aframax tipli gəminin alınması üçün istifadə edəcək.

2024-cü ilin mart ayında Müşahidə Şurasının qərarı ilə Qrup Bakı Gəmiqayırma Zavodunun 92 milyon ABŞ dolları dəyərində 4%-lik istiqrazlarını əldə etmişdir.

BEŞ İLLİK HESABAT

# 2019-2023

ASCO

1858